**XALQ ÜÇÜN ÖMRÜNÜ ŞAM KİMİ ƏRİDƏN...**

**(Ağa Musa Nağıyev haqqında Xatirələr və faktlar)**

**Kitab Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci ilin 30 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2209-cu illər)"nın 1.4-ci bəndinin (Gənclərdə vətənpərvərlik hisslərini aşılayan bədii ədəbiyyatın nəşr edilməsi və bədii əsərlərin müsabiqələrinin keçirilməsi) icrasını təmin etmək məqsədi ilə Gənclər və İdman Nazirliyi tərəfindən çap olunmuşdur.**

**Layihənin müəllifi və redaktoru:** **Dilarə Nağıyeva**

**Texniki redaktor:** **Elşən Hüseynov -**

**tarix elmlər namizədi**

**Kompüter tərtibatı:** **Hikmət Hüseynov**

**Şəhla Babayeva**

**Kitabda məşhur milyonçu Ağa Musa Nağıyevin həyatından, neft sahəsində görkəmli şəxsiyyət olduğundan, bu günümüzə çatan çoxlu yadigarlan olan binalanndan, xalqı üçün əvəzsiz işlər görmüş, gələcək nəsillərin gözündə mənfi obraz kimi onun fəaliyyətinin üzərinə kölgə salmağa çalışan Sovet dövrünün kommunist ideologiyasmın siyasətindən və ümumiyyətlə ona qarşı olan müxtəlif baxışlara diqqət yetirilmişdir.**



***"Allah Äzərbaycan xalqına zəngin təbii sərvətlər bəxş etmisdir. Azərbaycan xalqının da dəyərli insanları, böyük alimləri, fədakar neftçiləri və başqa mütəxəssisləri bu zəngin sərvətlərin vətən-xalq naminə istifadə edilməsi iicün böyük işlər görmüşlər. Bu işlərin biri də neft sənayesinin texniki istehsal bazasının infrastrukturunun yaranması olmuşdur".***

***"Azərbaycan nefi sənayesinin qədim və zəngin tarixi var. Äzərbaycan qədim odlar diyarıdır. 1848-ci ildə dünyada ilk dəfə məhz Azərbaycan torpağında neftfontan vurub* və *dünyada neftin sənaye üsulu ilə hasilatına başlanıbdır ". Heydər Əliyev***

**Neft milli sərvətimizdir**

**1875-ci ildə Bakıdakı neft email müəssisələrinin sayı artdıqca sərvət ardınca Abşerona axışan kapitalistlərin sayı da artırdı. Nobel qardaşlannın 1879-cu ildə yaratdiqlan şirkət neft quyulan qazmaq və istismar etməklə yanaşı axtanş, kəşfiyyat, neft email ticarəti, elmi tədqiqat işləri ilə də məşğul olurdular. Sonralar bir sıra şirkətlər də neft emalı ila məşğul olmağa başladılar. O zaman mədənlərdə güçlü fontanlar vururdu. Adi bir insan birdən-birə milyonçuya çevrilirdi. Belələrindən biri də Bakı neft miliyonçusu Ağa Musa Nağıyev idi.**

**İri neft maqnatları arasında xüsusi nüfuza malik olan bu şəxsin adı bu gün də böyük hönnətlə yad edilir.**

**Dövrün tələblərinə uyğun şəkildə iş quran bu insan Azərbaycanın neft sənayesi tarixində özünəməxsus yer tutur. Neftin milli sərvət olduğunu dərk etmək və ondan əldə edilən sərmayənin Bakının inkişafına, arxitekturasına yönəltmək - bu idi Ağa Musa Nağıyevin amalı, düşüncəsi...**

**Bəli, o dövrdə bu həqiqətləri həyata keçirmək nə qədər çətin olsa da, Ağa Musa Nağıyev kimi sahibkarlar bu tarixi imkandan mümkün qədər istifadə edə bildi. Neftdən gələn gəlirin**

xalqın gəliri kimi başa düşülməsinə, bu gəlirdən Vətənin gələcəyi üçün istifadə olunması kimi tarixi bir ənənənin əsasını qoydular.

Sahibkarlığı inkişaf etdirmək, xarici neft maqnatlan ilə rəqabətə girmək, Azarbaycan neft sənayesinin ilk inkişaf dövrlərini təmsil etmək - bütün bunlar milyonçu Ağa Musa Nağıyevin həyatında başlıca şüar oldu.

Azərbaycanın neft sənayesi tarixi şərəfli yol keçərək özünün bu günkü mərhələsinə çatmışdır.

20 sentyabr 1994-cü ildə Bakıda dünyanın apancı neft şirkətləri ilə imzalanan "Əsrin Müqaviləsi" Azərbaycanın yeni dövrdə neft strategiyasının əsasını qoydu.

2005-ci ildə Heydər Əliyev adına "Bakı - Tbilisi-

Ceyhan" əsas ixrac bora neft kəmərinin istifadəyə verilməsi Azərbaycan, Gürcüstan va Türkiyə üctin mühüm tarixi hadisəyə çemusa Nağıyev xəstəxanasıvrildi.

Beləliklə, "Əsrin Müqaviləsi" adı ilə bağlanan neft-qaz kontraktlan üzrə görülən işlər Azərbaycan neft-qaz sənayesinin inkişafca yeni mərhələsinə qədəm qoydu.

Bütün bu parlaq uğurlar xalqımızın ümummilli lideri Heydər Əliyevin əvəzsiz rolü və xidmətləri ilə bağlıdır.

Böyük bir tarixə malik olan Azərbaycan neft sənayesinin bu günkü naaliyyətləri sözsüz ki, ölkəmizin ənənəsi ilə uzlaşır. Xalqın misilsiz sərvəti sayılan neftdən gələn gəlirin onun maddi rifahının yüksəlməsinə yönəlməsi bu siyasətin başlıca məqsədlərindən sayılmalıdır.

Buna görə də neft-qaz müqavilələrinin gerçəkləşməsi, əldə olunan vəsaitlərin səmərəli şəkildə istifadə olunması məqsədilə Azərbaycan Respublikasınm Prezidentinin 29 oktyabr 1999-cu il tarixli fərmanı ilə "Dövlət Neft Fondu" yaradıldı. Fondun məqsədi vəsaitlərin şəffaf şəkildə xalqımızın ən zəruri ehtiyaclanna yönəltməkdən ibarətdir.

Xaliq Rəhimli
publisist

## MÜNDƏRİCAT

səhifə
Neft milli sərvətimizdir ... 4
Ön söz və minnətdarlıq ... 9
Ağa Musa Nağıyev yer üzündə cənnət axtarışmda olub ... 10
Azərbaycan xalqmm xoşbəxtliyi ondadır ki ... 16
Ağa MusaNağıyev - maarifpərvər milyonçu ... 18
Ağa MusaNağıyevin halal haqqı qaytarılmalıdır ... 19
Nağıyevlərin gülümsünən ... çırpmtıları ... 22
Fətulla fəcri - Ağa Musa Nağıyevin qaranlıq taleyinə
azdaolsa,işıqsaçdı ... 26
Ağa Musa Nağıyevin xalqa xidmət yolu ... 28
Fətulla Fəcrinin Ağa MusaNağıyevə həsr etdiyi kitabm
təqdimatıoldu ... 30
Unutqanlıqmillətinmənəvi faciəsidir ... 34
Farix ölməzdir, tarix təkrar olunur ... 36
Bir daha şəxsiyyət - Ağa MusaNağıyevhaqqında ... 38
Gəlin düşünək...Saman satan oğlu ... 41
"... Mənkörpə Fərəci oğulluğa götürmüşəm" ... 44
Neftkralı, neftmaqnatı, xeyriyyəçi, milyonçu
AğaMusaNağıyevin həyatvəfəaliyyətihaqqmda ... 47
FərəcNağıyev - milyonçu Ağa MusaNağıyevin vərəsəsi ... 53
Səhnəfə daisi FərəcNağıyev ... 57
Neft səltənətinin banisi Ağa Musa Nağıyevin varisi
FərəcNağıyev ... 64

... 67
Fərəc Nağıyeyin anadan olmasmm 100 illlyinə
həsr olımmuş buklet ... 72
Əllərini ver mənə ... 74
Sənətfədaisi,incəsənətvurğunuFərəcNağıyev ... 77
Ağa MusaNağıyevin ikinci dəftıində Fərəc Nağıyevin
həyat yoldaşı Zəhrə xanımm iştirakı ... 86
Nə olub onun günahı? ... 89
AğaMusaNağıyevinxalqaxidmətyolundaçatışmayancəhəti ... 92
Tarix yaradan insan ... 93
Əfsanəvi insan ... 97
Xalq üçün ömrünü şam kimi əridən insan ... 101
Azərbaycan sənayesində milli burjuaziya ... 102
Ağa Musa Nağıyevin xeyriyyəçiliyi haqqmda ... 106
Ağa Musa maariflənməyə vəsait ayırmaqla bərabər
azarkeşlik də edib ... 110
Ağa Musanm «YÜK»lü taleyi, xeyriyyəçi Hacı Əvəzin
meydana gəlişi ... 114
Dörd məzar ... 122
Ağa Musa Nağıyev hətta imperatordan da çəkinmirdi ... 125
AğaMusanm admmxəstəxanayaqaytarılması haqqmda ... 126
Ağa Musa Nağıyevin bakıda tikdirdiyi 98 binadan
bəzilərinin siyahısı ... 129
Ağa Musanm adı həmişə yaşayacaq, çünki Bakmm tacmda
İsmailiyyə kimi daş-qaş parlayır ... 147
İsmailiyyə haqqmda ... 149
Ağa Musanı xəsislikdə ittiham edirdilər. Onun vaxtsız ölümünə
ermənilər səbəb olub ... 153
Qeyri adi yuxu ... 160
Dünyada mayası haram olmayan tikililər qalır Azərbaycan Dövlət
İqtisad Universiteti də Ağa Musa Nağıyevin tikililərindəndir ... 164
Şəmsəddin Hacıyev Ağa Musa Nağıyevin vəsiyyətinə əməl etdi .172
Ağa Musa Nağıyevin vəfatmm 85 ili tamam oldu ... 174
Ağa Musa Nağıyevin vəfatmm 86 ili tamam oldu ... 175
"İsmailiyyə " Bakı üçün Ağa Musanm ixtirasıdır ... 177
Dünyanm malı dünyadaqalar ... 178
Ağa Musaya bir xatirə lövhəsi ... 183
Xatirə lövhəsi (layihə) Ağa Musa Nağıyev adma xəstəxana ... 185

Ağa MusaNağıyevin anadan olmasmm 150 illiyi .................................... 18

........................................................................................................................ 192
Bir ömrün iziilə ........................................................................................... 197
Neft milyonçusu Ağa Musa Nağıyevin nəvəsi Dilarə Nağıyeva
(Əliəsgər) Fərəc qızı haqqmda.................................................................... 203
Kimi yaşadacaq dünya?............................................................................... 207
4 mart 2000-ci il Ağa Musanm həyatmda bir tarix
oldu.Tikdirdiyi xəstəxanada Ağa Musa guşəsi açıldı ................................ 211
Ağa Musa binalarla bərabər kilsə də tikdirib ............................................. 215
Ağa Musanm taleyinə işıq saçmaq nəvəsi Solmaz xanıma
da nəsib olub................................................................................................ 221
Maraqlı hadisə ............................................................................................. 225
Milyonçunun nəvələri varisliyə iddialıdır .................................................. 227
Qəzəl ........................................................................................................... 229
Neft Abşeronun sərvətidir ........................................................................... 230
Tikdim ki, izim qala...Məşhur milyonçu Ağa Musa Nağıyevin
ölümündən 87 il ötdü .................................................................................. 231
Son söz.........................................................................................................234
Mən fəxr edirəm ki, Ağa Musa Nağıyev tikdirdiyi
binada işləyirəm! ........................................................................................ 236
Dünyada mayası haram olmayan tikililər qalır!......................................... 238
Ehtiram borcu............................................................................................... 238
Ağa Musa Nağıyev Azərbaycanm daş yaddaşıdır...................................... 241
Kirov Ağa Musa Nağıyevi yerindən dəbərtdi ............................................ 243

## Ön sözvəminnətdarlıq

Bakımn arxitekturasma gözəllik verən, tikdirdiyi binalarm və vəsaitinin hesabma görə Ağa Musa Nağıyev 11 milyonçular sırasmda birinci olmuşdur. Sovet dövrü və Kommunist ideologiyasmm siyasəti xalqı üçün əvəzsiz işlər görmüş milyonçunu gələcək nəsillərin gözündə mənfı obraz kimi qələmə verməyə çalışmışdır.

Ağa MusaNağıyev haqqmda ədəbiyyatm az olması da bu baxımdandır.

Kitabda "Azərbaycanxalqmm xoşbəxtliyi ondadır ki..."; "Maarifpərvər milyonçu"; "Nağıyevlərin gülümsünən çırpmtıları"; "Xalqma xidmət yolu"; "Bir zamanlar bu dünyada nər kişilər yaşadılar"; "Onun haqqmda nə qədər çox danışılsa, xəyallar "İsmailiyyə"nin ətrafmda dolanır"; "Ehtiram borcu Ağa Musa sərvətinin qırmızılaşdırılmasma, talan edilməsinə, hətta ruhuna belə rahatlıq verilməməsinə baxmayaraq" sərlövhələri altmda yazılan sətirlərdə müəlliflər Ağa Musanm halal haqqmm özünə qaytarılmasma cəhd göstərmişlər.

Gözünün ağı-qarası olan, İsmayıl sarıdan ürəyinə düşən ağrıya məlhəm qoyan oğlu-vərəsəsi Fərəc Nağıyevin incəsənət aləmində izi və əməli işləri A.M.Nağıyevin xalqa xidmət yolunun bir növ davamıdır.

Düşünürəm ki, kitabda onların hər ikisinin barəsində deyilənxoş sözlərnəciblikdir, keçmişimizə ehtiraməlamətidir.

A.M.Nağıyevə həsr edilmiş bu kitabm ərsəyə gəlməsində Respublikanm Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyinə, Dövlət İqtisad Universitetinin əməkdaşlarınm əməyinə görə dərin təşəkkürümü bildirirəm.

Həmçinin Nərmin Samirqızma - nəvəmə kitabm hazırlanmasmda göstərdiyi köməyinə və səyinə görə təşəkkür edirəm.

Kitabdakı çatışmamazlığa və təvazökarlığa görə məsuliyyəti özüzərimə götürürəm.

**Dilarə Nağıyeva**

## Ağa Musa Nağıyev yer üzündə cənnət axtarışında olub

Azərbaycan xalqmm öz tarixi siyasi və ictimai şəraitinə görə XIX-XX əsrlərdə milli ənənələrini, iqtisadiyyatmı, o cümlədən yerli sahibkarlarm neftdən əldə etdikləri gəlirlər hesabına bu gün müstəqil Azərbaycanm bütün sahələrində fəaliyyət göstərən alimlərin, iqtisadçılarm və digər mütəxəssislərin ərsəyə gəlməsində milli burjuaziyamızm böyük xidmətləri olmuşdur.

Lakin təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan Demokratik Cümhuriyyətinin devrilməsindən sonra, 1920-ci ilin sosialist inqilabı illər boyu ərsəyə gəlmiş özünün böyük və milli burjuaziyası sayılan A.M.Nağıyev, H.Z.Tağıyev, M.Muxtarov, İ.Hacmski, Aşurbəyov və başqalarmı səhv və yanlış təhlillər nəticəsində unutmağa çalışırdı.

Adı XX əsrin əwəlsrində Azərbaycanm məşhur 11 milyonçusu sırasma düşən və bu siyahıda öncül yerlərdən birini tutan AğaMusaNağıyev 1849- cu ildə Bakıda anadan olub.

Ağa Musa Nağıyev xalqımızm məşhur «Tikmədim özüm qalam, tikdim ki, izim qala» deyimini özünə şüar götürmüşdür.

Varidatmm ümumi miqdarı 690 milyon qızıl pul -məbləğində dəyərləndirilən Ağa Musa Nağıyev bu kapitalmı təkcə binatikintisinə deyil, həm də o dövrdə cəhalət girdabmda boğulan xalqmm maariflənməsinə, onun dünyagörüşünün və ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etmişdir.

Ağa Musa Nağıyevin ən ağrılı yerlərindən biri Azərbaycanm səhiyyə sistemindəki problemlər idi. Məhz səhiyyənin aşağı səviyyədə olması səbəbindən əziz oğlu İsmayılı itirən və bu itkinin ağrısmı daim qəlbində gəzdirən Ağa Musa Nağıyev başqasmm da övladları xəstəlikdən ölməsin deyə, xəstəxanalar tikdirməyə çalışırdı.

Doğumla ölüm arasmdakı ömür adlı məsafədə hərə öz həyatmm traektoriyasmı cızır. Dünyaya göz açdığımız kimi, bir gün də gözlərimizi yumub, əlvida deyirik. Ancaq hər şey bununla bitmir. Çünki axirət evinin qapısına hərə bir cür üz tutur. İnsanlar var ki, elə dünyaya gəldiyi kimi paк, günahsız, mömin bir müsəlman olaraq köçür bu dünyadan. İllər boyu rəhmət oxunur, gördüyü işlər minnətdarlıqla xatırlanır.

O insanlardan biri də, Azərbaycan xalqmm qürur duyacağı böyük oğlu, Bakı milyonçusu Ağa Musa Nağıyevdir.

Əbəs deyil ki, onun və digər azərbaycanlı xeyriyyəçilərin əməyi və pulları sayəsində Bakıda qısa müddət ərzində bütöv bir ziyalı nəsli də təşəkkül tapdı.

Nağıyev «Realnı məktəb»i tikdirir və məktəbdə oxuyan tələbələrin təhsil haqqmm ödənilməsini öz üzərinə götürür. Onun fəaliyyəti yalnız bununla məhdudlaşmır.

Bəzəkli İsmailiyyə, rokko və borokko üslubunda tikdirdiyi «n» qədər məbədlər! Bunlar Bakmm qapısmdakı dünya üzünə açılan ən gözəl peyzajlardır, nəqşidir Azərbaycanımızm.

Savadsız və gənc olmasma baxmayaraq həyatm nəbzini psixoloq dəqiqliyi ilə tuta bilmiş Ağa Musa Nağıyev, əzab-əziyyətlə topladığı vəsaiti HARA, NİYƏ və NƏYƏ xərcləməyi bacarıb.

Ağa Musa Nağıyev Bakı Neft Sənayeçiləri Qurultayı şurasmm, Bakı Ağ neft zavodları İttifaqmm (1891) və Sərəncam Komitəsininüzvüolub.

O, hazır məhsullarm satışa çıxarılması, ixrac tariflərinin azaldılması və sair məsələlər barədə Komitə iclaslarmda çıxış edib, ideya verib, tələblər irəli sürüb.

O, xeyirxahlığı, müsbət əməlləri, ziyalı təfəkkürü ilə zəmanəsinin mesenatları arasmda özünəməxsus şərəfli yer tutur. Lakin nədənsə dövrünün qara qüwələri - bədxahlan, nadanları sözün məcazi mənasmda həyat universitetinin iqtisad fakültəsini «qırmızı diplomla» başa vurmuş Ağa Musa Nağıyevin işıqlı fəaliyyətinə qara don geydirmişlər. Allahın özünə belə xoş gələn qənaətçiliyini, zərrə qədər israfa varmadığını ifrat dərəcədə qabardaraq üzərinə «xəsis» və ya <<simic>> damğası vurmuşlar.

Deyirlər insan o zaman ölür ki, onu xatırlayan sonuncu şəxs də həyatdan köçür. Neft milyonçusu və xeyriyyəçi Ağa Musa Nağıyev sadə bir ailədə dünyaya göz açmasma, heç bir təhsil almamasma baxmayaraq, həyatda özünə fərasəti və ağlı ilə yol açıb. Onun xalqm ehtiyaclarmdan irəli gələn hər bir çağırışa vaxtmda cavab verməsi, doğma şəhəri ilə bağlı bütün xeyriyyəçilik işlərində yaxmdan fəal iştirakı, şəhərimiz üçün qoyub getdikləri onaəbədilik qazandırıb.

1920-ci ilin aprelində bolşeviklərin Azərbaycanı işğal etdikdən sonra Ağa Musanm bu istedadlı, dərrakəli, enerjili və fərasətli addımları o vaxtkı cəmiyyətin dayaqlarından birinin, bəlkə də, dövrünün ən zəngin azərbaycanlısmm varislərini müflisetdi.

Azərbaycan oğullarma və qızlarma bir müraciətim var: keçmişə nəzər salıb, tariximizi dərindən öyrənib, düşünməyi bacarsmlar.

Ağa Musa Nağıyev Bakmm iri mülk sahibkarlarmdan birincisi olub, onun başqa milyonçulardan fərqli cəhəti, köhnə Bakmm memarlıq simasmaən çox töhfə verməsidir.

Böyük alman fılosofu Karley Tomasm belə bir qeydi var ki, yer üzündə nə qədər oğullar varsa, xalqlar onun şöhrəti arxasmdagizlənib.

Belə oğullar var, ancaq onlarm sayı çox deyil. Azərbaycan xalqmm belə oğullarmdan biri də milyonçu, xeyirxahlıq mücəssəməsi olan Ağa Musa Nağıyevdir. Onu uzun illər yaddan çıxartmaq istəsələr də, gördüyü işləri və xeyirxah əməlləri ilə ölməzlik qazanıb, admı əbədi olaraq tarixə yazıb. Bu isəhərkəsənəsibolmur.

XIX əsrin sonu, XX əsrin əwələrində Azərbaycanda qazılan neft quyularmdan fontan vuran "qara qızılm" hesabma Bakıda xeyli milyonçular meydana gəlmişdi. Onlann sərvət sahiblərinə çevrilmələri üçün bir quyunun fontan vurması kifayət edirdi. Əwəllər bir parça çörək qazanmaq üçün iynə ilə gor qazanlar, bir andamilyonçuya çevrilirdilər.

Fərəc müəllimin anadan olmasmm 100 illiyi ərəfəsində Dilarə xanım zərif çiyinlərindəki nəsil şəcərəsinin ağır, unudulmuş yükünü görüləcək dərəcədə yüngülləşdirmişdi. Uzun illər cürət edib haqqmda danışılmayan milyonçu Ağa Musa Nağıyevin ayaq altmda qalmış "əmanət" qəbrinin qədim Biləcəri kəndindəki "əbədi evinə" köçürülməsinə də o, cəhd göstərmişdir.

Məzarüstü yaddaş daşı qoyuldu. Dilarə xanım Ağa Musa Nağıyevin uzun illər yaddaşlaşması həsrəti ilə yaşadı, fani dünyadan köçmüş atası Fərəc Nağıyevi də xatırladı. Arzularmdan çox az hissəsini həyata keçirə bilən mərd Dilarə xanım indi də yorulmadan çalışır, sözün əsil mənasıda iqtisadçı olan Ağa Musa Nağıyevin öz binasmda "İsmailiyyə"də onu təntənəiləyadetdirsin.

1890-1892-ci illərdə artıq Ağa Musa varlanıb, milyonçuya çevrilir. Beləliklə zaman onun cılız bədəninə qüwə verir, torpaq isə onu varlandırır.

Qulağmda daima atasmm nəsihəti səslənən: "Oğul! Bacardığm qədər bina tikdir, bir o qədər ömrün uzun olar! " -sözlərini unutmayıb, 98 bina tikdirən Ağa Musa, 70 yaşmda dünyasmı dəyişərkən son sözləri: "Hayıf, iki bina da tikdirsəydim, lOOyaşayardım" olur.

Bu arzu Ağa Musanın nəvələrinin: Dilarə, Solmaz və mərhum Raufun arzusuna çevrildi.İndi onların arzuları da nə vaxt isə 2 bina tikdirib, Ağa Musanın tarixə 100 bina tikdirən kimidüşməsini görməkdir.

Ağa Musa Nağıyev Bakının iri mülk sahibkarlarından birincisi olub, onun başqa milyonçulardan fərqli cəhəti köhnə Bakının memarlıq simasına ən çox töhfə verməsidir

Ağa Musa kimi millətinin yolunda var-dövlətini xərcləməkdən çəkinməyən, qeyrətli sahibkarlarımızın itirilən haqlarını qaytarmasaq da, heç olmasa onların adlarını uca

tutmaqla ruhlarmı şad etməyi bacarmalıyıq.

Ağa Musa Nağıyev haqqmda xoş xatirələr indi-indi Dilarə xanım, Solmaz xanım və bir də artıq dünyasmı dəyişmiş Raufun səyi nəticəsində dərinləşir. Nə qədər Dilarə xanım sağdır, o qədər də, AğaMusaNağıyevyaşayacaq.

Dilarə xanımm Nazim Hikmətin sözlərindən dediyi misralar hər zaman qulaqlarımda cingildəyir: Mən yanmasam, sən yanmasan, bəs qaranlıqları kim işıqlandıracaq?

Dilarə xanımm payma düşüb, Ağa Musa Nağıyevin qaranlıq taleyinə işıq saçmaq.

Ağa Musa Nağıyev həmişə inamlı olub. İnanıb ki, xalqımız qədirbiləndir, min təlatümlər olsa da, qara küləklər əssə də, onun xeyirxahlığı öz layiqli qiymətini alacaqdır. Düşünürəm ki, əgər belə olmasa idi nəhəng tikinti-abadlıq işləri gördürən M.Nağıyevin özünə bir məqbərə-türbə hazırlatmağı çox da çətin olmazdı. Lakin o, inamma arxalanaraq ürəklərdə heykəliniqurmuşdur.

**Sənə ehtiramım ölçüyə gəlməz, Baba həsrətini bir kimsə bilməz. Kim deyirr-Ölənin qədri bilinməz? Torpağın üstündə qoymusan sərvət, Xeyirxah əməlin aləmə ibrət.**



*VətənoğluAğaMusa! Kaş qollarım beşikolaydı, Uzanaydın qollarımda Sən!*

**Nəvən Dilarə Ağamusa**

**Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, „.**

Azərbaycanlılar minilliklər boyu özlərinin tarixi vətənləri olan Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasmda dahi şəxsiyyətləri Nizami Gəncəvi, Q.Təbrizi, İ.Nəsimi, M.FÜzuli, Ş.İ.Xətai ilə tanmmışlar. Azərbaycan qədim torpaq olaraq, zəngin milli mənəvi dəyərləri və dahi şəxsiyyətləri ilə bəşər tarixində öz silinməz izlərini qoymuşdur. Dünyada gedən ictimai-siyasi proseslər zəminində zəngin mədəniyyətə malik olan bu xalq öz dədə-baba torpaqlarmdan departasiya olunmuş, tarixi torpaqlarından didərgin düşmüş və müəyyən zaman kəsiyində əldə etdiyi milli iqtisadi imkanları ilə yanaşı öz milli dövlətçiliyini də inkişaf etdirmək iqtidarmdan məhrum olmuşdur.

Azərbaycan xalqı öz tarixi siyasi və ictimai şəraitinə görə XIX-XX əsrlərdə milli ənənələrini, iqtisadiyyatmı, o cümlədən yerli sahibkarların neftdən əldə etdikləri gəlirlər hesabma bu gün müstəqil Azərbaycanm bütün sahələrində fəaliyyət göstərən alimlərin, iqtisadçıların və digər mütəxəssislərin ərsəyə gəlməsində milli burjuaziyamızm böyük xidmətləri olmuşdur.

İqtisad elminin yeni nəzəriyyələri əsasmda belə nəticəyə gəlmək olar ki, bir ölkənin təkcə yerüstü və yeraltı yataq və mədənləri o öikənin sərvəti hesab olunmur. Hər bir ölkənin sərvəti xalqm içindən ərsəyə gəlmiş işgüzar, kiçik və böyük fabrik və zavodları yaradan və idarə edən milli burjuaziyaçılarıdır ki, bu gün də fəxr və qürurla baxdığımız Bakımızm

gözəllik tacı - «İSMAİLİYYƏ» (AMEA) binası, həyatımızm ilkin özüllərini qoyduğumuz «Səadət Sarayı», ictimai, mədəni və elm ocaqlarmı özündə təcəssüm etdirən yüzlərlə bu tip binalarımız bizə məhz milli burjuaziya nümayəndələrindən - A.M.Nağıyevdən, H.Z.Tağıyevdən, M. Muxtarovdan yadigar qalıb.

Elə bu yerdə yaddaşlardan silinməyən bir deyim yada düşür:

***Tikmədim özüm qalam,***
***Tikdim ki, izim qala.***

Bakımıza yaraşıq verən bu binalar sanki bizlərə tariximizin itməməsi, milli kimliyimizin nümunəsi, izi kimi ərmağan olunmuşdur. Hələ XIX əsrin II yarısmda bir sıra dünya dövlətlərinin firmalarınm Bakı neftinə olan böyük maraqları Azərbaycan neft sənayesinin inkişafma müəyyən şərait, neft emalı üçün nəhəng potensial imkanlar yaratmış olsalar da ümumilikdə Azərbaycanm elm-təhsil, sənət, habelə qeyri-neft sektorlarmda nümunə göstərmək üçün qazandıqları gəlirin cüzi hissəsindən belə bir iz qoyub getməmişlər.

Azərbaycan xalqmm xoşbəxtliyi ondadır ki, onun igid, xalqı üçün səxavətli, böyük xeyriyyəçi oğulları olub, var və olacaq. Tarix bizə bu dədə-babalarımızm qədir-qiymətini bilməyimizi, öz kimliyimizə özgələşməyin nə demək olduğunu öyrətdi. Biz bu kimi oğullarımızm hesabma onlarm simasmda Heydər Əliyev kimi böyük şəxsiyyətin rəhbərliyi sayəsində XX əsrin sonunda dəfələrlə qanlı hadisələrin içindən öz milli bayrağımız ilə ictimai-siyasi sabitliyin bərqərar edilməsini təmin edərək, Azərbaycan xalqmm fıravan yaşamasma, dövlətimizin intensiv inkişafı uğrunda mühüm addımlar atıldı. Artıq Azərbaycan Respublikası müstəqil, demokratik bir ölkədir. Dünyanmmüxtəlifölkələrində yaşayan, eyni zamanda özləri ilə Azərbaycanı, doğma Vətəni ürəklərində daşımağa borclu olan soydaşlarımız ölkəmizin tərəqqisi yolunda onlar üçün miras qoyulan və yeni yaradılmış imkanlardan bəhrələnərək öz övladlıq borclarmı layiqincə yerinə yetirərək bu günümüzün Nağıyevləri - Tağıyevləri olaraq onlarm sələflərinəçevriləcəkdir!

**Elizaİsmayılova**
Dünya Azərbaycanlılarmm Əlaqələndirmə
Şurasmm İcraçı katibi

**Ağa Musa Nağıyev - maarifpərvər milyonçu**

Adı XX əsrin əwələrində Azərbaycanm məşhur «On bir milyonçu»su sırasma düşən və bu siyahıda öncül yerlərdən birini tutan Ağa Musa Nağıyev 1849- cu ildə Bakmm Biləcəri kəndində anadan olmuşdur.

Uşaq yaşlarmdan əməksevərliyi ilə seçilən və yaşlandıqca təcrübəsi, zəhmətə bağlılığı daha da artan Ağa Musa Nağıyev Tanrmm bəxş etdiyi fitri istedad, dərin zəka və uğurlu bəxt sayəsində tezliklə Azərbaycamm məşhur milyonçularmdan birinə çevrilir. XIX əsrin sonu, XX əsrin əwələrində Bakı nefti çoxlarmı var-dövlət sahibi etsə də, onlardan yalnız bir neçəsi bu varidatı təkcə özünün yox, həm də xalqmm fıravanlığı üçün sərf edib ki, bu sırada da ilk yerlərdən birini məhz Ağa MusaNağıyev tutur.

Ağa Musa Nağıyev ilk növbədə xalqımızm məşhur «Tikmədim özüm qalam, tikdim ki, izim qala» deyimini rəhbər tutaraq, düz 98 bina inşa etdirib. Xatırladaq ki, əsasən məktəb və xəstəxanalarm fəaliyyət göstərmək məqsədilə tikilən bu binalarm bir çoxunun inşasmda qədim Şərq və Avropa memarlıq məktəblərinin ən kamil nümunələrindən əxz edilən üsullar nəzərə almmaqla yanaşı, arxitektura və dizayn məsələləri həm də Ağa Musa Nağıyevin özünün təklifləri, mülahizələri əsas götürülmüşdür. Yüksək zövqə malik Ağa Musa Nağıyevin təkliflərində simmetriyanm son dərəcə dəqiqliklə gözlənilməsi, binanm əzəmətli və fasadmm cəlbedici olması üçün verdiyi məsləhətlər bu gün də memarları heyrətləndirməkdə, onun fıtri istedadma dərin rəğbət yaratmaqdadır.

Hazırda Bakmm bir çox gözəgəlimli yerlərində Azərbaycan memarlığmm nümunələri kimi göstərilən tikililər məhz Ağa Musa Nağıyevin şəxsi vəsaiti və təklifləri əsasmda inşaedilmişdir.

Məsələn, 1907-ci ildə o, qubernatora məktub yazaraq, Bakıdakı «Realnı» deyilən məktəbin tikintisini öz üzərinə götürməyə razılıq verməsini xahiş edir və bu məqsədlə 25 min rubl vəsait də ayırmağa hazır olduğunu qeyd edir. Eyni zamanda, onu da əsas şərt kimi irəli sürür ki, həmin məktəbdə savadsız müsəlman uşaqları üçün məktəbəhazırlıq sinifləri açılsm və onlarm sonrakı mərhələdə təhsillərini davam etdirməsinə şərait yaradılsm. Ağa Musa Nağıyevin bu təşəbbüsü və qayğıkeşliyi müsbət qarşılanır və 1908-ci ildən etibarən, məktəb onun himayəsinə verilir. 1909 və 1910- cu illərdə isə o, məhz bu təşəbbüskarlıq və qayğıkeşliyinə görə, iki dəfə İmperator tərəfindən orden və medallamükafatlandırılır.

Ağa Musa Nağıyevin ən ağrılı yerlərindən biri də, o, vaxtkı Azərbaycanm səhiyyə sistemindəki problemləri idi. Məhz səhiyyənin aşağı

səviyyədə olması səbəbindən əziz oğlu İsmayılı itirən və bu itkinin ağrısmı daim qəlbində gəzdirən Ağa Musa Nağıyev başqasmm da övladları xəstəlikdən ölməsin deyə, xəstəxanalar tikdirməyə, onların maddi-texniki bazasmı gücləndirməyə və tibb mütəxəssislərinin hazırlanmasma çalışır. Onun vəsaiti hesabma Bakıda o dövr üçün müqayisə olunmaz dərəcədə təchiz olunmuş 3 iri xəstəxana: hazırda Ağa Musa Nağıyev adma xəstəxana, E.Əfəndiyev adma xəstəxana və Ana və Uşaq Mühafizə İnstitutu (OMD) tikilib istifadəyə verilir.

**Ağa Musa Nağıyevin halal haqqı qaytarılmalıdır.**

Roma imperatoru Avrelli Markm "Özüm özümlə söhbət" əsərində belə bir məqam var: "hər kəsin dəyəri onun nəyə can atmağmdadır." Ağa Musa Nağıyevin bütün ömrü boyu xeyirxahlığa, insanlığa can atması onun həyat kredosu olub. Bu mənada onun dəyərini heç nə və heç kim ilə müqayisə etmək mümkün deyil. Ağa MusaNağıyev belə bir şəxsiyyət idi. O insan ki, saya -hesaba gəlməz xeyirxah əməlləri ilə birlikdə Bakıda biri digərinin təkrarı olmayan düz 98 bina tikdirmişdi. 98 unikal bina. Bakmm güzgüsü hesab edilən binalar dünən də belə idi, bu gün də belə olacaq, sabah da...

Əslində bu binaların hər biri arxitektura cəhətindən böyük bir sənət əsəri, tarixdir. Tarix isə heç vaxt yaddaşlardan silinmir. Mən də o fikirlərlə razıyam ki, Ağa Musa Nağıyevin keçdiyi ömür yolu, fəaliyyəti gənclərimiz üçün öyrəniləcək bir məktəbdir. Düşünürəm ki, belə qürur duyulacaq sırada dayanmağa haqqı çatan Ağa MusaNağıyev Azərbaycan xalqma, gənclərimizə tanıldılmalıdır. Belə insanlarm Azərbaycan xalqı qarşısmda elə misilsiz xidmətləri var ki, belə şəxsiyyətləri unutdurmağa cəhd göstərsələr də, zaman-zaman buna nail ola bilməyiblər. Nə yaxşı ki, bu gün babalarınm admı yaşadan, neçə-neçə illərdir bu yolda min bir əziyyətlə qarşılansalar da, bir addım da geri çəkilməyib mücadilə aparan, AğaMusaNağıyevin halal haqqmı tələb edən, bunu özlərinə borc bilən iki nəvəsi -Dilarə və Solmaz xanım vardır. Bizim hər birimizin də borcudur ki, onlarm bu mücadiləsinə dəstək verək. Ən azı ona görə ki, Ağa Musa Nağıyev gördüyü bütün işləri Azərbaycan adma, Azərbaycan xalqma, Azərbaycanlılara ithaf edib. Bakı milyonçusu axırmcı qəpiyini də bu millətin, bu xalqm yolunda sərf edib. Onun üçün Azərbaycan adlı bir məmləkətin inkişafı, tərəqqisi, Azərbaycanm rifahı hər şeydən öncə idi. Bu onun məqsədi, həyatmmmənası idi.

Bu gün bizim hər birimiz cəmiyyətdə hansı mövqe tutmağımızdan, hansıpeşə sahibi olmağımızdan asılı olmayaraq, Dilarə və Solmaz xanımm Ağa Musa Nağıyevin haqqmm qazanılması uğrunda apardıqları mübarizəyə dəstək verməliyik. Onlar doğrudan da yorulmadan bu yolda böyük fədakarlıq göstərirlər.

Düşünürəm ki, yaxm vaxtlarda Bakı milyonçusu, minlərlə insanm himayədarı olmuş, tarixdən şeç bir zaman silinməyəcək Ağa Musa Nağıyevin adma işıq salacaq hadisələrin şahidinə çevriləcəyik. O zaman bu iki nəvə rahatlıq tapacaq, Ağa MusaNağıyevin ruhu isə şad olacaq.

**Millət vəkili Jalə Əliyeva**

21



Fərəcin ailəsi (Soldan): Solmaz, Dilarə, Ağaəli, Çingiz; (sağda) Zəhra xanım

## NAĞIYEVLƏRİN GÜLÜMSÜNƏN... ÇIRPINTILARI

Neft milyonçusu, neftin kralı, 1-ci dərəcəli tacir, "Zolotaya Şeynaya Medal na Andreyevskoy Lente" və "Orden 3-ey stepeni Svyatoqo Stanislava" kimi fəxri medal və orden sahibinin, mesenat-xeyriyyəçi, 98 bina tikdirən - Ağa Musa Nağıyevin, ən nəhəng milyonçunun ölümündən 2006-cı il martın 4-də 87 il ötür. Onun ruhunun nigaran bir təşvişdə olacağı gündür... Bu ildönümə sahmanladığım səhifələri savab bildim.

Aramsız zəng səsiilə dəstəyi qaldırıram. Dilarə Nağıyevadır. Şöhrətli mesenat Ağa Musa Nağıyevin nəvəsi, uşaqlıqdantanıdığımyaşıdım. Ümdəsi, ömür çırpıntılarmabələd olduğum nəcib bir xanım. Həyəcanlı danışır: Babam haqqmda kitab hazırlayıram. İstəyirəm Siz də qatılasmız. Axı çox vacib səhifələr var sizin hafizənizdə, Nağıyevlər barədə. Lütfən yazın.

Dilarəm! - dedim. Səsin titrəməsin. Mütləq yaddaşımı qazaram.

Yazıya əyilirəm...

Dərin oyanışda əwəlcə bu ağrı məşğul edir;

Dörd qəbr evi dəyişmiş, nəhayət sonuncu - dördüncü əbədilikdə rahatlıq tapan Ağa Musa ağanın ruhu görəsən təsəlli röyasma qovuşa bildimi? Və nəhayət ki, haqq bulduğu o bir səda, ona ayan oldumu? Ayan oldumu ona, o yorğun kəmiklərə? Hər müstəbidin labüd sonu olduğu kimi, haqqın da qalibliyi hökmdür! Və bu zərurətdir. Yatmış Skeletə dəxli olmasa da,Oyaqlar üçün, deyək ki, tayfa üçün bir növ səadətdir.Gecikmiş qələbədir...

Birinci haşiyə:

Düşünürəm...

Oğlu Fərəc Nağıyevi xatirimə gətirirəm. Hərdənbir bizim Təzə Pir küçəsindəki evimizə gələrdi. Atam onun hörmətini əziz tutardı. O çox zarafatcıl, yumor ilə danışmağı sevən, mehriban və şən adam idi. Realist idi, həyat keşməkeşlərinə açıq gözlə baxardı. Bir dəfə sürəkli gülüşü içindən möhkəm hönkürmüşdü, amma ... Biz bunu görmüşdük. Onda demişdi: «.. .atam-atam, indi mən neyləyim?>> bax onda çiyinləri dizlərinə qədər enmişdi, yumağı xatırladırdı. Bu şəkil mənim gözlərimin önündədir.

O gedəndən sonra atam dedi: elə bilirsiz o adi adamdır? O, mötəbər bir kişinin oğludur. O, «Satiragit» teatrosunun bədii rəhbəri və rejissoru olmuşdur. İndi heç kimdir . Özü də komedik rollarm ən yaxşı oyunçusu özü idi.

İkinci haşiyə:

Komediya! Bunun arxasmda o, hönkürmüşdü. Niyə? Niyə Fərəc əmi belə etmişdi? Mənə aydm deyildi. Amma onun tez-tez işlətdiyi bu sözu - <<atam-atam, indi mən neyləyim>>i, həmin yuvasız kəlmələr...mənim qulaqlarımm hələ də sakinidir.

Atam soruşmuşdu: Fərəc, nə çox xoşun gəlir sənin «atam-atam» ifadəsindən? Demişdi ki, atam özü bunu tez-tez işlədərdi. Onda Fərəc Nağıyev belə bir əhvalat nəql etmişdi:

Başları qumara qızışıb evlərini satışa qoyan axmaqlardan Ağa Musa bu evləri satın alardı. Onun tikililərinin sayı ümumiyyətlə 98-ə çatmışdı. Hə, qədeşim, belə işlərə vəsait sərf edən atam bir dəfə lotular tərəfindən oğurlanarkən, ondan istənilən məbləği verməkdən imtina edir. Deyir: <<Atam-atam, öldürsəniz heç yarısmı da ala bilməyəcəksiz. Mən canımdan keçməyə hazıram, pulumu göyə sovurmağayox>>.

Əlbəttə ki, Ağa Musa Nağıyev güclü mesenat idi. Bakı üzərinə düzdüyü yadigarlarına eyforik bir sevgi ilə əyilən bu Mühüm Fiqur maariflənmənin də zəruriliyinin dərkində idi. Bunun fovqündə duran, nicatsız xəstələr üçün ilk xəstəxanalar tikdirən, yoluxmanm qarşısmı almağa cəhd edən, bu işlər üçün Kisəsini boşaldan <<simic>> - təbii ki, bu adı topuğuna da almayacaqdı.

Əbəs deyil ki, onun və digər azərbaycanlı xeyriyyəçilərin əməyi və pulları sayəsində Bakıda qısa müddət ərzində bütöv bir ziyalı nəsli də təşəkkül tapdı.

Nağıyev «Realnı məktəbi» tikdirir və məktəbdə oxuyan tələbələrin təhsil haqqmm ödənilməsini öz üzərinə götürür. Onun fəaliyyəti yalnız bununla məhdudlaşmır.

Bəzəkli İsmailiyyə, rokko və borokko üslubunda tikdirdiyi «n» qədər məbədlər! Bunlar Bakmm qapısmdakı dünya üzünə açılan ən gözəl peyzajlarıdır, nəqşidir Azərbaycanımızm.

Şükür ki, əski binalar - Günəşdə parlayan qoca ornamentlər... hələ ki, salamatbaxır.

Üçüncühaşiyə:

Hə, Dilarəm, möhtəşəm babası uğrundakı həlak! Sən çırpmtılarında ol, görək bu mənzərə bizə nəyi pıçıldayacaq; budur, o, balaca qızdır. Demək ki, 1951-ci il, Pirşağı. Bizim səs -küysüz... artıq xudmani bağımıza atası ilə birgə gəlmişdir. O da, atası Fərəc kimi deyib-gülən, gülərkən düşüncəlidir. O da, dərin kədərlənməyi bacarır. Hündür meynə kolunun arxasmda gizlənmişik. Gizlinpaç oyununda belə dilxordur. Üzüm gilələyir. Deyir:

<<-Mənimbobamböyük adamdır, e! Bilirsən?

-Sss! Danışma! Səsimizi eşidib yerimizi bilərlər, bizi taparlar.

-Hə də, Musa bobamm da yerini bildilər, diksindirdilər! Donuzlar!!!-onunyanaqları odkimi qızardı.

-Mənim də babam düşməndir...-mən ah çəkdim:-Ayılar!!! Öldürdülər ...

-Sənin bobon həkim düşməndir, mənimki ev tikən! Anam deyir bu hökumətə belə düşmənlər lazım olmadı».

Bu dialoq iki qızcığazm 11 və 13 yaşlı qeyrət dağarcıqlarmm arasmda getmişdi.

Bəli, 1917-ci il Azərbaycanda mesenatlığa son qoyuldu. Xeyriyyəçilər düşmən çıxdı. Bunun ardmca gələn mübarək 37 isə digər milli burjua nümayəndələrini-qaymaqları eyni ad altında parçaladı, müxtəlif gedər-gəlməzlərə - buz guşələrə onlar üçün bilet dəvətnaməsi uzatdı. Onlarm yiyəsiz baxan solmaqda olan ailələri isə əbədi tıqqıltılara, təqib hürküsünə əmanət qaldı.

Təqib və İnsan! Və ədalətsizlik! Bəli.. .Bəli və lakin...

Lakin bütün sirlər nə vaxtsa aşkar olur.

Bu qəbildən ruha basqı, bu işin usta yapıcıları, şəxsiyyəti əzmək yönümündə Qıvrılan Satqmlar da təbii ki, zaman axarında lazımmca faş olur.

Gələcəyin mükəmməl dərsi üçün bunu da bilmək önəmlidir.

Ağa Musa Nağıyev ilə eyni dövrdə Gülbekyan adlı digər xeyriyyəçi də fəaliyyət göstərib. O, heç vaxt Ermənistanda yaşamayıb. Həyatma bir hersoq kimi davam edib. İraq, Fransa, Avstraliya və Rusiyada kef çəkib. Ermənistan müstəqillik qazanan kimi hökumətin zirək məmurlarınm ilk tədbirindən biri bu mesenatm admı əbədiləşdirmək olmuşdur. Deyilənə görə Yerevanm mərkəzi küçələrindən birində onun əzəmətli heykəli dünyanm gözünə girməküçünçoxdandikəlib.

Amma Ağa Musa! Ağayana Ağa Musa ...

Vay, Səxavətli Burjuylar! Vay sizi, istiqanlı Millətbazlar! Nədən bu? Hani bizim ağayana tərpənişimiz?

Təbii, bu da mənim çırpmtımdır. Biganəlik mənə görə fəlakətdir. İstərdim ki, ləpirlərimiz arxasmda qalmasm dəbdə...olmayan, başqa mühüm ziyalar da. Qoy canlarmı buzlağa, qasırqalı hasarlara təhvil vermis digər kultura həlaklarımız, bu cürə zənginlər də işıq savabma bulaşmış olsun. Zira, cəfa zülmü- özünü odayaxma, belə mübtəla zirvələr,belə pıçıltı heç də keçəlin nağılı deyil, tarixdəki simurq hekayətləri, ziynətimizdir.

Və Dilarəm! Vuruşlarma, zinharma bələd olduğum çiçək! Babasının yorğun yavrusu! Sən isə gülümsünən çırpmtılarmla salamat qal. Və başmı yastığa atanda, daha yuxunda "bobovun"jandarmalarını,onun könlünü smdırmış olan o bəni-həmzatları deyil də, elə birbaşa ağa kişini - Ağa Musa ağanm özünü gör! Gör ki...

Tikdiyi binalarm üzəriylə gəzən o Müstərib Kölgə ağ dünyasmda... necə bəxtiyar gülümsünür...Eynən Fərəc təbəssümü kimi, sənin kimi, qalib və ixtiyarsız...

Yazmı yazdı: AğaMusaNağıyevinbarəsində - "O, tək özü bir böyük xanədandır" demiş olan, 1937-ci ilin qurbanı, həkim Mirzə Ələkbər əfəndi Hacızadənin nəvəsi, "Böyük Rəncidələrin" canlı diktafonu, yazıçı-şairə

**Nurəngiz Gün**

FƏTULLA FƏCRİ - AĞA MUSA NAĞIYEVİN QARANLIQ TALEYİNƏ AZ DA OLSA, İŞIQ SAÇDI

40 ildən artıq jurnalist kimi fəaliyyət göstərən Fətulla Fəcri - bədii yaradıcılıq ilə məşğuldur.

Şer topluları, insan talеləri haqqmda hekayələr, elmi publisistik salnamələrin müəllifi çoxdandır ki, Ağa Musanm neft mühəndisi Fətulla bəy Rüstəmbəyov haqqmda material toplayırdı. Tale bizi bu fikir əsasmda görüşdürdü.

İlk sözüm bu oldu: Hörmətli Fətulla müəllim, əgər Ağa Musa olmasaydı, Fətulla bəy Rüstəmbəyov bu qədər şöhrət tapa bilərdimi?

Özü dediyi kimi, elə bil mən onu məcazi mənada ayıltdım. Bildiklərimdən əlavə, əldə etdiyim materiallarla onu tanış etdim, bununla damüəllifin düşüncələrinə qatılabildim. O, söz verdi və yazdı. «Qənaətlə yaşa, padşah olarsan!»

Ancaq təəssüf ki, bu ərəb məsəlini unudan müasirlər Ağa MusaNağıyevin o gözəl təsərrüfatçılıq istedadmı düzgün və layiqincə dəyərləndirə bilməmiş, xəsislik, bərklik mənasma yozmuşlar.

Lakin Ağa Musa Nağıyevin böyük xeyriyyəçilik və mesenatlıq fəaliyyəti isə tamam başqa söz deyir. Yaxşı ki, inkarı mümkün olmayan faktlar silsiləsi hələ göz qabağmdadır. Həmin faktlar Ağa Musa Nağıyev həqiqətlərini nəinki müasirlərimizə, hətta gələcək nəsillərə də yerli - yataqlı nəql etmək iqtidarmdadır.

Savadsız və gənc olmasma baxmayaraq həyatm nəbzini psixoloq dəqiqliyi ilə tuta bilmiş Ağa Musa Nağıyev, əzab-əziyyətlə topladığı vəsaiti HARA, NİYƏ və NƏYƏ xərcləməyi bacarıb.

İstehsal fəaliyyəti artdıqca, onun neft avadanlıqlarmı sayıdadəyişirdi.

Ağa Musa 1891-ci ildə satış üçün bütün istiqamətlərdə 2.109.619pudağneft, 536pudsürtküyağı, 3.719.837pudmazut (neft qalığı) yola salırdı. O, bu məhsullarm 1.710.913 pudunu dəmir yolu vasitəsi ilə, qalanmı isə Xəzər dənizinin sularmda üzən <<İsmayıl>>(oğlunun), «Ağa Əli» və «Yusif» (qardaşlarmm adma) və o cümlədən də «Qara Şəhər» adlı şəxsi gəmiləri ilə daşıtdırırdı.

Ağa Musa Nağıyev Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının, Bakı Ağ Neft Zavodları İttifaqmm (1891) və Sərəncam Komitəsininüzvü olub.

O, hazır məhsullarm satışa çıxarılması, ixrac tariflərinin azaldılması və sair məsələlər barədə Komitə iclaslarmda çıxış edib, ideya verib, tələblər irəli sürüb.

Belə bir milyonçunun Fətulla bəy Rüstəmbəyovu mühəndis seçməkdə səhvi olmayıb. O, Fətullabəyin istedadma göz qoyub, onun aldığı təhsilə və mədəniyyətə görə neft mədənlərinə dəvət edib. Məhz onun fəaliyyəti dövründə, yəni 1901-ci ilidə Ağa Musanm mədənlərində 15 milyon puddan artıq neft əldə edilib. Belə bir göstərici o vaxtlar nümunə olub.

Birfakt:

- Ağa Musa Nağıyev Birinci gildiya Bakı taciri, Fətulla bəyin sədaqət və dəyanətinə bel bağlayıb, müstəsna olaraq bütün işlərinin və müəssisələrinin, əmlakmm idarə olunmasmı, eləcə də bu barədə hər cür sərancamm verilməsini vəkalətnamə ilə ona etibar edib.

Elə bu kiçik epizodlar Ağa Musanm «xəsisliyinə» sübutdur.

P.S. Fətulla Fəcrinin söhbət əsnasmda dedikləri:

- Dilarə Ağamusa (O mənə belə müraciət edir), qəm yemə, bütün Azərbaycan xalqma artıq əyan olub ki, Ağa Musa pulunun qədrini bilib. Qənaətçil olub, pulunu göyə sovuranlardan olmayıb. Ən əsası odur ki, hamballıq etdiyini, o günlərin acı-ağrılarmı unudan olmayıb.

**Dilarə Nağıyeva**

## Ağa Musa Nağıyevin xalqa xidmət yolu

Milyonçu AğaMusaNağıyev sevincli-kədərli, ziddiyyətli və faciəli həyatma baxmayaraq büsbütün doğma xalqmm tarixi və mədəniyyəti ilə bağlı görkəmli şəxsiyyətlərdən biri olmuşdur. O, xeyirxahlığı, xeyir əməlləri, ziyalı təfəkkürü ilə zəmanəsinin mesenatları arasmda özünəməxsus şərəfli yer tutur. Lakin nədənsə dövrünün qara qüwələri - bədxahları, nadanları sözün məcazi mənasmda həyat universitetinin iqtisad fakültəsini «qırmızı diplomla» başa vurmuş Ağa Musa Nağıyevin işıqlı fəaliyyətinə qara don geydirmişlər. Allahm özünə belə xoş gələn qənaətçiliyini, zərrə qədər israfa varmadığmı ifrat dərəcədə qabardaraq üzərinə «xəsis» və ya <<simic>> damğası vurmuşlar. Halbuki Ağa Musa Nağıyevin «əsərləri» - binaları, mülkləri, imarətləri bu gün də dil açıb canlı tək danışa bilir. Və öz sahibinin böyüklüyünü, ölməzliyini Azərbaycan xalqı üçün qoyub getdiklərinin fonunda dərin məntiqə və danılmaz faktlara söykənərək qətiyyətlə sübuta yetirir. Bununla da Ağa Musa

Nağıyevin siması çağdaş nəsillərin gözü qarşısmda həmişəkindən daha əzəmətli görünür. Və hamı görür ki, Ağa Musa Nağıyev ağıl, bacarığı və qənaətçiliyi hesabma qazandığı halal pullarını Azərbaycan xalqının yolunda xərcləməkdən çəkinməmişdir. Vətən övladları üçün təhsil, səhiyyə və

mədəniyyət ocaqları inşa etdirmiş, Bakı şəhərini bənzərsiz memarlıq abidələri ilə, çoxsaylı yaşayış binaları ilə zənginləşdirib, gözəlləşdirmişdir. Şübhəsiz ki, XX əsrin ilk illərində belə, insanları heyrətə gətirən «İSMAİLİYYƏ» binası Ağa Musa yadigarmm incisi, mirvarisi və şah əsəridir!

Ağa Musa Nağıyev binaları müstəqil Azərbaycan Respublikasma və onun azad xalqma bu gün də xahişsiz, minnətsiz, təmənnasız xidmət göstərir. Xalqa, hökümətə borcu varmış kimi! Elə isə gəlin görək, səlahiyyətli təşkilatlardan və şəxslərdən bircəciyinin yadma düşürmü ki, vicdanmm səsini dinləyib, insafla etiraf edərək deyə bilsin: axı bu İsmailiyyəni zavallı Ağa Musa nakam və yeganə oğlunun adma ucaltdırıb! Axı vaxtilə bu binanm fasadma həkk olunmuş və kommunist rejimi dövründə tamamilə silinib götürülmüş «İSMAİLİYYƏ» sözünü niyə bu gün bərpa etdirib atasma rəhmət oxutduran bir kəs tapılmır?! Yoxsayenə qorxuruq?!

Ot kökü üstə bitər. Əgər desəm ki, gözünün ağı-qarası İsmayıl sarıdan ürəyində açılmış dərin yaraya məlhəm qoyan və o yaranm qaysaq tutmasmı tezləşdirən oğlu-vərəsəsi Fərəc Nağıyevin incəsənət sahəsindəki fədakarlığı, əməli işləri də Ağa Musa Nağıyevin xalqa xidmət yolunun başqa bir məcrada ləyaqətli davamıdır, səhv etmərəm. Odur ki, onlarm hər ikisi barədə nə qədər xoş söz deyilsə, nə qədər yazılsa bir o qədər savab işdir, nəciblikdir, dünənimizə, ulularımıza insani ehtiram əlamətidir.

**Fətulla Fəcri, yazıçı-**
**publisist, Beynəlxalq**
**«Humay»**

**Fətulla Fəcrinin Ağa Musa Nağıyevə həsr etdiyi kitabın təqdimatı oldu.**
**25.03.2003**

**Tanış bir mahnının sözlərini xatırlamaq istəyirəm:**

Kimlər gəldi, kimlər getdi, Bu
dünyadan, Arif* olan, nakam getməz,
Bu dünyadan,
Hər dövranda bir gərdiş var, Min
rəng çalır bu ruzigar. Hünər göstər,
bir şey apar, Budünyadan...

Deyirlər insan o zaman ölür ki, onu xatırlayan sonuncu şəxs də həyatdan köçür. Neft milyonçusu və xeyriyyəçi Ağa Musa Nağıyev sadə bir ailədə dünyaya göz açmasma, heç bir təhsil almamasma baxmayaraq, həyatda özünə fərasəti və ağlı ilə yol açıb. Onun xalqm ehtiyaclarmdan irəli gələn hər bir çağırışa vaxtmda cavab verməsi, doğma şəhəri ilə bağlı bütün xeyriyyəçilik işlərində yaxmdan fəal iştirakı, şəhərimiz üçün qoyub getdikləri onaəbədilik qazandırıb.

Ağa Musa Nağıyevin az qala unudulmuş admm xalqımıza, yaddaşımıza, tariximizə qaytarılmasmda illər uzunu gücünü, bacarığmı sərf etmiş nəvəsi Dilarə xanımı tale Fətulla Fəcri ilə görüşdürdü. Nəticədə bu gün sizə təqdim olunan gözəl bir kitab işıq üzü gördü. Kitabda Ağa Musa Nağıyevin mənalı ömrünün və onun sadiq iqtisadçısı Fətulla Rüstəmbəyovun həyatmm səhifələri işıqlandırılıb.

Xeyriyyəçi insanm-Ağa Musa Nağıyevin keşməkeşli həyatı təsvir edilib.

Xalq üçün yaradan, iz qoyan insanları unutmaq olmaz. Bu ən günah işdir. Çünki bu bizim keçmişimizdir, tariximizdir.

Tarixinibilməyənxalqmisə gələcəyiolabilməz.

Üzümü Dilarə xanıma və Fətulla bəyə tutub deyirəm: çox sağ olunki, tariximizi, keçmişimiziucaltmağaçalışırsmız.

Bu yolda Allahdan Dilarə xanıma tükənməz enerjini əsirgəməməsini diləyirəm.

**Rauf Nağıyevin qızı Gülnarə**


Gülnarə Rauf qızı Nağıyeva

P. S Rauf həmişə Ağa Musanın adını fəxrlə çəkib, xüsusən, onun maarifçiliyə olan meylindən söz açardı:

"Bir gün maşınıma oturan azərbaycanlı kişinin xanımıma fransızca müraciət etdiyini görüb soruşdum:

- Niyə belə?

Cavabımda eşitdim ki,vaxtilə milyonçu Ağa Musa Nağıyev tərəfindən xaricə oxumağa göndərilən bu şəxs sonradan mühacirət olunub,Fransada qalıb."

Rauf babasının etdiyi xeyirxah işləri sadaladıqca, bundan qürur hissi duyurdu. Onu xəsis adlandıranlara istehza ilə deyirdi:

- Bəlkə sizə borcu olub babamın, deyin, Sovet pulu ilə qaytarım.

Ağa MusaNağıyevin maarifçiliyə olan böyük marağı və səyi nəticəsində müsəlman balaları Fransada və digər xarici ölkələrdə təhsil alıblar.

1999-cu ildə Rauf dünyasını dəyişərkən qızı Gülnarəyə vəsiyyət etməyi unutmadı:

- "Ağa Musa babanın yolunda mənim etmədiklərimin həyata keçməsində köməkliyini əsirgəmə".

Artıq bu vaxtdan başlayaraq Gülnarə xanım mənimlə yanaşı olub, bu yolda atasının Ağa Musa haqqında edə bilmədiklərini həyatakeçirməyə çalışır.

Ağa Musa Nağıyevə həsr edilmiş bütün tədbirlərdə o fəal iştirak edir.

Gülnarə xanım hər dəfə yığıncaqdan sonra deyir:

- Eləbilirəmki, mən də bu gün ulu babam Ağa Musa kimi bir mülk tikdim. Hayıf ki, onun haqqı çox gec qaytarıldı. Əlbəttə buna səbəb totalitar rejim olub. İndi biz çalışmalıyıq ki, xalqın yaddaşından onun adı silinməsin. Gülnarə xanıma bu yönümdə gördüyü işlərə və səyinə

görə təşəkkür edib, deyirəm:

- Unutma ki, yaxşılıq yerdə qalmır, haqq gec də olsa, öz yerini tapır. İnanıram ki, bu sahədə göstərdiyin cəhdlərə görə sənin çətin həyat yolunda mütləq yaşıl işıq yanacaq.

**Bibin Dilarə**



Raufun və Dilarənin övladları
(soldan) Samirə, Nərmin, Samir, Hicran, Gülarə, Könül
(arxada) Cəmilə, Zəhrə və Nigar



Ağa Musa Nağıyev

**Unutqanlıq millətin mənəvi faciəsidir**

Hər bir xalqm tarixində onun görkəmli şəxsiyyətləri var. Belə insanlardan biri az qala yaddan çıxmış, inqilabadək Bakmm arxitekturasmı bəzəyən milyonçu Ağa Musa Nağıyev olub. Onun haqqmda çoxları bəlkə yalnız bu fıkirdədir - xeyriyyəçidir, vəssalam!

Buradan belə qənaətə gəlirəm ki, Ağa Musanm həyatı, qurub yaratdığı, qoyub getdikləri barədə çoxlarmm məlumatı çox az və ya səthidir.

Tariximizi yaşatmaq baxımmdan belə şəxsiyyətləri daha ətraflı öyrənib yaddaşlaraköçürmək - günümüzünreallığıdır.

Unutqanlıq millətin mənəvi faciəsidir. Totalitar sistem -bu maneəni başa düşdük. Bəs indi?

80 ildən sonra milyonçuya axirət evi düzəldənlər tapıldı. İndi əsas problemi - admm əbədiləşdirilməsini həyata keçirən tapılacaqmı?

Yaddan çıxarmaq olmaz ki, Ağa Musa Qara şəhərdə tikdirdiyi "Neftayırma" zavodunda özünün istehsal etdiyi neftdən əlavə başqa "neftxudaların" da neftini təmizlətdirməklə qazanc əldə edib, bu pulları xalqının naminə xərcləyib. Belə ki, o bununla kifayətlənməyib, neftin keyfiyyətini yaxşılaşdırmaq məqsədiylə mexaniki emalatxana dayaradır. XIX əsrin sonunda isə Neftçıxarma firması yaradır. Neçə-neçə gəmilərin sahibi olur.

1908-ci ildə Ağa Musanm daşmmaz əmlakının siyahısmda: 2 neft zavodu, Qara şəhər, Sormovo, Ağa Əli və Yusif Nağıyev adma gəmiləri, neft məhsulları qorunan anbarlar, Beynəlxalq, habelə Rusiya və Bakı banklarmda küllü miqdarda əmanətlərolub.

Rusiya dəmir yolunun, Nobel qardaşlarmm bəzi müəssisələrinin, dəniz şirkətlərinin səhmləri, xəstəxana korpusları və yaşayış binaları, eləcə də 66 torpaq sahəsi də Ağa Musanm adı ilə bağlıdır.

1920-ci ilin aprelində Sovet hakimiyyəti qurulduqdan sonra Ağa Musanm enerjili və fərasətli addımları o vaxtkı cəmiyyətin dayaqlarmdan birinin, bəlkə də dövrünün ən zəngin azərbaycanlısmm varislərini müflis etdi.

Azəri oğullarına və qızlarma bir müraciətim var: keçmişlərə nəzər salıb, tariximizi dərindən öyrənib, düşünməyi bacarsmlar.

Bu Ağa Musanm nəvələrinin: Dilarə, Solmaz və mərhum Raufun arzusudur. Bir arzumuz da - nə vaxt isə 2 bina tikdirib, Ağa Musanm tarixə 100 bina tikdirən kimi salınmasını görməkdir.

Hacı Əvəz - xeyriyyəçi qəbrin əbədiləşdirildiyi gün bu sözləri demişdi: Şükürlər olsun ki, borcumdan çıxdım. Qazancım isə bu olar ki, bura qoyulan hər bir daşm ömrü qədər yaşayım.

Halbuki, Hacı Əvəzin Ağa Musaya borcu yox idi. Bu vətənpərvərlik borcu idi. Hacı Əvəzin: mənim qəbir daşma vurduğum malanın bərkiməsinə Dilarə xanım səbəb olub, çünki onun üzündə ziyalılıq möhürü var - sözləri bizim nəslə vurulan möhürdür.

Müxbirlə söhbətimdə hər zaman qeyd edirəm ki, biz - Ağa Musa ətrafında haqqm-ədalətin bərpasma çalışırıq. Məgər H.Z.Tağıyevin qızı mərhum Sara xanımm acı taleyi bizə dərs olmadımı?

Nə üçün başqa millətdən olan G.Zapletin, Ağa Musa qəbrinin əbədiləşdirilməsi hadisəsini "Pamyatnik Velikomu Qrajdaninu" adlandırmaqla bu işin çiçəklənməsinə təkan verə bilir, bizisə...

Tariximizi yaşatmaq baxımmdan belə şəxsiyyətin əməllərini yaddaşlaraköçürüb, yaşatmalıyıq.

Ağa Musa xeyirxah çox işlər görüb, ancaq pulunu heç vaxt göyə sovurmayıb.

Atam bizə qısa söhbətlərində ancaq bunu deyirdi: "Ağa Musa xərcləyən olub, amma xərcləməyin yerini bilən olub."

1999-cu il yanvarm 16-da AzTv kanalı ilə "İki ömrüm olsaydı" verlişinin təəssuratı altmda televiziyanm sədri N.Xudiyevə belə bir müraciət etdim:

Müqəddəs Ramazan bayramı ərəfəsində bu verilişin xalqa çatdırılması özü bir müqəddəs və fovqəladə hadisədir. Xalqımızı əwəli bədbəxt, axırı bəxtəvər olan Ağa Musa Nağıyevin taleyi ilə tanış etdiniz və bununla onun ekran ömrünü yaşatdmız. Verlişin başlanğıcmda: müğənni Mirzə Babayevin ifa etdiyi mahnmm "Kimlər gəldi, kimlər getdi bu dünyadan, bu dünyadan" müşayəti ilə ekranda Ağa Musanm nəşi kəfənə tutulurdu.

Ürəklərə yol açan bu veriliş bizim bu yolda çəkdiyimiz əziyyətinbəhrəsi oldu. Siz bu süjeti çəkməklə tarixiyaşatdmız.

Azəri qızlarmmpulsuz təhsil almalarma, xaricdə oxuyan azərbaycanlı balalarmm maddi cəhətdən təmin olunmasma yardımçı olan Ağa Musa Nağıyevin həyatı Azərbaycan Televiziyası vasitəsi ilə işıq üzü gördü.

Ağa Musa çətinliklə qazandığı pulunun qədrini bilib. Sadə yaşamağa üstünlük verib. Heç vaxt heç nəyi gizlətməyə çalışmayıb, saman satmaqlaməşğul olan atasmdan utanmayıb və bunu heç kəsdən gizlətməyib, əksinə bununla fəxr edib. Bəlkə də "xəsis" damğası ona bu qəribəliklərinə görə yapışdırılmışdır?

## Tarix ölməzdir, tarix təkrar olunur

Ağa Musa Nağıyevin admı uzun illər yaddan çıxarmaq istəsələr də, o, gördüyü işləri və xeyirxah əməlləri ilə ölməzlik qazanıb, admı əbədi olaraq tarixə yazdı. Bu isə hər kəsə nəsib olmur.

Atalar doğru deyib ki, gəzən ayağa daş dəyər. Uzun müddət şərait yol vermədiyinə görə yalnız biz, Ağa Musa Nağıyevin nəvələri Dilarə, Rauf və Solmaz çox qapılar döyüb, göydə Allahdan, yerdə isə bəndələrdən günahsız milyonçunun "əmanət qəbri"-nin ayaq altmda qalmaması üçün imdad dilədik, kömək gözlədik. Ağa Musanm son vəsiyyəti onu oğlu İsmayılm yanmda Kərbalada dəfn edilməsi olub. Artıq 80 il idi ki, O Kərbəla yolu gözləyirdi.

Adətən günah bir iş görən insan İlahi tərəfindən belə cəzalandırıla bilər. Lakin Ağa Musanm etdiklərinə qısa nəzər salaq:

Uzun müddət yaddaşımızda Elmlər Akademiyasmm binası kimi həkk olmuş, məhz "Xeyriyyə Cəmiyyəti" üçün və oğlu İsmayılm xatirəsinə tikdirdiyi "İsmailiyyə Sarayı"; oğlunun vaxtsız ölümündən sarsılan Ağa Musa gənclərin xəstəlik qarşısmda aciz qalmamaları üçün öz adma tikdirdiyi, lakin yaddaşımıza uzun müddət Semaşko adı ilə həkk olmuş ilk xəstəxana və sonradan daha iki xəstəxana, Xaqani küçəsindəki "Gəlir evi" indiki "Zabitlər evi", həmin küçədə 47 saylı nəhəng və təkraredilməz binalar tikdirib;

Gözəl ornamenti ilə könül (yaddaşlara "Şaxnoviç mağazası" kimi həkk olmuş) oxşayan, Rəsul Rza küçəsi 36-da yerləşən dördmərtəbəli nəhəng yaşayış binası - Gül Passajı;

28 may küçəsində yol boyu sıra ilə tikdirdiyi çox mərtəbəli binalar, o cümlədən həmin küçədə tikdirdiyi Bakıda yeganə əkiz binalar;

"Astoriya " və "Yeni Avropa" mehmanxanaları;

35-ə yaxın kasıb ailənin vəsiyyətinə əməl edərək, öz şəxsi vəsaiti hesabına onları Kərbəlada dəfn etdirib;

Bakıya Şollar suyunun çəkilişində xərcin 75%-ni öhdəsinə götürüb;

Savadsızlığın qarşısını almaq məqsədi ilə indiki İqtisad Universitetinin banasını tikdirib başa çatdırıb, məhz Azərbaycanda savadsızlığa qarşı mübarizə aparmaq niyyətilə hər il 50-yə yaxın azərbaycanlı qızlarının təhsil xərcini ödəyib;

Xaricdə təhsil alan gənclərin təhsil haqlarını öz üzərinə götürüb və başqa xeyirxah işlər görüb.

Bütün bunlar onun insani cəhətləridir. Məhz buna görə qədirbilən xalqımız daima ona minnətdar olmalıdır.

## Bir daha şəxsiyyət - Ağa Musa Nağıyev haqqında

Hərdən eşidəndə ki, Ağa Musa Nağıyev üçün xəsis deyirlər,ürəyim yanır. O, pulunun qədrini bilməklə yanaşı onu harada və nə üçün xərcləməyin yerini bilirdi. Çoxlu pul qazanmaq fərasətdirsə, onu saxlayabilməkmüdrüklikdir, amma ondan düzgün istifadə etməyi bacarmaq istedaddır. Bu atalar misalı Ağa Musanın varlığında cəmlənmişdi. Amma nədənsə şəhəri üçün az iş görmüş milyonçular haqqında belə şayələr yayılmayıb.

Doğru deyiblər ki, min yeyənin olsun, bir deyənin yox.

H.Z.Tağıyevin qızı Sara xanımın xatirələrində belə bir epizoda rast gəlirik: «Qardaşı ilə mərc qoşur və gəminin illuminatorunun qalın şüşəsini dəmir parça ilə vurub sındırır. Bundan xəbər tutan atası şüşəni məhz Sara tərəfindən salmacağını bildirir və onu aylıq əmək haqqından (xərclikdən) məhrum etməklə cəzalandırır.

Belə çıxır ki, H.Z.Tağıyev də xəsis idi? Xeyr! Bu tərbiyənin ən yüksək formasıdır. Bəs niyə Ağa Musadan qaytarılması mümkün olmayan borc tələb edərkən, onun bundan boyun qaçırması xəsislik kimi qəbul edilir?

O vaxtın dövlətliləri hamı bir nəfər kimi boş vaxtlarını qumarxanalarda keçirirdi. Uduzanlar bəzən evlərini belə qumar naminə satışaqoyurdular.

Belə işlərdə iştirakçı kimi Ağa Musanın adının çəkilməsi hallarına rast gəlmək qeyri mümkündür. Ancaq Ağa Musa vaxtdan səmərəli istifadə edərək qumarxanalara məhz oyun

qızışarkən, evlər satışa qoyularkən gələr və evləri ucuz qiymətə alardı.

P.S. İsmayıl atasının hamballıq etdiyini, 11 yaşmdan cılız bədəninin ağır palan altmda büküldüyünü heç cürə təsəwür edə bilmədiyindən milyonlardan asanlıqla istifadə edirdi. Hərdən israfçılığa dayol verirdi.

AğaMusatəmtəraq sevən olmayıb. Saman satan oğlu olub, limanda hamballıq etdiyini heç vaxt danmayıb. Bunu binalarmm üzərinə vurduğu Venzellər təsdiqləyir. O, kasıbçılıqla böyüyüb, öz gücü ilə iri sahibkara çevrildiyi ilə fəxr edirdi. Bu səbəbdən də israfçılıqdan, artıq xərclərdən boyun qaçırırdı. Buna görə də oğlu İsmayıl lazım bildiyi yerdə pulu sağa-sola sovuranda Ağa Musa deyirdi: Görün o, kimin oğludur?

Şəmsi Əsədullayev müflisləşdiyi bir vaxtda hətta özünü güllələmək fikrinə düşür. Ağa Musa ona böyük məbləğdə borc verməklə, onu həm biyabırçılıqdan xilas edir, həm də ölümdən.

Onun haqqmda deyilən rəvayətlərdə guya onun həyat yoldaşının milliyətcə gürcü yəhudisi olan Yelizaveta Qriqoryevnanm olduğu bildirilir. Lakin Fərəcin xatirələrindən bəlli olmuşdur ki, onun həyat yoldaşı Ümmə Səlmə Kərbəlayi Cəfərqulu qızı olub. İsmayılı və Ümmül Banunu da Ağa Musaya o bəxş edib.

Amma o da sirr deyil ki, o vaxtlar Dumaya üzv seçilmək və yaxud rəsmi ziyafətlərdə iştirak etmək məqsədilə hər bir tanmmış şəxsiyyət yüksək mədəniyyət göstəricisi kimi başqa millətdən olan qadmlarla (matışkalarla) yaxmlıq edirdi.



**Ağa Musa Nağıyev** və oğlu İsmayıl bəy. Oğlu 27 yaşında vərəm xəstəliyindən vəfat edib. **Ağa Musa** tərəfindən Kərbəlada dəfn edilib.



23

**Gəlin diişiinək... Saman satanın samançı oğlu**

XIX əsrin sonu, XX əsrin əwələrində Azərbaycanda qazılan neft quyularmdan fontan vuran "Qara Qızılm" hesabma Bakıda xeyli milyonçular meydana gəlmişdi. Onlarm sərvət sahiblərinə çevrilmələri üçün bir quyunun fontan vurması kifayət edirdi. Əwəllər bir parça çörək qazanmaq üçün iynə ilə gor qazanlar bir andamilyonçuya çevrilirdilər.

Ağa Musa belə milyonçulardan biri olmuşdur. Ağır zəhmətdən sonra tale günlərin birində onun üzünə gülür. Sonralar Ağa Musa var dövlətdə bütün milyonçulardan fərqlənib ən zəngini olur, 11 milyonçudan birincisinə çevrilir.

O hətta bəzi yazılarda koloriti ilə XIX əsrin axırlarmda, XX əsrin əwəllərindəki milyonçulardan fərqlənən fiquraya bənzədilir.

Ağa Musa neftdən bir qədər gəlir əldə edib savadlı mütəxəssisləri neft işinə cəlb edir. Qısa bir müddətdə Binəqədidəki neft çənləri ona mənsub olur. Əldə etdiyi gəlirin bir hissəsini bu sahədə çalışan mütəxəssislərin daha da savadlanmasma və qurğuların texniki təmiri üçün ayırırdı.

Ramanadakı neft mədənlərinin xidmət üsulunu yaxşılaşdırmaq məqsədilə Ağa Musa dəzgahlarm təmir emalatxanasmı yaradır. O vaxtlar bütün bunlar texnikada tərəqqi kimi qarşılanmışdı. Beləliklə, neft istehsalı artdıqca yeni iş yerləri açılırdı.

Varlığımızı düşünərək hər birimizin həyatı bir vaxt tərk edəcəyimizi gözləmirik.

Lakin həyatı yaşayıb və sonradan gördüyün işə və yaxud etdiyin əməllərlə cavab verməli olursan. Yaxşı olar ki, hər bir insan dünyasmı dəyişərkən bir iz qoyub getsin. Çünki gec də olsa, bunun sədası çıxacaq, insanlar tərəfindən qiymətləndiriləcək.

Çox hayıf ki, insan bir qəbr üstə gələndə, bir də ki, yaşa

dolduqdabelə fikirlərə düşür.

Tarixmizi yaşatmaq baxımmdan belə şəxsiyyətləri daha ətraflı öyrənib yaddaşlara köçürmək günümüzün reallığıdır. Unutqanlıq millətin mənəvi faciəsidir. Ağa Musa tərəfindən tikilən binalarda rahatca yaşayan, ofis və mağazalarda pul qıran və digərmüəssisələrində işləyənlər heç olmasabir dəfə görəsən "rəhmət" sözünü dillərinə gətirmişlərmi? Binalardan birinə barelyefinin vurulması və ya yaxud küçəyə admm verüməsi barədə təşəbbüs göstərənlər varmı? Əsla yox! Bu işin 70 ildə Sovetlər dövrundə həyata keçməməsinin səbəbi aydmdır. Bəs indi? İndi ki, totalitar rejimbizə mane olmur.

Yalnız 80 ildən sonra Bakı milyonçusu Ağa Musanm axirət evini abadlaşdıranlar və əbədiləşdirənlər tapıldı. Görən indi onun admı əbədiləşdirmək üçün bir küçə və ya meydan tapılacaqmı?



Qızı Ümmül Banu, oğlu İsmayil

**"... Mən körpə Fərəci oğulluğa götürmüşəm"**

XX əsrin faciəli illəri Nağıyevlərdən də yan keçməyib. Ağa Musa Nağıyevin Bakı şəhərində 98 binası olduğu arxiv sənədlərinə əsasən tam təsdiq olunub... Həmin nəsildən olan -Fərəc (Əliəsgər) Nağıyevin şəxsiyyəti haqqmda məlumat verməyi özümə borc bilirəm.

S.Mumtaz adma arxivin İncəsənət şöbəsində baş elmi işçi vəzifəsində çalışırdım.

1970-ci il idi. Yaradıcı şəxsiyyətləri arayıb, şəxsi bioqrafiq sənədlərin dövlət mühafizəsinə təqdim edilməsi ətrafmda qızğm iş görülürdü.

Fərəc- Əliəsgər müəllimlə tez-tez telefonla əlaqə saxlayırdım. 1972-ci ilin mart aymda yaradıcılığma aid sənədləri ondan qəbul edərkən üzündəki gizli kədər gözümdən qaçmamışdı. Özünə məxsus kiçik işıqlı gözləri onun sirli haraymdan, üzüntüsündən xəbər verirdi. Cürət edib ondan soruşdum:

- Niyə proqramlarm bəzilərində siz Fərəc, bəzilərində isə Əliəsgər adı ilə təqdim edilirsiniz?

Onun ciddi baxışlarmdan verdiyim sualapeşiman oldum. Az sonra özü söz açdı:

- Gəncsən, hələ çox şey bilmirsən, çalış keçmişləri, insanları öyrən. Sənədlərimi arxivə təhvil verirəm, bura etibarlı mənbədir. Bir qədər fikrə gedib irəlidəki sualımı cavabsız qoymadı, oğul, dedi:

- Ağa Musa Nağıyev adlı bir milyoncu olub, evlər tikdirib, İstiqlaliyyət küçəsində yerləşən binaları, sənin bitirdiyin universiteti də, Elmlər Akademiyasmm binası -İsmailiyyəni də o tikdirmişdir. Köksünü ötürüb əlavə etdi:

- ... tarixi düşmənlərimiz " İsmailiyyəni" yandırdılar. Ağa Musamənim doğmam olub, çoxlu xeyriyyəçilik edib. Sovet hakimiyyəti gələn kimi belələrinin adlarmı çəkməyə qadağa qoyuldu.

Və sonradan o nəql etdi ki, Ağa Musa qardaşı Ağa Əlidən oğulluğa götürdüyü 6 aylıq Əliəsgərin admı dəyişib, Fərəc (mənası kədərdən sonra gələn sevinc) qoyub.

Bu nağıla bənzər danışıqdan o illərdə heç nə anlamadım.

Bu gün Fərəc müəllimin həyat və fəaliyyəti mənim üçün çox maraqlı və qiymətlidir.

1992 - 1993 -cü illər idi. Bir xanım iş otağıma daxil oldu. Cəsarəti ilə məndə maraq oyadan bu qadm diqqətimi cəlb etdi. Onukiməsə oxşatdım... Dedi:

- Adım Dilarədir. Atası Fərəc Nağıyevin sənədləri ilə maraqlandığmı bildirdi. Bir anlığa Fərəc müəllimin siması gözlərim önündə canlandı və indi mən Dilarə xanımm gözlərində həmin gizli kədəri və harayı gördüm.

Özümü toplayıb cavab verdim:

- Rejissor, aktyor, rəssam atanızm sənədləri arxivimizin 475 saylı şəxsi fondundaqorunur.

Dilarə xanımm danışıqlarmdan bəlli oldu ki, neçə illərdir ki, o nəsil şəcərəsinin yorulmaz yolçusudur. Bu gün də ruhlarm izi ilə sözlərinin və əməllərinin yaddan çıxan anlarmı arxiv sənədlərinin işığmda yorulmadan axtarır, araşdırır...

Bu kiçik xatirəni yazmaq dekabr ayma təsadüf etdi. Bu ay Fərəc müəllimin anadan olduğu aydır. Hər il onun doğum gününə müxtəlif informasiya vasitələrindən istifadə edərək onu yad edirəm... İlk görüşü, ilk tanışlığı məni sirlər dağarcığı olan Fərəc müəllimin keçirdiyi həyəcanlı anları yaxşı ki, gündəliyimdəki qeydlərdə tapıram.

Fərəc müəllimin anadan olmasının 100 illiyi ərəfəsində Dilarə xanım zərif çiyinlərindəki nəsil şəcərəsinin ağır, unudulmuş yükünün görüləcək işlərini yüngülləşdirmişdi. Uzun illər cürət edib haqqmda danışılmayan milyoner Ağa Musa Nağıyevin ayaq altmda qalmış "əmanət" qəbrinin qədim Biləcəri kəndindəki "əbədi evinə" köçürülməsinə də o cəhd göstərmişdir. Məzar üstüyaddaş daşı qoyuldu. Dilarə xanım Ağa MusaNağıyevin uzun illər yaddaşlaşması həsrəti ilə yaşadı, fani dünyadan köçmüş atası Fərəc Nağıyevi də xatırladı.

Arzularmdan bir hissəsini həyata keçirən mərd Dilarə xanım indi də yorulmadan çalışır, sözün əsil mənasmda iqtisadçı olan Ağa Musa Nağıyevin öz binasmda "İsmailiyyə" -də onu təntənə ilə yad etdirir, vəsiyyətinə əməl olunaraq binalarmdan biri olan Dövlət İqtisad Universitetində Ağa Musa ilə oğlu İsmayılm portretlərinin asılmasma nail olur.

Sükuta qərq olmuş 475 saylı fonddakı sənədləri yenidən nəzərdən keçirirəm. Aysberqlərin görünməyən tərəflərini az qala yaddan çıxartmaq ərəfəsində sənədlər köməyimizə gəlir... Fərəc müəllimin 50 il bundan əvəl tərtib etdiyi albomunu vərəqləyirəm. Onun hələ açılmamış, araşdırılmamış sənədlərini, satirik yazılarmm şeirində yenə də keçmişə boylanıram.

Ağa Musa, Fərəc və Dilarə xanım Nağıyevlərin hələ bundan sonra dayaşıl işıqlarmı görürəm. Tarix hər şeyi öz yerinə qoyur. Axı biz heç kəsə təcavüz etməmişik, tariximizi, tarixi şəxsiyyətlərimizi isə bizə zaman-zamanunutdurmağa çalışıblar. Uzun illər Nağıyevlər nəsli qorxu içərisində yaşayıb. Azadlığı, müstəqilliyi sərvət kimi dadan Dilarə kimi xanımlar isə qədim xalqımızm, tarixdə yaşayacaq şəxsiyyətlərin həyatmı bu günə və sabaha yenidən çatdıracaq.

XX yüzillikdə Şərqdə ilk dəfə bir cümhuriyyət yarandı, tez də söndü. Yüzilliyin sonunda isə yenidən mərd oğullarımız Şərqin - Qərbin qapısmda gələcəyi olan müstəqil Azərbaycan qurdular. Keçmişimizi, tariximizi, şəxsiyyətlərimizi öyrənməklə biz daha böyük uğurlar əldə edə bilərik.

Məhz bu baxımdan Nağıyevlər nəslinin öyrənilməsi, təbliğ olunması daha çox vacibdir. Belə nəsillər, şəxsiyyətlər bir deyil, on deyil, yüz deyil, çoxdur. Bunları bir yerə toplamaq, öyrənmək cəsarətini isə Dilarə xanım Nağıyevadan öyrənmək vacibdir.

Nəticə olaraq özümüzü tanımalı, başqalarma da tanıtdırmalıyıq.

**Maarif Teymur arxivşünas, əməkdar arxiv işçisi**

**Neft kralı, neft maqnatı, xeyriyyəçi, milyonçu Ağa Musa Nağıyevin həyat və fəaliyyəti haqqında**

Ağa Musa Nağıyev Azərbaycanda inqilabadək Bakmm arxitekturasma fenomen binalar tikdirməklə gözəllik bəxş edənlərdən birincisi olmuşdur.

İllərin buraxdığı izlər sübut edir ki, Ağa Musa Nağıyevin xidmətlərinin qiymətləndirilməsinin vaxtı çatmışdır.

Vaxtsız dünyasmı dəyişmiş oğlu İsmayılm xatirəsinə həsr etdiyi «Müsəlman Xeyriyyə Cəmiyyəti» üçün İsmailiyyə kimi təmtəraqlı sarayı məhz Ağa Musa ucaltmışdır.

Əgər Bakmm arxitekturasmm qızıl fonduna daxil olan Ağa Musa Nağıyevin tikdirdiyi binaları saysaq, uzun bir siyahı almar.

Ağa Musa 1849-cu ilin bir qış axşammda Bakmm Biləcəri kəndində samançı ailəsində dünyaya göz açır və tez bir zamanda -11 yaşmdan zəhmətə qatlaşır.

Ailəsinin vəziyyətinin ağır olduğunu duyan Ağa Musa uşaqlığm daşmı atıb, həyata əziyyət çəkmək üçün atılır. Bel sümüyü bərkiməmiş, arxasmda palan Limanda yük daşımaqla çörək pulu qazanır.

Ağa Musa zəhmətinin əvəzinə aldığı qəpik-quruşlara sevinir, qazancma evdəkiləri qənd və çörəklə təmin edirdi. Hətta aldığı qəpik quruşdan qənaət də edib kənara atırdı, arzusu kiçik bir torpaq sahəsi alıb əkinçiliklə məşğul olmaq idi.

Bu niyyətlə o, aldığı torpaq sahəsində quyu qazdırarkən su əvəzinə neft çıxır və onun bəxti fontan vurur.

1890-1892-ci illərdə artıq Ağa Musa varlanıb milyonçuya çevrilir.

Beləliklə, zaman onun cılız bədəninə qüwə verir, torpaq isə onu varlandırır.

Qulağmda daima atasının nəsihəti səslənirdi: "Oğul! Bacardığm qədər bina tikdir, bir o qədər ömrün uzun olar!"

Bu nəsihəti unutmayıb 98 bina tikdirən Ağa Musa, 70 yaşmda dünyasmı dəyişərkən son sözləri: "Hayıf. İki bina da tikdirsəydim, lOOyaşayardım" olur.

1904-1908- ci illərdə Ağa Musanm neft buruqlarmdan əldə etdiyi qara qızılm miqdarı 12,3 mln puda çatır. 1908-ci ilin sonunda isə neftin istehsalı 13 mln puda çatır və bu sahədə o rekordvurur.

Belə ki, Ağa Musa Azərbaycanda bütün neft firmalarmm arasmda ən yüksək göstəricilərə nail olur.

1910-cu ildə Ağa Musanm Sabunçu, Ramana və Balaxanıdakı neft çənlərinin sayı 45-ə, fasiləsiz işləyən çənlərin sayıisə 30-açatmışdı.

Onun neft buruqları yüksək texniki təhcizatma görə başqalarmdan fərqlənirdi.

Əgər Rusiyada neft sahibkarları arasmda ən iri kompaniyaları Nobel Qardaşlarına məxsus idisə, Azərbaycanda bu mövqeni Ağa Musa Nağıyev tuturdu. Buna misal: 1913-cü ildə Nobel qardaşları qurultayda neft istehsalı sahəsində 18 səs, Ağa Musa isə -10 səs yığmışdı. Məhz bu nailiyyətinə görə Ağa Musa 10-lar sırasma daxil olmuşdu.

Onun 800-dən artıq fəhləsi olmuşdur.

Ağa Musanm cangüdənləri qoçu Nəcəfqulu və pəhləvan Sali Süleyman olub.

İki dəfə oğurlanarkən bunun sifarişli olduğunu başa düşüb Ağa Musa istənilən məbləğin yarısmı verəcəyini bildirib, onlarm narazıçılığmı hiss etdikdə: "ölsəm onu da almayacaqsmız" - demişdi.

Onun vəfatmdan sonra qəzet və jurnallarda dərc olunan məqalələrində: 70 yaşmda vəfat etmiş Ağa Musa Nağıyev Bakmm iri neft sahibkarı, xeyriyyəçi: "əziz şəhərinin şərəfinə böyük qurbanlar vermişdir" - sözləriyazılırdı.

Sovetlər vaxtmda milyonçular iki hissəyə bölünürdülər: neftmilyonçuları və sandıqmilyonçuları.

Sandıq milyonçuları pulu sandıqda üst-üstə yığıb, sələmçilik yolu ilə, yaxud malı öldürə-öldürə ucuz qiymətə alıb, baha qiymətə satmaqla varlananlar idi.

Ağa Musa neft milyonçularmdan idi. Onun yaşadığı dövr və fəaliyyəti, halal zəhməti layiqincə qiymətləndirməyi bacaran və qənaətçiliyi barədə çoxlu fakt və rəvayətlər vardır.

Ağızdan-ağıza keçən bu rəvayətlərin bəzilərində o "xəsis" kimi təsvir olunur və beləliklə gördüyü böyük işlərin-milyonçunun xeyirxah əməllərinin üstünə kölgə salırdı.

Halbuki, Ağa Musa Nağıyev inqilabdan əwəl Bakmm formalaşması üçün böyük məbləği "uf' da demədən xərcləmişdir.

Təəssüf ki, bu güclü və təpərli, sözü keçən şəxsiyyətin fəaliyyəti, doğma xalqı üçün gördüyü işlər bu vaxtadək kölgədə qalıb.

Təmtəraqdan, gözqamaşdırıcı parıltılardan uzaq olan, şan-şöhrətə uymayan Ağa Musa bədxərclikdən, israfçılıqdan uzaq olmuş, pulunun qədrini bilmişdir.

"Dama dama göl olar " atalar misalı onun həyat devizinə çevrilmişdi.

Bu cəhətdən yeni bir bina ucaltmaq istəyəndə o, məşhur, istedadlı memarları dəvət edər, layihənin bir neçə variantda hazırlanmasmı onlara tapşırıb ən mükəmməl variantm üzərində dayanardı. Elə buna görə onun tikdirdiyi binalar Azərbaycan memarlığmm Qızıl fonduna daxil olub.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Ağa Musa Nağıyev kimi xeyriyyəçilərə "İstismarçı-kapitalist" damğası vuruldu.

Onlarm məzarlarmı hətta urvatdan salır, həmin məzarları qohum-əqrəbalarm ziyarət etməsinə belə imkan vermirdi.

Bu cür aqibət Ağa Musanm nəslinə də qismət olub.

Ağa Musa vəsiyyətinə əsasən Kərbəlada dəfn edilməli idi. Artıq müflisləşmiş, var-dövləti əlindən almmış Ağa Musa 4 mart 1919-cu ildə dünyasmı dəyişərkən imkansızlıq ucbatmdan

"Çəmbərəkənd " qəbirstanlığmda dəfn olunur. Nə vaxtsa onun vəsiyyətinə əməl edilib, Kərbəlaya göndəriləcəyi ümidi ilə ona əmanət baş daşı qoyulur.

1931-ci ildə Sovetlər İttifaqı Azərbaycanm ən uca nöqtəsində "Dağüstü parkda" "alovlu natiq" Kirovun heykəlini ucaltmağa qərar verir. Bu planı həyata keçirtmək məqsədi ilə şəhər əhalisinə bu qəbirstanlıqdan yaxmlarmm sümüklərini çıxartmaq təklif olunur. Yiyəsiz qəbirlər qısa bir vaxtda əkin sahəsi kimi şumlanıb, yerlə yeksan olur.

Məhz buradan Ağa Musanm dəfn mərasiminin macərası başlanır (bu haqda bir az sonra).

Ağa Musa Nağıyevin, ilk azərbaycanlı neft maqnatmm təkcə öz xeyri üçün deyil, xalqı üçün də çalışdığmı sübut etməyə ehtiyac yoxdur. Onunxidmətləri göz qarşısmdadır.

Maraqlıbirfakt:

Azərbaycan Sovet Ensiklopediyasmda (1983-cü il 7-ci cild, səh. 145) Ağa Musa Nağıyevin iri sahibkar olduğundan və var dövlətinin milliləşdirilməsindən cəmi 16 sətir yazılıb. Onun xeyriyyəçiliyindənisə birkəlmə də olsunbəhs edilməyib.

Paytaxtımızı gözəlləşdirən, ona təkrarsız Qərb və Şərq memarlıq kaloriti verən gözəl binaların əksəriyyətini Ağa Musa Nağıyev tikdirib. Təkcə "İsmailiyyə" (AMEA-nm binası kimi tanmmış) keçmiş "Müsəlman Xeyriyyə Cəmiyyətinin" binası öz gözəlliyi və möhtəşəmliyi ilə bütün tikililərdən fərqlənir. Bu bina "İsmailiyyə" sarayı Bakmm memarlıq simasmda klassik Qotika nümunəsidir.

Ağa Musa Nağıyev Bakmm iri mülk sahibkarlarmdan birincisi olub, onun başqa milyonçulardan fərqli cəhəti, köhnə Bakmm memarlıq simasma ən çox töhfə verməsidir.

Buna əsaslanaraq onun vəsaiti hesabma inşa edilmiş binalara tamaşa edərkən, bu insanm adı minnətdarlıq hissi ilə xatırlanmalıdır.

Ensiklopediyanm həmin saymda (150 səh.) erməni inqilabçısı və Azərbaycanda heç vaxt yaşamayan Nalbandyan haqqmda geniş məlumat verməklə bərabər onun Azərbaycanda keçirilmiş yubileyi haqda gözəl və ətraflı sözlər yazılmışdır.

İkiüzlü Bakmm (kapitalist və sosialist) köhnə simalarma nəzər salanda, bir "qarğış" qopar dilimdən: Tanrı bu sayaq "xəsisləri" bol eləyəydi.

Ağa Musa Nağıyev Bakıdakı Realm məktəbinə, Rusiyada və xaricdə təhsil alan tələbələrə, eləcə də yetimxanalara köməkliyini əsirgəməyib.

Borc içində boğulan birisi kömək üçün Ağa Musaya müraciət edərkən o belə cavab verib: mən sənə köməklik edim, borcundan çıx. Sonra bir neft buruğu verim, işlət borcunu qaytar. Həmin adam zəhmət çəkəcəyini düşünüb belə köməkdən imtina edir. Ağa Musa cavabmda deyir: Sən zəhmətdən çəkinirsən. Mən də pulumu göyə sovuranlardan deyiləm.

Atalarmisalıdavarki: "İşləməyən, dişləməz!" 70 il küçə bazar dedi-qodularma, qırmızı proletar replikalarma "yaşıl işıq salmış" sovet öz işini görübsə də, ağıl və zəkamızm indiki milli dönüş dövründə nə üçün yaşlılarımızm yaxşılıqlarmı yad etməyək?

Yaddan çıxarmaq olmaz ki, Ağa Musa Nağıyevin acı taleyinə milyonları kömək edə bilməyib. Belə ki o iki övladmm ikisini də erkən yaşlarmda itirmişdir. Qızı Ümmül Banu (Şəmsi Əsədullayevin oğlu Mirzənin həyat yoldaşı) doğuş zamanı dünyasmı dəyişmiş, oğlu İsmayıl 27 yaşmda vərəm xəstəliyindən vəfat etmişdir.

Övladsız qalmış Ağa Musanm qardaşı Ağa Əli yeni doğulmuş beşinci oğlunu ona hədiyyə verir.

Ələsgəri oğulluğa götürən Ağa Musa onun admı dəyişib Fərəc qoymaqla məqsədi kədəri unudub, sevinci bu uşaqda tapmaq olur(adm mənası belədir).

Fərəcin milyonçu vərəsəsi olması sonradan ona çox baha başagəlir.



Ağa Əli Nağıyev - Ağa Musanın qardaşı

**Fərəc Nağıyev - milyonçu Ağa Musa Nağıyevin vərəsəsi**

O, 1903-cü ilin dekabr aymda, Bakıda dünyaya göz açmış, milyonçu Ağa Musa Nağıyevin vərəsəsi olub. Admı Fərəc (kədərdən sonra gələn sevinc) qoyub Ağa Musa. Bununla bir növ oğlu İsmayılm kədərini unudub, bu uşaqda sevinc tapır.

Fərəc 18 yaşmda səhnə fəalliyətinə başlamış, Teatr texnikumunun aktyorluq, rejissorluq və rəssamlıq fakültələrini bitirib, bu ixtisaslarayiyələnmişdir.

O, 1928-ci ildə ailə həyatı qurmuş, gözəl, mavi gözlü Zəhrə xanım ilə birgə nigahmdan 1930-cu ildə anadan olan Rauf və 1931-ci ildə anadan olmuş Solmaz, Bakı hədiyyələridir.

1929-cu ildən etibarən bu gözəl Həcər hünərli Nigar qeyrətli qadm həyat yoldaşı ilə birlikdə Fərhad kimi dağlarda külüng vurub, Fərəc ilə birlikdə sənətə yol açırlar.

26 yaşlı Fərəc, Nağıyev soyadının sürgünü olub, 1950-ci illərədək köçəri həyat keçirmişdir. 1938-1940-cı illərdə İsveç bankmdan gələn vərəsəlikdən <<imtina>> edib, yetimxanalara bağışlamışdır.

Sənət aləminə 1921-ci ildə atılmış ilk addımlarmı «Tənqid-təbliğ» («Satirit») teatrmda həvəskar aktyorluqdan başlamışdır.

1921-1928-ci illərdə o, bir çox xalq teatrlarmda, 1929-cu ildə «Səyyar kəndli» teatrmda, 1930-cu ildə «Bakı-Türk işçi» teatrmda fəaliyyət göstərmiş, «Küləklər şəhəri»ndə-Aşıq, «Yanğm»da İvan Vasilyeviç və başqa rollarm iştirakçısı olmuşdur.

1932-ci ildən, 29 yaşmda Fərəc rejissorluq fəaliyyətinə başlamışdır.

«Qanlı səhra», «Qana-qan» və bir çox tamaşalarda rəssamkimi fəaliyyət göstərmişdir.

1934-1935-ci illərdə Aşqabad Dövlət Dram Teatrmda işləmiş, bu şəhərdə 3-cü övladı - oğlu Ağa Əli dünyaya göz açmışdır.

1938-1939-cu illərdə Nuxa (indiki Şəki) teatrmda fəaliyyət göstərmiş və burada 4-cü övladı - oğlu Çingiz anadan olmuşdur.

Fərəc Nağıyev səhnə fəaliyyətini Quba, Sabirabad Dövlət Dram Teatrlarmda davam etmişdir.

1940-cı ildə Dərbənd Dram Teatrmda təbliğat və təşkilat işlərini davam etdirərək, bütünyuxarıda adları çəkilən teatrlarda quruluşçu rejissor, aktyor, tərtibatçı rəssam və eləcə də direktor vəzifələrində də çalışmışdır.

Dərbənd hədiyyəsi sayılan qızları və son beşikləri Dilarə burada dünyaya göz açmışdır.

Fərəc Nağıyev 1962-1965-ci illərdə Xətai rayonunda və Əbilov adma Mədəniyyət Evində bədii rəhbər, Azərbaycan Dövlət Estradasmda-məzhəkəçijanrmda çıxış etmişdir.

Fərəc Nağıyev «Yuriy», «Qazı», «Tanrı və kasıb» adlı təmsil və nəzirələr, «Ehtiyatlı *ol \»,* «Vaz keçsin», «Meyxana», «Seçki» və sair satirik şe'rlər və səhnəciklər, «Utanıram», «Bəzəkdir», «Mübarizələr» kimi miniatür və mənzum məzhəkələrmüəllifi olmuşdur.

1967-1970-ci illərdə «Qaravəlli» ssenarisini yazmaqla xalq meydan oyununun dirçəlişinə nail olmuşdur. Yusif Səmədoğlu «Yeddi oğul istərəm» filminin ssenarisinə məhz Fərəc Nağıyevin «Bahar gəldi» oyunu hissəsini ssenarisinə daxil edib, ona ekran həyatı vermişdi.

«Qaravəlli» tamaşasmm mətni, afişası, proqramı, eləcə də dəvətnaməsi onun tərəfindən hazırlandığı kimi, tamaşada aparıcı olmaqla bərabər, o 64-67 yaşlarmda Kos-Kosa rolunu da ifaetmişdir.

O, «Əsli və Kərəm», «Aşığ Qərib», «Sevil», «Aydm», Lermontovun «İki qardaş» və bir çox başqa tamaşalara eskizlər çəkmişdir.

Azərbaycan Dövlət Dram Teatrmda Adil İskəndərovun fəaliyyəti dövründə, onun təklifi ilə «Xırs quldurbasan» tamaşasmm finalma satirik şerlə sonluqyazmışdır.

Azərbaycanfilmin çəkdiyi «Kəndlilər», «Mehman», «Məşədi İbad» və bir çox filmlərdə çəkilmişdir.

Bütövlükdə Fərəc Nağıyev həyatmı səhnə ilə yaşayıb. Səhnə onun bu günü, sabahı və gələcəyi olmuşdur.

Gözəl rəqqas idi. Onun toylarda rəqs etməsi-özü bir tamaşaidi.

Mahir tikiş ustası olduğundan, tamaşalara geyimlərin eskizlərini verməklə bərabər, biçib tikərdi də.

Məhz bu keyfiyyətlərinə görə kinorejissor Hüseyn Seyidzadə «O olmasm, bu olsun» filmində Fərəci Məşədi İbadm müasir dildə desək, «prodüseri» rolunda çəkmişdir.

Fərəc Nağıyev Türk Dövlət Musiqili Dram teatrmda tamaşaya qoyulan «Arşm mal alan» və «Sevil» əsərlərinə, eləcə də Texnikumun tələbələrinin iştirakı ilə tamaşaya qoyduğu «0d Gəlini» və «Həyatm dibində» tamaşalarma hazırladığı afişalarm tərtibatçısı da olmuşdur.

Sabir adma Nuxa Dövlət Dram teatrmda tamaşaya qoyduğu «Hacı Qara», «0 olmasm, bu olsun», «Həyat», «Namus» və başqa əsərlərə də afişalarm tərtibatçısı da Fərəc Nağıyevə həvalə olmuşdur.

Həyatda hamı üçün o, bibioğlu, xalaoğlu, Fərəcəmi, ailədə isə əvəzedilməz həyat yoldaşı, sevib-sevilən ata və baba, qiyməti hesaba gəlməyən qaynata olmuşdur.

Yaşasaydı, bu il 100 yaşı olacaqdı. İndi deyirik: «Allah rəhmət etsin səni Fərəc, yubileyin mübarək!>>.



Fərəc Nağıyev (Əliəsgər) A.M.Nağıyevin oğlu, vərəsəsi
(1903-1973)

Yaşamaq ömrü isə nə qocalır, nə də ölür...
Dünya cavanlaşır, biz isə qocalırıq...
**Fərəc**

**Səhnə fədaisi Fərəc Nağıyev**

Fərəcə artıq 2 il idi ki, onkoloji xəstəlik aman vermirdi. Ağa Musa atası kimi 100 yaş yaşayacağma söz verib, ölümü yaxma buraxmayacağma ən çox özü inanırdı.

Ara bir vəsiyyət edir, ölümü yaxın buraxmasa da, onun qaş ilə göz arasmda olduğunu dəfələrlə bizə təkrar edib, elə bil bizi bu ayrılığa hazırlayırdı. Bütün bu çətinliklərlə mübarizədə həyat yoldaşı Zəhrə xanımın əməyi az deyildi. Bu qadın sanki dözümlülük mücəssəməsi idi. Həkimin və Zəhrə xanımın köməyi ilə onun ömrü yalnız iki il uzandı.

Bu qayğıkeşlik onların 45 illik qarşılıqlı, hər zaman yaşar məhəbbətlərinin nəticəsi idi.

Yataqda olarkən yazdığı xatirələrini belə bir cümlə ilə başlamışdı: <<İnsanın ömür yoluna «oldu - öldü» kəlmələri qərar verir!»

... Ancaq insan əməlləri irs olaraq qalır. İnsan ölürsə də, sözü qalır, lakin kimin sözü və necə? Bax, bu əsasdır.

Fərəc Nağıyev incəsənət aləminə 1918-ci ildə, 15 yaşından fəhlə klubunda həvəskar aktyor kimi qədəm qoyub. Qısa bir zamanda o, 1921-ci ildə «Tənqid Təbliğ» teatrında fəaliyyətə başlayıb.

Yeni yaranmış inqilabi ruhlu teatrın repertuarına pərdəli müasir tamaşalar daxil idi. Bu sahədə təşkil olunan komissiyanın əsas məqsədi Ə. Haqverdiyev, S.S. Axundov, Əliağa Vahid kimi yazıçıları ətrafında toplamaq idi. Hacıağa Abbasov, Mirzə Ağa Əliyev, Ə. Qəmərli kimi aktyorlar üçün yeni əsərlər yazmaq idi.

Məhz bu dövrdə teatrda Fərəc - Hacı Ağa Abbasov ilə yanaşı R. Kazımov və Sona xanım Hacızadə, A. S. Gəraybəyli, A. H. Cavadov və Əzizə xanım kimi aktyorlarla - korifeylərlə görüşür, onların yaradıcılıqlarından nə isə bir şey öyrənməyə çalışırdı.

1923-cü ildə A.M. Şərifov, R. Darablı, Kirmanşahlı, Rza Təhmasib, Cəlil Bağdadbəyov, Mustafa Mərdanov, Mərziyə xanım Davudova kimi səhnə ustalarına olan məhəbbəti onun Akademik Dram teatrına gəlişinə səbəb olur.

O, teatrda kiçik rollar oynamaqla bərabər başqa rolları da başdan başa əzbərləyirdi.

Bir gün «Şeyx Sənan» tamaşasmda dəvəçi rolunun ifaçısı D. Şirvanlı xəstələndiyindən onu əvəz etməyi Fərəcə həvalə edirlər. Bu onun demək olar ki, ilk sözlü rolu olur. Sonralar Fərəc bu rolunu aktyorluq sənətində ilk addım hesab edirdi. Beləcə o, iki il ərzində Dram teatrmda bir çox rollarm ifaçısı kimi seçilməyə başlayır.

1925-ci ildə Həmkarlar İttifaqı Şurası nəzdində (ASPS) yaradılan «Damğa» Miniatür tamaşalar teatrmda kadrlarm seçilməsi üzrə komissiyada Məcid Şamxalov, H. Rzayev, Derbitskaya kimi korifeylər ilə Fərəc Nağıyev çiyin-çiyinə çalışmış, komissiyanm tərkib üzvü olmuşdur.

Komissiyanm əsas məqsədi Fəhlə Klubunda müasir formada miniatür tamaşalarm oynanılması idi. Bir müddət sonradan gözəl səsi ilə opera sevər tamaşaçılarımızı valeh edəcək qadm - Həqiqət Rzayeva da bu teatrda fəaliyyət göstərmişdir.

1929-cu ildə teatrlarm təşkili ilə əlaqədar Azərbaycan Ali Siyasi Maarif İdarəsi «Səyyar kəndli» teatrmı yaradır. Bu qrupa Ə. Qəmərli, H. Kərimli, Yunus Nərimanov, Şəfiqə Əliyeva, Həqiqət Rzayeva, Maarif Əliyev, Derbitskaya, Mirmahmud Kazımovski, Murad Muradov və Fərəc Nağıyev daxil idi.

Bu teatrda Yunus Nərimanov rejissor, Fərəc Nağıyev rejissor müavini vəzifələrini icra edirdi. Teatrın repertuarmı bir pərdəli tamaşalar təşkil edirdi.

Tamaşa zamanı səhnəni əvəz edən çadırlar, axşamlar teatr işçilərinin yataq yerlərinə çevrilirdi. Yaddan çıxarmaq olmaz ki, çatışmamazlıq, hədə qorxu, maneələr Fərəci hər zaman müşayət edirdi.

1930-cu ildə Fərəc "Bakı Türk" işçi teatrmda fəaliyyət göstərir.

Artıq incəsənətdə bir sıra yenilik - müasirlik ortaya çıxırdı.

İncəsənət xadimləri yeni tipli «Sovet teatrı» yaratmaq uğrunda ciddi işlər görürdü. Bu teatr «Tənqid-təbliğ», «Damğa» və «Səyyar kəndli» teatrlarmdan tamamilə fərqlənən və coşqun ehtirasla yaranan, daha doğrusu, inqilab xarakterli teatr idi.

Fərəc artıq tamaşaçılarm diqqətini özünə cəlb etməyə nail olmuşdu. O, «Küləkli şəhər» pyesində Aşıq rolunun gözəl ifaçısı kimi uzun müddət yaddaşlarda qalır. Qeyd etmək vacibdir ki, bu rolun ilk ifaçısı görkəmli aktyor Kazım Ziya olmuş, Fərəc isə onun dublyoru olmuşdur. Fərəc xatirələrində yazırdı: bu çox çətin də olsa, şərəfli bir iş idi!

O, Aşıq rolunu Gəncə, Tiflis və İrəvan teatrlarında ifa etmişdir qastrol zamanı.

Aktyor sənətinin nə qədər mürəkkəb və məsuliyyətli olması getdikcə onu daha çox düşündürürdü.

Aşıq rolunun ifasının müvəffəqiyyətlə almmasmda Fərəc hər zaman Kazım Ziyaya borclu olduğunu bildirməyi unutmurdu.

Ustad aktyor Ağa Mirzə Şərifovun onun çiyinlərindən tutaraq «yaxşı aktyor olacaqsan» dediyi sözlər - onun uzun müddət qulaqlarından getmirdi.

O, teatr texnikumunda aktyor, eyni zamanda axşam şöbəsində isə rejissor fakültələrində təhsil alıb.

1931-1932-ci illərdə Fərəci artıq teatrda tərtibatçı işi cəlb edirdi. Onu ələlxüsus butafor və qrim işi düşündürürdü. Fərəc teatrda təşkil edilmiş «biçim - tikim>> kursunda qadmlarla birgə təhsil almaqdan çəkinməyib, bu sənətin də sahibi olmaq arzusunaçatıb.

«Qanlı səhra» tamaşasmda rəssamm xəstəliyi ilə əlaqədar, Fərəc bu tamaşanm dekorasiyasmı hazırlamalı olur.

Bu da onun bu sahədə ilk sərbəst rəssam işi olur.

Bütün bunların nəticəsidir ki, o özünü «incəsənətin statistic adlandırmışdır.Biz övladları isə onu incəsənətin fanatı adlandırmışıq. Müasir dil ilə desək " TEATRMAN".

«Qana-qan» tamaşasmda türk hərbi kostyumlarm eskizini və tikilişini də özü hazırlamışdı. O, belə qənaətə gəlir ki, aktyorun eyni zamanda rejissor və rəssam olması daha çox məqsədə uyğun olar.

Rejissorluq fakültəsinin rus bölməsində oxuyarkən, onu maket kursları da özünə cəlb etmişdi.

1935-ci ildə Fərəc teatr texnikumunun hər iki fakultəsini eyni ildə müvəffəqiyyətlə bitirməklə iki ixtisasa: Rejissor və Aktyor ixtisaslarma yiyələnir.

Texnikumu bitirdiyi il onun rejissor kimi səhnəyə tamaşaya qoyduğu ilk işi Şillerin «Məkr və məhəbbət» əsəri idi. Xatirələrindən görünür ki, o bu sahədə də qələbə çala bilmişdir.

Onun rejissorluq sahəsində ikinci işi «Evli kən subay» tamaşası olmuşdur.

Hələ tələbə ikən o, «Od gəlini», «Yurdsuz insanlar yaşar», «Hacı Qara», «Qanlı səhra» tamaşalarma da tərtibat vermişdir.

Nuxa Dövlət teatrmda Fərəc rejissor vəzifəsini icra etmişdir. Bu teatrda Mirzə İbrahimovun «Həyat», Cəfər Cabbarlmm «1905-ci ildə» tamaşalarmm tərtibatçısı olmaq şərəfi onanəsib olmuşdur.

Sonradan Fərəc Nuxa Dram Teatrmda bədii rəhbər, aktyor və rəssam kimi də çalışmışdır.

Bu teatrda tamaşaya qoyduğu əsərlərdən biri də Üzeyir Hacıbəyovun «O olmasm, bu olsun» komediyası olmuşdur. Dəfələrlə, lakin müxtəlif variantlarda təqdim edilən bu əsər hər dəfə tamaşaçı auditoriyasmm saymı artırmış, böyük maraq və tamaşaçı məhəbbətinə səbəb olmuşdur.

Məşədi İbadm Rüstəm bəy ilə qızı Gülnazm alverini baqqal dükanmda aparması səhnəsi məhz Fərəcin ixtirası olub.

Pərdə qarşısmda Məşədi İbadm hamama aparılması səhnəsi də onun tapmtısı idi. Bütün bunları o, hələ 1938-ci ildə həyata keçirmişdisə də, sonradan film çəkilərkən bunlardan istifadə edilmişdir.

Teatr sahəsində əldə etdiyi zirvə onu hər zaman həm sevindirir, həm də düşündürürdü ki, əməyi hədər getməyib.

Nuxa Dram Teatrmdan sonra o, səhnə işini 1940-cı ildə Dərbənd Dram teatrmda davam etdirir. Onunla bu teatrda baş rejissor və tərtibatçı vəzifələrini icra etmək üçün müqavilə bağlanılır. Tamaşaya qoyduğu ilk işi «O olmasm, bu olsun» əsəri yeni tərtibdə olur.

1940-1941-ci ildə «Daqestanskaya Pravda» və «Veçernyaya Moskva» qəzetləri bu haqda geniş məlumat verərək onu "Əla incəsənət işçisi" adlandırmışdır.

Teatrda iki bölmə var idi: Yəhudi (tat) və Azərbaycan bölmələri. Teatrın tat bölməsində «Həyat», «Şah oğlu», «Şah Abbas», «Şarm» və sair pyeslər, Azərbaycan bölməsində isə «Arşmmalalan», «Dağlılar» pyesləri tamaşaya qoyulurdu.

Teatrm repertuarmda bu qədər rəngarənglik onun əməyi idi. Fərəc yorulmaq bilmədən daima axtarışlar aparır, gecəsini gündüzünə qatırdı.

Rayonlarda işləməklə bərabər, Bakıda həmin ili Musiqili Komediya Teatrmda «Molla Nəsrəddin» tamaşasmm hazırlanmasmda da əməyini əsirgəməyib. Bu tamaşanm hazırlanması Böyük Vətən müharibəsinin başlanmasma təsadüf edir. Fərəc hərbi qulluqdan qayıtdıqdan sonra bu mövzuya yenidən qayıdır. O, bir müddət dram teatrmda truppa müdiri və aktyor, Teatr texnikumunda qrim üzrə müəllim işləyir. Sonralar həm müəllimi, həm də sənətinə səcdə etdiyi Hacı Ağa Abbasovun təkidi ilə o, Sabirabad dram teatrmda işləməyə göndərilir. Burada Fərəc Nağıyev teatrm direktoru olmaqla bərabər rejissor kimi də fəaliyyət göstərir. Repertuara «Məhəbbət gülü», M.F.Axundovun «Eşq və intiqam>>, «Vəziri xan Lənkəran», İ.Qasımovun «Kür sahilində», Qurban Musayevin «Hücum>> əsərləri daxil idi.

Fərəcin doktor Əli Fəhmi ilə dostluğu da bu teatrdan başlamış, bu dostluq çox-çoxsonralarBakıda davam etmişdir.

Sabirabad teatrında Fərəc ilə işləyən və yetişən aktyorlar cərgəsinə K. Atayev, S. Əliyeva, Rübabə Muradova və onun həyat yoldaşı Xəlil Ağa, Əsgər Şöqi və sairələri daxil idi.

Fərəc Nağıyev yaşa dolduğunu belə izah edirdi: "Dünya cavanlaşır, biz isə qocalırıq. Yaşamaq həvəsi isə qocalmayır və ölməyir". O, qocalığı pisləyənlərlə razılaşmırdı. Hətta zarafatla belə bir misal da çəkərdi: adam var ki, qocaldıqca ipək olur, adam var ki, qocaldıqca köpək olur.

Ona bütün dost-tanışları xalaoğlu, bibioğlu deyə müraciət edib, onun dünyagörüşündən məsləhət alırdılar. O, fəxrlə deyirdi ki, bu mənim FƏXRİ ADLARIMDIR. Aktyorlardan Hacıməmməd Qafqazlı, Cəlil Bağdadbəyov ilə onun dostluğu qardaşlığa çevrilmişdi.

İndiki kimi sənətə verilən qiymət o vaxtlar olsaydı yəqinkio, bütünqran- prilərə sahibolardı.

Hayıf ki, Fərəc Nağıyev dünyasmı tez dəyişdi, özünə düşmən qazanmasa da, sənətinə qiymət verən də tapılmadı. Öz-özünə yetişən, özünə geniş imkanlar yaradan FƏRƏC NAGIYEVİN sənətinin kölgədə qalmasma səbəb məhz kapitalist kölgəsinin onun üzərinə uzun müddət düşməsi

olmuşdur. Soyadının sürgünü olub, 1929-cuildən 1952-ciilədək bu səbəbdən Bakı üzünə həsrət qalmışdır. Yuxarıda qeyd olunan ucqar, əlçatmaz, müasirlikdən çox-çox geri qalan rayonlarda, Orta Asiyada və Dağıstanda teatrm təşkilinə, təbliğinə ömrünü sərf etmişdir.

Neft milyonçusu Ağa Musa Nağıyev bilsəydi ki, Fərəc soyadmm sürgünü olacaq, bunlarm əwəlini görsəydi, bəlkə də onu VƏRƏSƏ elan etməzdi.

Çətinliklərlə rastlaşdığma baxmayaraq, Fərəc Nağıyev hər zaman soyadı və nəsli ilə fəxr etmişdir. Fərəc Nağıyevə aid olan fondda (№475) 200 satirik şeiri öz yerini tapmışdır. Bunlardanbirneçəsinəzərinizə çatdırılacaq.



# Fərəc, həyat yoldaşı və anası

**Neft səltənətinin banisi Ağa Musa Nağıyevin varisi Fərəc Nağıyev (bioqrafik anket)**

Fərəc Nağıyev 1903-cü ilin dekabr aymda neft səltənətinin parlaq nümayəndəsi Ağa MusaNağıyevin ailəsində dünyaya göz açmışdır. Ağa Musa uşağm admı kədərdən sonra gələn sevinc qoyub, bununla oğlu İsmayılm kədərini unudub, bu uşaqda sevinc tapır. Fərəc hələ uşaq ikən pullarmı tamaşalara baxmaqla xərcləyirdi. Ağa Musaya xəbər çatır ki, sənin vərəsənin aktyorluğa həvəsi var,deyəsən ümidlərin boşa çıxacaq. Lakin Ağa Musa onlara cavabmda: "Mən özüm samançı oğlu olub, hanballıq etmişəm. Hər nə ilə məşğul olursa olsun, insan olsun", deyir.

Savadsızlığm hökm sürdüyü bir vaxtda rejissor, aktyor və rəssam ixtisaslarma yiyələnən 26 yaşlı «Kapitalist qalığı»damğası qazanan Fərəc Nağıyev, 1929-cu ildən soyadının sürgünü olub. 1950-ci illərədək ailəsi ilə birikdə köçəri həyat keçirib. Bunun nəticəsidir ki, o, İsveçrə Bankmdan gələn vərəsəlikdən <<imtina>> edib.

Sənət aləminə 1921-ci ildən ilk addımlarını atıb «Tənqid-təbliğ» satirik teatrmda aktyor kimi fəaliyyətə başlayıb.

1932-ci ildə rejissorluq fəaliyyətinə başlayıb. Bir çox tamaşalarda; «Əsli və Kərəm», «Aşıq Qərib», «Sevil», «Aydm», «İki qardaş» tamaşalarmda rəssam kimi fəaliyyət göstərib. 200-ə yaxm təmsil və nəzirələrin: «Ehtiyatlı ol», «Vay keçi», «Meyxana», «Seçki» və bir çox başqa satirik şerlərin və səhnəciklərin müəllifidir.

O, 1967-1970-ci illərdə «Qaravəlli» ssenarisini yazmaqla xalq meydan oyununun dirçəlişinə səbəb olub.

Fərəc Nağıyev «Azərbaycanfilm» kinostudiyasmm çəkdiyi «Kəndlilər», «Mehman», «Məşədi İbad» filmlərində aktyorluq məharətini daha aydm göstərə bilmişdir.

Ümumiyyətlə Fərəc Nağıyev teatr ilə nəfəs alırdı.Teatr onun bı günü, sabahı və gələcəyi olub. Gözəl rəqqas idi.

Toylarda oynadığı «Qoçəli» rəqsi özü bir tamaşa təşkil edirdi.

Gözəl tikiş ustası idi. Tamaşalarm əksəriyyətində geyimlərin eskizini verib, kostyumları özü biçib tikərdi. Toylarda masabəyliyi dillər əzbəri idi.

P.S. Bioqrafik anket

Azərbaycanda və ondan kənarlarda (Dağıstan və Orta Asiya) Fərəc adı ilə tanmmış səhnə fədaisi Əliəsgər Nağıyev -milyonçu Ağa Musa Nağıyevin vərəsəsi olub.

Mənası kədərdən sonra gələn sevinc olan Fərəc admı ona Ağa Musa vermişdir.

Qardaşı Ağa Əlidən övladlığa götürdüyü bu uşaq Ağa Musanı çox sevindirə bilmədi.

Fərəc 16 yaşmda ikən Ağa Musa Nağıyev dünyasmı dəyişdi. Bununlada Fərəcin səyyar həyatı başladı.

Bunun nəticəsidir ki, Fərəc 1938-ci ildə İsveç bankmdan gələnvərəsəlikdən"imtinaedib", "yetimxanalarabağışlamışdı".

18 yaşmdan səhnəyə həvəskar aktyor kimi gələn Fərəc, 1929-cu ildən "İşçi Türk" teatrmdabaş rollarm ifaçısı olub.

Uzun müddət kapitalist soyadının sürgünü olan və səyyar həyat keçirən Fərəc Nağıyev gəncliyini ailəsi ilə birlikdə vətəndən uzaqlarda - qürbətdə keçirməli olub.

Burada o, teatrlarm yaranmasmda və onun təbliğində rejissor, aktyor, rəssam, bədii rəhbər və direktor vəzifələrində çalışır.

Bir sözlə ömrünü incəsənətə fəda verib, gənc aktyorların, istedadlarm yetişməsində Fərəcin rolu heç vaxt unudulmayacaq.



Fərəc Nağıyev Ağa Musa Nağıyevin oğlu
- vərəsəsi

**Fərəc Nağının təmsilləri**

Fərəc yazırdı ki, bəzi adamlar bir-birini təhqir etmək məqsədilə eşşək adlandırırlar. Binəva eşşək görəsən hansı əməli üçün pis kimi qələmə verilir? O, suyu üförə-üfürə incəliklə içən, yıxıldığı yerdənbirdə keçməyəndir. Bəlkə də, «insan» admı daşıyan «mərifətli» şəxslər eşşəyi rüşvət almadığı, dönə-dönə məhkum olmadığı üçün töhmətləndirirlər.

## YUXU

Cahil insanı çox görüb
baxdım, bir gün, Evdən niyaz
üçün çıxdım, yalvarıb, sidq
ilə dedim: «Tanrı»! Məni
insan yox, heyvan et, ban.
Ruhum huş alır o dəm bişək,
Yuxuda gördüm olmuşam
eşşək. Çilalayıb mindi
arvadım Səkinə, çoxlu zərbə
çubuqla vurdu mənə, canımı
saldı tabdan ağrı, rahəti Can
üçün sarğı, vercəyin gəldi
qeybdən bir səs: «yoxsa
narazısan yenə na kəs?!»
Doğrusun söylə, gərək sən
bundan
bezmisənsə, edim yenə
insan? Düşərək xakə
söylədim yox, yox bu halım
məsləhətdir ondan çox!
Fərəci sən ilahi yandırma,
Yenə insan edib, usandırma.
Yaradır fitnə insan evladm,
bəd nam olmuşdur eşşəyin
adı.

1945-ci il.

## Üzüm şirəsi

Hamı cəm olan tək, büsat quruldu
Qəh-qəhə yüksəldi, qanlar duruldu,
Badələr səsləndi, sağlıq deyildi, cürbəcür
məzələr, plov yeyildi, Süfrədə qoyulan
şərabla sirkə Həmnişin idilər, yan yana
birgə. Fərəhlənib şərab, özünü öydü,
özün tərif edib, döşünə döydü Dedi
«sirkə, görürsən hörmətimi? azca gözlə,
görərsən qüwətimi. Gör ki, məndə nə
qədər vardır hünər, məni nuş eləyən
pələngə dönər. Kim yumruğ vursa, daş
dönər xakə nərə çəksə, yetər səs əflakə.
Hələ qurandan da söyləyib ayə: Yoxsa
şübhə edirsən», Həmsayə? Bəsdidə qəh-
qəhə çəkib bəkməz dedi: <<düzgün olan
özünü öyməz» anla ki, cinsimiz
üzümdür, üzüm. Sən də, bu sirkə də,
budur mən özüm Üçümüz hasil olmuş
şirədən Bu lətafət sənə gəlib nerədən.
Şüşədə çox gözəl görünsən də çox
içilsən, xəta olur səndə. Sən olunca, heç
olmayaydm kaş,
sənə aludələr olur əyyaş. Çox cinayətlər üz verir
səndən, zaqin azdır, çox azdır az dəmdən hər zaman
kef verirsən etmə güman Bu günün keflisi, sabah
peşiman. Sirkəni işlədirlər tədriclə, xörəyə az qatıb,
alırlar məzə, Mən hələ bəhməzəm, lazımam xeyrə-
şərə, Bizi nuş eyləyən alır ləzzət, Səni Kim içsə, çox
alar töhmət!

1936-cı il.



“Qaravəllidən” bir parça

**«Siçan və Şir»**

Pişiyin xofundan bir arıq siçan,
xaraba bir evdə olmuşdu pünhan.
Ancaq oğurluqla tuturdu yükün,
yeyib kökəlirdi, fikir etdi bir gün:
«məndən güclü varmı pəhləvan?»
Şirin xəyallarda oldu bəd güman.
Cam cuşa gəlib, qurdu bir tədbir,
At kimi sıçrayıb, çıxdı daş üstə,
Qaldırıb əlini qoydu qaş üstə.
Nəhəng şir gedirdi, siçan bəy dedi:
Məgər tanımırsan məni, mən siçan
bəyi? Mənəm bu yerlərin padşahı,
xanı, bir şapalaq vurub, söylədi
şirə «Cəhənnəm ol, ayaq qoyma
bu yerə!» Çox hay küy qoparıb,
saldı mərəkə, yəni qələt etdi
başmdan yekə. Şir dedi: qulağım
batdı səsindən, Bir az yaxm gəl,
eşidim nə dirsən, bundan
lovğalanan bəd əməl hərif, Gülüb
şirə dedi» axmaqsan hərif.
Şir tutub siçanı əlində sıxır,
Biçarənin arxasmdan piy çıxır.
Vücudu titrəyir, gözləri axır,
Yalvarış tərzilə o şirə baxır. Şir
söyləyir: «axmaq, qeyrətin
budur? Yalı artıq düşən sən tək
qudurur, Səndə təqsir yox idi,
mən bilən Bu azca piy idi səni
dilləndirən.»

1938-ci il

Копия:

Руководителю Дома Народного Творчества
в г.Баку /Азерб.ССР/
Нагиеву Фараджу

В счастливую эпоху подготовки к I00-летию рождения величайшего человека В.И.Ленина, Вы решили основать народное зрелище театр "Гаравелли". В этом деле плодотворно участвует, один из моих воспитанников, отлично окончивший Азерб.Театр.техникум /по режиссерскому отделению/ Нагиев ФАрадж Ага Али оглы.

Человек одаренный, талантливый, всегда желающий принести пользу подрастающему молодому поколению нашей республики.

Первым вопросом об"явите конкурс для репертуара Вашего, всеми желанного "Гаравелли". Мне хорошо помнится в I920/2I году по предложению Предсовнаркома Азербайджана, Наримана Нариманова Наджаф оглы, с которым в I906 году в Грузии, в районе Борчалы, я устраивал вечера в пользу недостаточных учеников сельских, школ Борчалинского района, я организовал первый революционный театр "Сатир-агит" им. 26 "Комиссаров" в Баку, ныне выросший в Краснознаменный театр им. Дж.Джабарлы в г.Кировабаде. Мне тогда, по указанию Н.Нариманова, писали репертуар: Дж.Мамедкулизаде, М.С.Ордубади, С.С.Ахундов, Абдулла Шаиг, Сулейман Рустам и др.

Доброжелатель "Гаравелли" ветеран Азерб.сцены
и первый народный артист Республики
Гаджиага Абасов

I апреля I970 г.

***Fərəc Nağıyeyin anadan olmasının 100 illlyinə həsr olunmuş buklet*** (1903-1973)



O deyirdi: «İnsan ömrünə oldu-öldü kəlmələri qərar verir. Ancaq insan əməlləri irs olaraq qalır. Dünya cavanlaşır, biz qocalırıq. Yaşanılan ömür isə nə qocalır, nə də ölür. Sənət acgözü olduğum, mənə bu yolda az fayda verməmişdir. Arzu etdiyim, həsrəti ilə yaşadığım incəsənət ayrılmaz bir hissəm olmuşdur>>.

Fərəc bütün ömrünü səhnədə yaşadı. Səhnə onun bu günü, sabahı və gələcəyi oldu.

Allah sənə rəhmət etsin. Yubileyin mübarək!

Neft səltənətinin parlaq nümayəndəsi, Ağa Musa Nağıyevin vərəsəsi, incəsənətin fanatı Fərəc (Əliəsgər) Nağıyev 1903-cü ildə dünyaya xoşbəxt bir ailədə göz açıb. Dövrün gərginliyi, təşvişi və ən əsası kapitalist soyadı Fərəci Bakıdan uzaqlaşdırır. 1929-cu ildən başlayaraq səyyar həyat keçirməsinə baxmayaraq o, incəsənətin bütün zirvələrini fəth edir. Belə ki, savadsızlığm hökm sürdüyü bir zamanda Fərəc teatr texnikumunda oxuyub, aktyor və rejissor ixtisaslarına yiyələnir. Sonradan rəssamlıq ixtisasmı da əldə edır.

Fərəc Nağıyev Azərbaycanm ucqar rayonlarında, habelə respublikadan kənarda -Dağıstanda və Aşqabadda var qüwəsini teatrm inkişafma yönəltmişdir. O, bu teatrların əksəriyyətində aktyor, rejissor, quruluşçu rəssam, afişa tərtibatçısı olmaqla bərabər, bədii hissə müdiri və direktor vəzifələrin də icraçısı olmuşdur. Fərəc Nağıyev 1918-1973-cü illərədək səhnə fəaliyyətini «Tənqid-təbliğ», «Dalğa», «Səyyar kəndli», «Türk-Tat» teatrından başlayıb. Bütün işlədiyi teatrlarda təbliğat aparmış və həmin teatrın inkişafmda böyük rolu olmuşdur. Bütün yaradıcılıq yolunda həyat yoldaşı Zəhrə xanım ona dəstək olub, çətinliyə sinə gərib, beş övladmm böyüyüb, boya-başa çatmasmda böyük rolu olmuşdur.

Uşaqlıq xatirələrindəki «Qaravəlli» xalq meydan oyunlarmı 1969 - 1970-ci illərdə tamaşaya çevirən Fərəc Nağıyev sənət aləmində böyük dirçəlişə səbəb olur. 69 yaşlı Fərəc Novruz bayramı şənliklərində Kos-Kosa rolunda iştirak edir. O, «Qaravəlli» ssenarisinin Mərkəzi Komitədə təsdiqlənməsinə nail olmaqla bərabər, xalq yaradıcılığı evinə «Qaravəlli» teatrı admm verilməsinə də var qüwəsini sərf etmişdir.

Bütün illər boyu onun vətənpərvərlik hissləri daima artırdı. Bunu onun şeirlərində və tərtib etdiyi afişalarda görmək olurdu. Belə ki, «Qaravəlli» afişasmm fonunda göy, qırmızı və yaşıl rəngləri təsvir etməklə o, Azərbaycanm bayrağmı təsvir etmişdir.

Bu baxımdan Azərbaycanm ilk xalq artisti professor Hacı ağa Abbasov ona təşəkkürünü belə bildirib: «Qaravəlli xalq meydan oyununun dirçəlişinə yalnız mənim tərbiyəmlə zirvəyə qalxan, əla qiymətlərlə sənət ixtisasma yiyələnən tələbəm Fərəcnail olabilərdi» (arxiv).

Fərəc Nağıyevin 200 satirik şeir və təmsilləri, afişaları, «Qaravəlli» və «Spartak» tamaşalarınm ssenariləri və digər sənət toplusu bu gün Azərbaycan dövlət ədəbiyyat və incəsənət arxivində 475 saylı fondda qorunub saxlanılır.



**Əllərini ver mənə...**
**esse-elegiya**

**Fərəc Nağıyevin anadan olmasının 100 illiyi münasibətilə qızı Dilarəyə həsr edilir.**

Əllərini ver mənə... Uzat mənə əllərini. Uzat, tuta bilim soyuq, zəif əllərini.
Ver mənə əllərini isidim. İsti nəfəsimlə isidim... Uzat mənə əllərini, Ata!
Uzat ki, ürəyimin həsrət oduyla isidim əllərini.
Ver mənə əllərini dartım, qoparım səni əzrayılm əlindən...
Uzat mənə əllərini, övlad qayğısmdan yorulmayan, saçlarıma sığal çəkən əllərini.
Uzat mənə əllərini, Ata!
Çəkim çıxarım səni qaranlıq məzardan. Çıxarım...
Bir vaxt sən mənə deyirdin: "Əlini ver mənə".
Qaytarmaq istəyirəm sənə övlad borcumu, Ata! Ver mənə əllərini.
Ata ürəyinin hərarəti ilə isinən əllərini ver mənə!
Əllərini verə biləydin mənə. Əlindən üzülən əllərim tək qalıb.
Tək! Yetim qalıb əllərim.
Yetim qalan əllərim bir-birinə sığmıb.
Ver mənə əllərini! Ver!

**Gülarə Munis**



Fərəc (ortada) məşq zamanı

# Dilarə atası ilə



**Sənət fədaisi, incəsənət vurğunu Fərəc Nağıyev**

Əbilov adma Mədəniyyət evində vaxtı ilə atamm onlara təqdim etdiyi qovluğu gördüm. Xahişim ilə qovluğu əldə etdim. Üzərindəki atamm rəngli şəkli elə bil işıq saçırdı. Düz deyiblər ki, nəslin kökləri insanm üzünə nur çiləyir. İstər-istəməz insanm üzündə, cizgilərində, yerişində öz əksini tapır. Mənə həmişə deyirlər ki, atama oxşayıram. Sən demə həmin o nurdan mənim dəüzüməçilənib.

Qovluğu əlimə aldıqda keçmişlər kino lenti kimi bir-bir gözümün önündən keçdi. Bir anlığa düşündüm: "Kaş sağ olaydm ata!". Ozümü ələ almağı bacarmaq xüsusiyyəti mənə atamdan keçib. Məndən fərqli olaraq bacım Solmaz xanım emosionaldır. Bunları mən ona nəql etdikdə halı

pisləşirdi. Solmaz xanım həmişə zarafatla deyir ki, onu atam doğub. Bununla o, atama olan məhəbbətini bildirir.

Qovluğu əldə etdiyim günün sabahı Solmaz xanım cərrahiyyə əməliyyatı keçirəcəkdi. Onun qan təzyiqi şəkərə, şəkəri isə qan təzyiqinə qarışmışdı. Buna səbəb 7 iyun 2001-ci ildə "Xalq" qəzetində babam Ağa Musa haqqmda "Milyonçu Ağa Musaya bir küçə adı qismət olacaqmı?" başlığı altmda çıxan məqaləm idi. Bütün bu yaranm dərinliyini ancaq mən və bacım başa düşə bilərik. Çünki üzümüz gülsə də, ürəyimiz qan ağlayır. Artıq yeddi ilə yaxm idi ki, biz iki bacı və mərhum qardaşımız Rauf bu yolda çox çətinliklərlə rastlaşırdıq. Əsas məqsədimiz Ağa Musa Nağıyevi və onun varisi olan atamız Fərəcin admn tarixdə həkk olunmasıdır.

Hər dəfə belə məqalələr dərc olunanda və yaxud televiziya ilə çıxışım zamanı üzümü tamaşaçılara tutub soruşuram: "Axı biz nə istəyirik, özümüz üçün çalışmırıqki?"

Atamm qovluğundakı 1968-ci ildə yazdığı "Spartak" tarixi faciəsinin və qardaşım Rauf ilə birgə yazdıqları "Zamanm hökmü" mənzum əsərinin ssenariləri, "Qaravəlli" meydan oyunu mərasimlərinin tarixindən olan əl yazmaları ilə bərabər çəkdiyi eskizlər diqqətimi cəlb etdi. Eskizlərdə: "Ərköyün oğul" səhnəciyində oğlan uşağımn ulağm üstündə səhnəyə gəlişi, "Kos-kosa" meydan oyunun qəhrəmanlarmm surətləri-hər biri bu gün bir tarix, bir əsərdir. Bunlar bu gün də öz reallığı və rəngarəngliyi ilə diqqəti cəlb edir, təravətlərini itirməyir.

"Şorgöz molla Kərim" tamaşasma çəkdiyi Güləş və Molla, eləcə də xanəndə və Lotu surətləri öz aktuallığmı Fərəcinrəsmlərində bu gün də saxlayabilmişdir.

1970-ci ilin fevralmda atam Azərbaycan tarixi "Meydan oyunları" teatrma həvəskar aktyorları cəlb etmək məqsədilə afişanm eskizini hazırlamış və müdiriyyət tərəfindən təsdiqlənməsinə nail olmuşdur. Həmin eskiz-afişa da bu gün onun şəxsi arxivindədir. Müsabiqənin keçirilməsi üçün Kos-Kosanı, Qız qalası fonunda gözəl rənglərlə çəkmiş, özünəməxsus bacarıqla işləyib, rəsm əsəri yaratmışdır. Belə nəzəriyyələr atamm şəxsi ideyası olub. Atam bu rəsmləri illər ötdükcə, yəni bu gün də dəbdə olacaq formada işləmişdir. Ümumiyyətlə özfəaliyyətdə işləyərkən, əwəllərdə olduğu kimi, gənc istedadlarm aşkar olunub, professional səhnəyə gəlməsində onunböyük əməyi olub.

O, çox həvəskar olub. İncəsənəti özü üçün bir vəzifə kimi qəbul edib. O, səhnə fəaliyyətini sonradan Quba, Sabirabad teatrlarmda davam etdirib. 1940-cı ildə Dərbənd Dram Teatrmda təbliğ və təşviq işlərini davam etdirərək bu teatrda da rejissor, aktyor, tərtibatçı rəssam və eləcə də direktor vəzifələrini icra etmişdir.

Fərəc Nağıyev 1962-1965-ci illərdə indiki Xətai mədəniyyət evində və Əbilov adma mədəniyyət evində bədii rəhbər, Azərbaycan Dövlət Estradasmda isə satirajanrmda çıxış etmişdir. Onun 200 satirik şeirləri ilə bərabər mənzum məzhəkəli hekayələri saya gəlməzdir. Azərbaycan Dövlət Dram Teatrmm rejissoru Adil İskəndərovun təklifi ilə "Xırs quldurbasan" tamaşasmm epiloq və proloqunu satirik şeirlə yazmışdır. 1967-1970-ci illərdə "Qaravəlli" ssenarisini

yazmaqla o, unudulmuş xalq meydan oyunlarının dirçəlişinə səbəb olmuşdur.

Lakin bütün bunlar Fərəcin nəinki yaddaşmda qalmasına, əksinə unudulmasına səbəb olmuşdur.

Fərəci yaxından tanıyanlar uçun bu xatirələr çoxlarında təəssüf hissi oyadır.

**Fərəcin qızı Dilarə**
**Ağamusa**



Qaravəlli səhnəsi,




Afişa Fərəcin tərtibatmda

**Fərəc Nağıyevin yaradıcılıq fəaliyyəti**

1. 1921 "Tənqid-təbliğ" teatrmda sərbəst aktyor addımları.
2. 1922-1926 Azərbaycan Dövlət Dram Teatrı.
3. 1923-1928 Xalqteatrmda aktyor.
4. 1929 "Səyyarkəndli" teatrmdabaş rejissor.
5. 1930 "Türk işçi" teatrmda aktyor:"Küləklər şəhərində" Aşıq; "Yanğm" tamaşasmdaİvan Vasilyeviçrolunda.
6. 1931-1936 Teatr texnikumunda aktyor və rejissor fakültələrində təhsil alıb.
7. 1932 Rejissorluq fəaliyyəti başlayır.
8. 1932-1935 Aşqabad Dram teatrmda rejissor.
9. 1935-1938 "Türk səyyar" teatrmda aktyor.
10. 1936 Rəssamlıq fəaliyyətinə "Qana-qan", "Qanlı səhra" tamaşaları ilə başlayıb.
11. 1937 Türkmənistanda qastrol səfərləri. 12.1937-

1939 Nuxa (Şəki) teatrmda aktyor.

13. 1940-1943 Dağıstanda Dərbənd Dram teatrmda rejissor, rəssam, bədiirəhbər, direktor vəzifələrində.
14. 1944 Teatr texnikumunda qrim üzrə müəllim.
15. 1945-1947 Sabirabad Dram teatrmda bədii rəhbər, rejissor, direktor vəzifələrində.
16. 1948-1952 Quba Dram teatrmda baş rejissor.
17. 1957 Danışıqjanrı üzrə I dərəcəli aktyor.
18. 1958-1960 Bakı Estrada teatrmda satirik; Əbilov mədəniyyət evində II kateqoriyalı rejissor, bədii rəhbər.
19. 1962-1969 Xətai rayonundakı mədəniyyət evində məzhəkəçi aktyor.
20. 1969-1970 Azərbaycan Dövlət Estradasmda məzhəkəçi aktyor.

1970-1973 Bakı Xalq yaradıcılıq evində metodist, rejissor.



Fərəc Nağıyev

**Fərəc Nağıyevin sənədlərinin siyahısı**

1. 1930 Teatr texnikumunda tələbə, hərbi mülkiyyət kompaniyasmda təlimat keçməsi.
2. 1932-1938 Ali Siyasi Maarif Komitəsi sistemində Türk səyyar Kəndli teatrında aktyor.
3. 1936 Teatr texnikumunun rejissor və aktyor fakültələrinin tələbəsi.
4. 1937 Turk Musiqi Dram teatrının tərkibində Türkmənistanm rayonlarma qastrol səfəri.
5. 1937 Bankə balıqkombinatmdamühafizəçirəis.
6. 1937-1939 Nuxateatrmmaktyoru.
7. 1938 Azərbaycan Dövlət Teatr texnikumunu bitirməsi haqqmda.
8. 1938 Teatr texnikumunun qiymət cədvəli. Rejissor və aktyor fakültələrini bitirməsi haqqmda.
9. 1940-1941 Sürücülük kurslarmı bitirməsi haqqmda.
10. 1943 NeftçalaXalqkomissariatı.
11. 1943 Xızı rayonunun hərbi komissarlığmm böyük zabit rütbəsi haqqmda.
12. 1944 Azərbaycan Dövlət Teatr texnikumunda qrim üzrə müəllim.
13. 1945 Sabirabad Dövlət Dram teatrmda bədii rəhbər.
14. 1950 Xalq yaradıcılıq Teatrmm iştirakmm nəticələrinə görə təşəkkürün elan edilməsi haqqmda.
15. 1957 Azərbaycan Mədəniyyət Nazirliyinin I Taarif dərəcəli aktyor təyin edilməsi haqqmda.
16. 1961 Azərbaycan Dövlət Estrada teatrmm aktyoru.
17. 1967 Özfəaliyyət İncəsənət festivalmm nəticələrinə əsasən Fəxri fərmanla təltif edilməsi haqqmda.
18. 1970 Azərbaycan Mədəniyyət Nazirliyinin DTK-nm qərarı ilə II kateqoriyalı rejissor.

19.1970 Xalq yaradıcılıq evində baş metodist-rejissor. 1972 Mədəniyyət işçilərinin Ümumittifaq ixtisasartırma institutunda təhsilini artırması haqqmda.



Zəhrə xanımın uşaqlığı



## Fərəc həyat yoldaşı Zəhra xanım ilə

**Ağa Musa Nağıyevin ikinci dəfnində Fərəc Nağıyevin həyat yoldaşı Zəhrə xanımın iştirakı**

Zəhrə xanım Teymur qızı Dadaşova 4 noyabr 1912-ci ildə Bakı şəhərində İçərişəhərin "Ağşalvarlılar" nəslində dünyaya göz açıb. Ata nənəsi Məsmə xanım kor gözləri təbii otlarla müalicə edib, açarmış. Bu səbəbdən camaat arasmda o, "davatökən" Məsmə xanım ləqəbi ilə tanınardı.

Zəhrə xanımın anası 12 yaşmda ikən babamın istəyi ilə Polşadan qaçırılmışdı. Onların valideyinləri gəmi vasitəsilə ticarət alış-veriş edərdilər. Nənəmin anası milliyyətcə fransız, atası isə polyak olub. Məsmə xanımmillət və din fərqinə görə bu nigaha əvvəlcədən razılığını bildirmir. Buna axı şəriyyət də yol verməzdi.

Belə ki, Zəhrə xanımın anası nağıllarda deyildiyi kimi qırx gün, qırx gecə Məşhədə yol gedir və islam dinini qəbul edir. Məşədi xanım adını aldıqdan sonra Teymur bəylə evlənirlər. Onların səkkiz qızı, bir oğlu olur.

Bu səkkiz qızdan biri də anam Zəhrə xanım olur.

Səkkiz bacı uşaq ikən varlı ailədə böyüyüb kübar tərbiyə aldıqlarından, onların yaşayış tərzi də dəbdəbəli və kübarcasına olub. Belə ki, onların paltarlarının ətəkləri mirvarilərlə bəzədilər, yaxalarıdan isə qızıl beşliklər asılardı.

Məsmə xanımla ata nənəmiz Məşədi Balaca xanım müalicə zamanı dostlaşmışlar. Dostluğu daha da möhkəmləndirmək məqsidilə anam Zəhrə xanım dörd yaşmda ikən, onu atama ad etmişdilər.

1928-ci ildə Zəhrə xanım milyonçu Ağa Musanın ocağına gəlin gəlir.

Fərəc gözəl ailə başçısı olub, həyat yoldaşı Zəhrə xanımı sözün əsil mənasmda "gözünün üstündə" saxlayıb. Tikiş tikməyə həvəskar olub və anamı qısqandığından onun paltarlarını özü tikərdi.

Yeni tamaşanın premyerasına və yaxud hər hansı bir məclisə gedəcəksə, Fərəc həyat yoldaşı üçün gözəl don tikər və ona uyğun, çox zaman isə həmin parçadan ayaqqabı da sifariş edərdi ki, xanımının gözəlliyi kimi geyimi də yeganə olsun.

Gözəllik mücəssəməsi olan Zəhra xanım, sözün əsil mənasmda səkkiz qızın pərisi olub. O, qeyrətdə də yeganə idi. Bu ona daha çox gözəllik verirdi. Fərəc kişi onu çox ərkəsöyün saxlayıb. Bütün bunlara baxmayaraq, Zəhra xanımı heç nə dəyişmirdi. O, sadə bir insan, sadiq həyat yoldaşı, beş övlad böyüdən ana, Ağa Musa ocağında gözəl bir gəlin olub.

Anam ata evində ziyalı ailədə tərbiyə aldığmdan, filarmoniyadabacıları ilə birlikdə fortopiano dərsi də alıb. Zəhra xanım Azərbaycanda çadrasmı atan qadmlarm birincilərindən olub. Fərəc kişi incəsənət işçisi olduğundan, 1930-cu ildə martm 8-də Zəhra xanımm çadrasmı başmdan açmışdı ki, müasir həyata qoşulsun. Odur ki, anam həmişə deyərdi: 8 mart əsl mənim bayramımdır. Çünki, məhz bu gündə mən çadraya "daloy" demişəm.

Amma anam uzun müddət çadranm həyasmı unuda bilmədiyindən, başı heç vaxt örpəksiz olmazdı.

O, Ağa Musa ocağmm gəlini olmaqla öyünər, yeri gələndə bunu fəxrlə vurğulayardı.

1931-ci ildə Bakıda Dağüstü parkda Kirovun heykəlinin ucaldılması ilə əlaqədər xəbərdarlıq edilir ki, hər kəs qohumlarmm qəbirlərini Çəmbərəkənd qəbiristanlığmdan çıxarıb, başqa yerdə dəfn etsinlər. Sonradan kimsəsiz qəbirlər yerlə yeksan olunmuşdu.

Atam Fərəc incəsənətə xidmət etdiyindən, kapitalist nəslinin vərəsəsi kimi və həm də soyadmm sürgünü olduğundan, bütün bunlarm təşvişini üzərində hiss etdiyindən, bu işdən boyun qaçırır.

Ağa Musanm qardaşı Ağa Əlini meydanda tək görən Zəhra xanım onunla birlikdə milyonçunun nəşini bir qutuya yığıb, vaxtı ilə Ağa Musanm Fərəc üçün hədiyyə olaraq tikdirdiyi binaya, keçmiş Verxni-Priyutski, sonradan Ketsxoveli, hazırda Ş.Əzizbəyov adlanan 28 saylı binaya gətirirlər.

Hələ 1919-cu ilin martm 4-də Ağa Musa dünyasmı dəyişərkən, Kərbəlada oğlu İsmayılm yanmda dəfn olunmasmı vəsiyyət etmişdi. Dövrün gərginliyi və irnkansızlıq ucbatmdan Ağa Musa Çəmbərəkənd qəbiristanlığmda dəfn olunarkən, baş daşı əmanət qoyulur ki, imkan daxilində onun vəsiyyətinə əməl ediləcək.

1931-ci ildə baş verən bu gözlənilməz hadisə ilə əlaqədar Ağa Əli düşünür ki, bu fürsət İlahidən onun əlinə düşüb. Bu dəfə artıq o, mərhumun vəsiyyətinə əməl etmək üçün real yollar aramağa başlayır.

Din xadimləri Ağa Musanm nəşinin evdə saxlandığmı islam adətinə zidd olduğunu bildirdikdə, Ağa Əli belə qərara gəlir ki, bu dəfə də onu torpağa əmanət kimi tapşırsm. Halbuki, indi maddi imkan heç buna da imkan vermirdi. Qardaşı Ağa Əlini təəssüfləndirən o idi ki, Ağa Musanm vəsiyyətini yerinə yetirməmiş qalır.

Bakmı bəzəyən binalarm müəllifi olan bir insanm 35 yoxsul ailənin vəsiyyətinə əməl edib, onlarm dəfnini Kərbəlada şəxsi vəsaiti hesabma keçirən, Şollar suyunun çəkilişində məbləğin yarısmı ödəyən bir şəxsin vəsiyyəti həyata keçə bilmir və bu insanmnəşi qəbiristanlıqları gəzir.

Məşhur xeyriyyəçinin ikinci dəfninin məsuliyyətini Ağa Əli ilə Zəhra xanım üzərinə götürürlər. Zəhra xanım zinyət əşyalarmı Ağa Əlinin əli ilə "Torqhuseyn" də (komision mağazasmda) satdırır. Bu pulla onlar Ağa Musanm nəşini Biləcəri "Proparka" qəbiristanlığmda həmin əmanət başdaşmı üzərinə qoymaqla dəfn edirlər.

Zəhra xanımm satdırdığı zinyət əşyaları vaxtı ilə Ağa Musanm Fərəcə bağışladığı hədiyyələr idi.

Sonralar kapitalizmin kölgəsi başımızm üstünü daha çox aldığmdan, Ağa Musa Nağıyevin məzarmm taleyi didərginlik həyatı yaşadı. Belə ki, vəfatmdan 80 il (1919-1999) keçməsinə baxamayaraq, neft milyonçusunun məzarı yenə də Kərbəla yolu gözləməli olur.

## Nə olub onun günahı?

Ağa Musa Nağıyevin xalqma, millətinə həsr etdiyi şərəfli ömür yoluna nəzər salarkən düzü, qəribə hisslər keçirirsən. Neçə-neçə on illiklərdir ki, bu böyük insanm xeyirxahlığmı onun "günahı" kimi qələmə verirdilər. İndiyədək heç kəsə məlum deyildi ki, xeyirxah işlər görən, lakin uzun müddət "xəsis" kimi qələmə verilmiş Ağa Musa milyonçular arasmdabirinci olmuşdur.

Qeyd etdiyim bu fakta nə Zeynalabdin Tağıyevin, nə Şəmsi Əsədullayevin, nə də Murtuza Muxtarovun tərcümeyi halmda rast gəlmək olmaz. Atalar düz deyib ki, igidin adı çıxmca, cam çıxsa yaxşıdır. Bu sözlər eynilə Ağa Musa Nağıyevə aiddir.

Tarix boyu Zeynalabdin Tağıyev ideya vericisi olubsa, maliyyə vəsaitinin çox hissəsini öz üzərinə götürən Ağa Musa Nağıyev olmuşdur.

Bütün bu xeyirxah işlərə nəzər salanda, bir daha Azərbaycanm arxitekturasma 98 bina bəxş edən ilk və son milyonçu məhz Ağa Musanm olduğunun şahidinə çevrilirik.

Öz sözləri ilə desək "Atam-atam heç nəyi özü ilə aparmayıb, hamısmı qoyub gedib". Zər qədrini zərgər bilən kimi, pulun qədrini bilən insan Ağa Musa kimi milyonçu ola bilərdi.

Nəhayət vəfatmdan 80 il, anadan olmasmdan 150 il keçsə də onun etdiklərinə qiymət verən tapıldı. Bu şəxs xeyriyyəçi,adi bir İnsan - Hacı Əvəzdir. Atasının bir cümləsi "Oğul, Ağa Musanm qəbrini əbədiləşdirmək lazımdır" - deməsi, Hacı Əvəzi qəti qərar qəbul etməsinə gətirib çıxartdı. Bir neçə il idi ki, bu sahədə böyük işlər görmüş Hacı Əvəz nəhayət, 1998-ci ilin iyul aymm 23-də 80 il tapdaq altmda və gözü yolda qalmış qəbrin yerinin dəyişdirilməsi prosesinə başladı.

İndi demək olar ki, o, son mənzilə çatdı. Bununla Ağa Musanm ölməzliyi sübuta yetdi. Bəlkə onun xalqı üçün

qoyduqlarma görə ruhu səmalarda gəzir, qəbri daimiləşdirilmirdi?

23 iyul 1998-ci il bizim üçün, onun az qalmış nəslinin nümayəndələri olan nəvələri Dilarə, Rauf və Solmaz üçün həm kədərli və həm də sevinc dolu bir gün oldu. Ağa Musanm mənəvi haqqı olan bu günün arzusunda çoxdan olduğumuz üçün kədərlənirdik. Ən əsası buna Ağa Musanm mənəvi haqqı olub. Sevincimiz ona görə idi ki, dünya hələ xeyirxah insanlardan xali deyil. Əgər belə insanlar varsa deməli həyat var, həyat isə əbədidir. Tarix təkrar olur.

Üzündən nur tökülən bu şəxs - Hacı Əvəz imkanmdan kənara çıxaraq bu nəhəng işi öz üzərinə götürmüşdür. Bu gün Ağa Musa Nağıyevin məzarı üstünə qoyulmuş İsmailiyyə saraymm kompleksi simvolik xarakter daşıyır. Bu bizim və bizdən sonra gələn nəsillərin qəlbində hər zaman Ağa Musanm və eləcə də vaxtsız dünyasmı dəyişmiş oğlu İsmayılm xatirəsini yaşadacaq.

Nağıyevlər ailəsi admdan Hacı Əvəzə öz təşəkkürümüzü və dərin minnətdarlığımızı bildirib, onun alicənablığı qarşısmda baş əyirik.

Azərbaycan oğlunun bu hərəkətini təsisçi deyil, xeyriyyəçi adlandırsaq bu daha doğru səslənər. Arzu edirik İlahi belə oğullarımızı başımızm üstündən əskik etməsin.

**Ağa Musa Nağıyevin xalqa xidmət yolunda çatışmayan cəhəti...**



H.Z.Tağıyevin məzarı üstə (Soldan ikinci - nəvəsi Səfiyə xanım)

Ağa Musa Nağıyev xeyirxahlığı, ziyalı təfəkkürü ilə zəmanəsinin mesenatları arasmda özünəməxsus yer tutanlardandır.

Kasıb ailədə dünyaya göz açıb, boya-başa çatan Ağa Musanm çəkdiyi əzab və əziyyətlər Allah-taala tərəfindən qiymətləndiriləndə, onun heç ağlma da gəlməzdi ki, belə məşhurlaşacaq və bu məşhurluq sonda ona və ailəsinə sonsuz bəlalar gətirəcək.

Qənaətçiliyinəticəsində o, 11 milyonçudanbirincisi oldu.

Tikililər tikdi, imkansız uşaqlarm təhsil haqlarını ödədi, təhsil ocaqlarmda himayədarlıq etdi, kasıblara əl tutdu, şəxsi vəsaiti hesabma gücü çata bilməyənlərin vəsiyyətlərinə əməl edib Kərbəla dəfnlərini təşkil etdi. Saldığı buruqlara görə və neft sahibkarı kimi dünya miqyasmda görkəmli yer tutdu.

Görünür bu imiş onun çatışmayan cəhəti...

Vəfatmdan 80 il sonra ona Kərbəlanı vətəni Bakı, doğma Biləcəri əvəz etdi. Bəlkə də buna səbəb irəlidə sadaladığım etdikləri idi? Ruhunun rahatlıq tapdığı gün 23 iyul 1998-ci il tarixi Ağa Musanm dünyaya ikinci gəlişi oldu.

Azərbaycanm gələcəyini düşünən, var-dövlətini vətəni üçün qoyub gedən xeyriyyəçi admm məhz onun boyuna biçildiyini sübut edən Ağa Musa Nağıyev günümüzün "milyonçularma" örnək olmalıdır. O, milyonlarmı vətəninin çiçəklənməsinə və xalqının maariflənməsinə xərcləməkdən usanmadı.

İnanıram ki, Ağa Musa Nağıyevin etdiklərini zaman keçdikcə xalq özü qiymətləndirəcək.

Keçmişimizə hörmətlə yanaşmaq, Azərbaycanm tarixini, onun dəyərli səhifələrini övladlarımıza, gələcək nəslə ötürmək hər birimizin borcudur.

## Tarix yaradan insan

Doğru deyiblər ki, dünyaya göz açmağm özü də bir xoşbəxtlikdir. Bəlkə bu belədir, bəlkə də yox. Hər halda anadan olan hər birimiz beşik başmdan axirət dünyasının astanasma qədər bir ömür hekayəti yaşayırıq. Bu dünya isə yarandığı gündən təzadlar üstündə qərar tutub. Bir tərəfdə sevinci, toyu, nişanı... Bir tərəfdə kədəri, qəm yükü, dözülməz dərdləri... Hamısı Yaradanm xəlq etdiyi insanm dünyaya gəldiyi gün qismətinə yazılan tale payı... Bəzən Allahm yazdığı qisməti pozan da, onu əksinə çevirib məhvə sürükləyən də biz insanlar oluruq. Yaradana qarşı çıxıb, yer üzündə müharibələr, münasibətlər, qətllər törətməkdən də, tarixdə əməlləri ilə iz qoyan şəxsiyyətləri, dahi insanları unutdurmaqdan, üstünə qara kölgə salmaqdanbelə çəkinmirik.

Bu dünyanm xeyirxahı da biz, qəsbkarı da...

Kitabda söhbət açacağımız bu dahi, xeyirxah insanm ömür hekayəti isə hər bir azərbaycanlıya, insanlığa nümunə və örnəkdir. Onun heç də asan olmayan yalnız öz xalqma, millətinə həsr etdiyi ömür yolundan hər kəs pay götürə bilər.

Dünyaya gəldiyi gün bir ailə, qohumlar, yaxmlar sevinmişdilər. Gözaydmlığı vermişdilər atasma, anasma... Admı Musa peyğəmbərin

şərəfinə Ağa Musa qoydular. Yaşmı isə Allah versin dedilər. Kiçik yaşlarından zəhmətlə, aim təri ilə çörək pulu qazanan Musa ocağının təməli halallıqdan yoğrulmuşdu. Allah onun qarşısmda yeni yollar açırdı... Ağa Musa Nağıyev öz ağlı, bacarığı, xeyirxahlığı ilə qısa zaman kəsiyində məşhurlaşdı, adı dillər əzbəri oldu.

Onun üçün millət, vətən, azərbaycanlı, torpaq anlayışları çox müqəddəs idi. Ona görə də ağılla və aim təri ilə qazandığı pulları yalnız xalqının rifahmm yüksəlməsi, Bakmm arxitektura cəhətdən dünyanm ən gözəl şəhərlərindən birinə çevrilməsi yolunda sərf etdi. Qarşısma qoyduğu ali məqsədinə də çatdı. Uzun illər keçsə də, Ağa Musa Nağıyevin tikdirdiyi, artıq

Bakmm tarixinə çevrilən 98 bina paytaxt arxitekturasmm gözüdür. Ağa Musa əməllərilə öz admı əbədiləşdirib. Təsadüfı deyil ki, xaricdən Bakıya qonaq gələn insanlar Ağa Musa Nağıyevin tiktirdiyi binalar qarşısmda ayaq saxlayır, onlarm tarixi ilə maraqlanırlar.

Görəsən biz necə, öz tariximizi onlara çatdırıb, ətraflı məlumat verə bilirikmi?.. Yox, min təəssüf ki, yox. Çünki hələ bizim böyük əksəriyyətimiz bu binaları Ağa Musa Nağıyevin tikdirdiyindən xəbərsizik. Əslində isə o binaların hər birinin üzərində Azərbaycan, ingilis, əgər mümkünsə başqa dillərdə də lövhə qurulmalıdır. Həmin lövhədə Azərbaycanm böyük oğlunun, neft milyonçusunun qısa da olsa həyat və fəaliyyəti öz əksini tapmalı, binanm tikilmə tarixi qeyd olunmalıdır. Təəssüf ki, bizlər heç də çətin olmayan bu işi müşkülə çevirmişik. Bu gün Bakmm hər qarışmda tikdirdiyi 98 binada Ağa Musa Nağıyevin narahat ruhu dolaşır. O nə edibsə, yalnız və yalnız bu millət, bu xalq üçün edib. Ancaq bu gün Bakıda onun admı daşıyan bir küçə, bir məktəb belə yoxdur. Axı onun işi təkcə binalar tikdirməklə tamamlanmırdı. Xalqının maariflənməsində, qızlarm təhsil almasmda, təhsil ocaqlarınm tikilməsində Ağa MusaNağıyevin müstəsna xidmətləri olub.

Deyirlər ki, tarixini unutmayan, yaşadan millət, xalq elə tarixin ən böyük minnətdarlığma layiqdir. Ağa Musa Nağıyev də Azərbaycan tarixinin canlı bir parçasıdır. Onun etdikləri dünən də, bu gün də, sabah da tariximizin daş yaddaşmdan boylanacaq. O tarix ki, həmin binalara baxdıqca qürur hissi keçiririk. Ancaq qürur hissi keçirdiyimiz tariximizin daş yaddaşmı çoxdan, lap çoxdan qan yaddaşımızda yaşatmağm vaxtıgəlibçatıb.

Ağa MusaNağıyev barədə düşünərkən örnək olacaq çox şeylər gözlərimiz qarşısmdan gəlib keçir. Bu gün adma iş adamı, biznesmenlər deyilən nə qədər "milyonçular" var. O milyonçular ki, milyonları yalnız öz mənafeinə xərcləyirlər. Tikdirdikləri saysız-hesabsız, bərli-bəzəkli villalar icarəyə

verilir, ya da şadlıq evləri "ucaldırlar". Düşünürsən ki, əgər onlar Ağa Musa Nağıyevin xeyirxahlığmm mindən birini etsəydilər, hər şey başqa cür olardı.

Bu gün Ağa Musa Nağıyev kimi xeyirxah insanlara, milyonçulara ehtiyac çoxdur. Onun kimilər isə şablonçuluq olsa da, yüz ildən bir doğulurlar.

Oxucularımıza təqdim edəcəyimiz bu kitab, böyük xeyriyyəçi Ağa Musa Nağıyevin şərəfli, zəngin, ləyaqətli, halal eyni zamanda da çətinliklərlə və acılarla dolu həyat yolundan, fəaliyyətindən yalnız ümmanda bir damladır.

Ümüd edirik ki, yaxm zamanlarda xeyirxah insan, neft milyonçusu, Ağa Musa Nağıyevin Azərbaycan xalqı qarşısmdakı misilsiz xidmətlərinə qiymət veriləcək. Ən azı ona görə ki, bu onun haqqıdır.

İnsanlar bu dünyada adları ilə yox, əməlləri ilə yaşayırlar, eyni zamanda adlarını da tarixə əbədi yazırlar.

Xalqımızm böyük oğlu Ağa Musa Nağıyev kimi...



Ağa Musa Nağıyev Mərdəkan bağında
(indiki mədə-bağırsaq Abşeron sanatoriyası)

**ƏFSANƏVİ İNSAN**

Elə insanlar olur ki, etdikləri xeyirxah işlərə və yaxşılıqlara görə ölməzliyə "vəsiqə" alırlar. Ağa MusaNağıyev belələrindəndir.

O, millətinin naminə və xalqının inkişafı uğrunda varlığmdan keçən insan olmuşdur. Sözü bütöv olan Ağa Musa Nağıyev xalqma olan məhəbbətinə görə ağılasığmaz hərəkətlərə belə əl atıb.

İndi onun keçdiyi həyat yolu, bu gün yetişməkdə olan gənc nəsil üçün nümunədir.

Ağa Musa əfsanəvi insandır. Əfsanə isə lay-lay kimi heç vaxt unudulmur, əksinə o nəsildən nəsilə keçir və yaşayır. Ağa Musa tarixi də buna bənzərdir.

Tarixi faktlara əsaslanaraq Ağa Musanm nə kimi xüsusiyyətə malik olmasının şahidi oluruq:

1898-ci ildə Ağa Musa Nağıyevin əmlakının dəyəri 334.560 rubla çatmışdı (Muradəliyev səh.142);

1904-cü ildə Uzaq Qərbə yönəldiləcək yolun təmiri üçün 500 rubl ianə verib;

1902-ci ildə Bakı neft istehlakçılarmm iştirakı ilə keçirilən tacirlərin müşavirəsində məhz Ağa Musa Nağıyev əl üsulunun domna ilə əvəz olunması fikrini irəli sürüb (Rüstəmbəyov"Neftişi" 1902N1);

1905-ci ildə Tiflisdə yaradılacaq mədrəsənin tikilməsi üçün ianə verib (Kop.1905 N29);

1898-ci ildə Bakı politexnikumunun tikintisinə 100.000 rubl ianə verib. (Kop.1898 N87);

1898-ci ildə yaşlı müsəlmanlarm təhsil kursları keçməsi üçün 50 rubl ianə verib;

1896-cı ildə Tağıyev teatırmda Ağa Musa Nağıyevin himayəsi ilə "Dilin bəlası" və "Qırt-qırt" tamaşalarmm premyerası zamanı Nəriman Nərimanova qiymətli almaz daşlı qızıl üzük, Ağası Zeynalova isə qızıl qol saatı bağışlamışdır.

Bütövlükdə bu zinətlərin qiyməti 200 rubl təşkil edib (Kop.1896 N49);

1887-ci ildə Ağa Musanm iri neft mədənləri yerləşən Sabunçu, Ramana və Balaxanıdakı çənlərin sayı 65-ə, buxar qazanlarmm sayı 91-ə, buxarmaşmlarınm sayı isə 35-ə çatmışdı;

512 fəhlə işləyən neft istehsalı zavodu 8.060.027 pud neft istehsal edirdi (Sborişe "Fəhlə hərəkatı" I və II hissə);

Ağa Musa fəhlələrinə toy edən, fərqlənən işçilərinin təhsil haqqmı ödəyən, onların savadlanmasma sevinən olub.

Əbəs yerə deyil ki, yeri gələndə Ağa Musa koloriti ilə XIX əsrin axırı, XX əsrin əvvəllərindəki milyonçulardan fərqli fiquraya bənzədilir.



A.M.Nağıyevin məzarı üstə - Hacı Əvəz-xeyriyyəçi, Dilarə, Nailə Tağıyeva, Solmaz, Gülarə Munis, və Mahcamal

1998-ci il iyulun 23-də A.M.NAğıyevin IV dəfə nəşinin qəbrə köçürülməsi
Soldan birinci - Rauf Nağıyev

**Xalq iiçiin ömrünü şam kimi əridən insan**

Azərbaycan xalqı uzun illərdən bəridir ki, xeyriyyəçi oğulları ilə başqa millətlərə nümunə olub. Ancaq bu ölkəni ağuşuna almış bolşevik istilası millətimizin say-seçmə oğullarmı təkcə uzaq Sibirdə sürgünlərdə, repressiyalarda məhv etməyib, eyni zamanda insanlarm xeyriyyəçilik əməllərinə də sahib çıxmaq iddiasmda olub.

Necə ki, məşhur neft milyonçusu Ağa Musa Nağıyevin xalqımız üçün etdikləri barədə uzun illər danışmağa icazə verməyiblər. Halbuki onun təkcə xeyriyyəçilik sahəsindəki fəaliyyəti bəs edər ki, adı şanlı tariximizə qızıl hərflərlə yazılsm.

İnanıram ki, bundan sonra onun həyat və fəaliyyəti daha dərindən və ciddi araşdırılacaq, bu dahi şəxsiyyətə layiq olduğu qiymət veriləcək.

Bu məşhur xeyriyyəçidən günümüzə çoxlu yadigarları gəlib çatıb. Onlarm içərisində yüksək zövq ilə inşa etdirib tikdirdiyi binalarm sayı yüzə çatır. Ağa Musa Nağıyev hər binanm tikintisi zamanı tanmmış memarlarm layihəsindən istifadə olunmasma qərar verib. Elə bu səbəbdəndir ki, onun tikdirdiyi binalar Azərbaycan memarlığmm qızıl fonduna daxil edilib.

Sovet dövründə dərc olunan yazılar isə həmişə milyonçunun xeyriyyəçilik fəaliyyətinin üzərinə kölgə salmağa xidmət edib. Kommunist ideologiyasmm əsas siyasəti xalqı üçün əvəzsiz işlər görmüş milyonçunu gələcək nəsillərin gözündə mənfi obraz kimi yaratmağayönəlib.

Ağa Musa Nağıyey inqilabdan əvvəlki Bakmm memarlıq simasmm formalaşması üçün böyük enerjisini və milyonlarmı xərcləməyə heç zaman xəsislik etməmişdir.

Təəssüf ki, biz bu güclü və təpərli, sözükeçən şəxsiyyətin fəaliyyətini, doğma xalqı üçün gördüyü işləri hələ dəyərincə qiymətləndirməmişik.

Hələ bu günə qədər Ağa Musa Nağıyevin həqiqi qiyməti verilməyib. So vet hakimiyyətinin o zamankı xeyriyyəçilərə münasibəti aydm idi. Bəs indi bizə nə olub, görəsən, indi nədən çəkinirik? Bəlkə yenə

sovetlər bu işləri həyata keçirməyə mane olur? Bakmm heç bir küçəsinə onun adı hələ də verilməyib, xatirə lövhəsi asılmayıb, tikdirdiyi binalarm üzərinə onun müəllifi barədə heç bir yazı yoxdur.

Mənsəb sahibləri ötür-ötür oyunlarmda Nağıyevə həqiqi qiymət verməkdən yaxalarmı kənara çəkiblər. Ancaq xalqı üçün ömrünü şam kimi əridən şəxsiyyətlərin gerçək mahiyyətini Azərbaycana tanıtmaq lazımdır.

**Xanoğlan ƏHMƏDOV,**
**"GeopolitikaXXIəsr**
**qəzetinin baş redaktoru**

## Azərbaycan sənayesində milli burjuaziya

Azərbaycan yeyinti sənayesində balıqçılıq və balıq məhsulları istehsalı mühüm yer tutmaqla həm də bu sənaye sahəsi fəhlələrin sayma görə ölkəmizdə neft sənayesindən sonra ikinci yerdə gedirdi.

1906-cı ildən etibarən balıq sənayesində yerli kapital axmı xeyli güclənmişdi. Ağa Musa Nağıyev balıq vətəgələri üzrə hərracda külli miqdarda kapital qoymaqla ən iri vətəgələri ələ keçirə bilmişdi. Bundan irəli gəlir ki, "Kür-balıq" sənayesində Ağa Musanm balıq vətəgələri çoxluq təşkil edirdi.

O vaxtlar hətta 1940-1943-cü illərdə necə olmuşdusa, Səlyanda "Bankə" deyilən balıq vətəgəsində Fərəc mühafizədə "vəzifədə" olub.

Neftçıxarma və neft emalı sahəsində XIX əsrin 70-ci

illərində Ağa MusaNağıyev çox şöhrət tapmışdır. 1900-cü ildə onun istehsal etdiyi neftin miqdarı 7,5 milyon puda çatmışdır.

1908-ciildəRamanadakımədənlərində621 fəhlə, 1909-cu ildə Sabunçuda 690 fəhlə, 1910-cu ildə onaməxsus olanneft mədənlərində 634 fəhlə işləyib.

1904-1913-cü illərdə Azərbaycanda neft sənaye sahibkarlarmdan yalnız ikisi: Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev iri sənaye sahibkarları sırasma qatılıb. İstehsal həcminə görə ən böyük neft email zavodları da onlarm ikisinə məxsus olub.

Ağa Musa Nağıyevin 600 fəhləsi olan zavodunda 1906-ci ildə 3 milyon 741 min pud təmizlənmiş kerosin və 7 milyon 494 min pud neft qalığı istehsal edilib.

P.S. Bu materialları arxiv sənədlərinin toplusundan istifadə edən Universitetin tarix elmlər namizədi-dosenti Zoya Nuriyevanm "ASMB" başlıqlı kitabmdan götürmüşəm.

Kitabı mənə təqdim edərkən Zoya xanımm yazdığı avtoqraf:

"Bu kiçik kitabda böyük əksilər tapmış, haqqmda böyük - böyük kitablar yazılmağa layiq olan, həyatmı, əməyini vətəninin, millətinin gələcəyinə fəda edən, hələ layiqli qiyməti olmayan Azərbaycanm görkəmli, tanmmış milyonçu oğlu Ağa Musa Nağıyevin nəvəsi Dilarə xanıma babasmdan kiçik xatirə əlaməti olaraq hədiyyə edirəm" - sözləri Ağa Musa Nağıyevin xeyriyyəçiliyinə vurulan böyük möhürdür.



Nəvələri Dilarə və Solmaz A.M.Nağıyevin məzarı üstə (2000-ci il)





A.M.Nağıyevin məzarı üstə Cəmilə, Dilarə və Fərəh (Cingizm qızı)

**AĞA MUSA NAĞIYEVİN XEYRİYYƏÇİLİYİ HAQQINDA**

Mədənlərdə 800 fəhləni işlə təmin edib, maddi rifahmı yaxşılaşdırıb, əməkhaqqı verib, dolandırıb.

35 yoxsul ailənin vəsiyyətinə əməl edərək, onlarm meyidlərini öz vəsaiti hesabma Kərbəlada dəfn etdirib.

Hər il 25 azərbaycanlı qızmm təhsil haqqmı ödəyib.

Realm məktəbi də (İqtisad Universitetinin binası) Ağa Musa Nağıyevin vəsaiti hesabma tikilib. Məktəbin Fəxri üzvü olub və eyni zamanda məktəbə himayədarlıq da edib.

Şollar suyunun çəkilməsində o, Hacı Zeynalabdin Tağıyev ilə çiyin-çiyinə verib, yarıbayarı vəsait xərcləyib.

İsmailiyyə (Elimlər Akademiyası) kimi sarayı məhz xeyriyyə məqsədi ilə tikdirib, "İlk xeyriyyə Cəmiyyəti" adlandırıb.

Pullarmı qumara uduzub, evlərini ucuz satan axmaq adamlardan o təcili satışa qoyulan evləri alar, sonra da ağıllı hərəkət edib, bu evlərdən gəlir mənbəyi kimi istifadə edərək dövlətini artırardı. Başı qumara qızışan birinin evini 30 min manata satdığmı görüb, 20 minə danışaraq Ağa Musa alır.

Qumarda əli gətirən həmin adam, oradaca Ağa Musaya 20 min manatı qaytarıb evini tələb edəndə, Ağa Musa deyir: mən sən ağılda

deyiləm ki, bu qiymətə ev satım. Mən bu binanı 70 min manata satıram, istəyirsən al, istəmirsən xoş gəldin.

AğaMusa biznesiləbeləməşğulolub.

O təkcə gəlir mənbəyi məqsədilə deyil, xeyriyyə məqsədilə binalar tikdirib. Məsələn: öz adma xəstəxana, "Ana və Uşaq Mühafizə İnstitutu" (xəstəxana), Sabunçuda poliklinika, E.Əfəndiyev adma Xətai rayonunda 2-saylı xəstəxana, Pirşağı qəsibəsində "Əlillər üçün uşaq evləri", "Astoriya" və "Yeni Avropa" mehmanxanaları, Xaqani küçəsində "Qış evi" (indiki Zabitlər evi), həmin küçədə 47 saylı bina Gəlir evi, ilk poçt və rabitə binası (hazırda Azərbaycan prospektində yerləşən Rabitə və İnformasiya Texnologiyalari Nazirliyi), Zabitlər evinin binası və sair...

O, hədər yerə pul xərcləməyi sevməyib. İlk dəfə lotular tərəfindən Qubernatorun sifarişi ilə oğurlanarkən, ölümündən qorxmayıb, onlarla alver edib. Ondan istənilən miqdarı tələb edərkən, yarısmı verməklə canmı qurtarıb və deyib:

"Əgər məni öldürsəniz, heç nə almayacaqsmız. Yaxşısı budur təklif etdiyinizin yarısmı aim və Allahmıza şükür edin".

Onun tikdirdiyi binalardan hal hazırda: "Avropa" mehmanxanasmda Rusiyanm "LukOyl" neft şirkəti, "İsmaliyyə"də elm ocağı, AzNeftin binasmda - Azərbaycan Dövlət Neft Şirkəti, keçmişdə İçtimai İclaslar keçirilən binada isə indi Xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi yerləşir.

28 May küçəsi ilə yol boyu 10-dan artıq binalarmdan uzun müddət Şaxnoviç adı ilə məşhurlaşmış mağazanm yerləşdiyi "Gül passajı" binasmdan indi nə niyyət ilə istifadə edilir?

Ağa Musa əlil uşaqlara yardım edən «Uşaq bağçası» xeyriyyə cəmiyyətinin həqiqi üzvü olub, Şamaxıda tikiləcək realm peşə məktəbinin inşaatı üçün vəsaitin toplanmasmda fəal iştirak etmişdir. Oğlu İsmayılm ağır xəstəlikdən yaxa qurtara bilməməsi, onun xeyriyyəçilik hisslərinin daha da artmasma səbəb olmuşdur. Belə ki, o, uşaq ölümü ilə mübarizə aparan «Bakı cəmiyyətinə» küllü miqdarda pul köçürmüşdür.

Bakıda tikilən «Körpələr evinin» (indiki Bakıxanov küçəsi 37) binasının yarımçıq qalmış inşasmı başa çatdırmaq üçün Ağa Musa küllü miqdarda vəsait ayırmışdı.

Ağa Musa vərəmlə mübarizə aparan «Qafqaz Cəmiyyəti» nin də fəal üzvü olub.

Belə bir insanm adma indiyədək nə bir küçə, nə də bir xatirə lövhəsinin olmaması çox ağrılıdır. Necə unutmaq olar ki, XİX əsrin əvvəllərində Nağıyevlər, Tağıyevlər, Əsədullayevlər kimi şəxsiyyətlər mənəviyyatımızı qorumaqla bərabər, bütövlükdə dövlətimizi qoruyublar.

Ağa Musa Nağıyevə «Xatirə lövhəsi>>nin vurulması və küçələrdən birinə admm verilməsi üçün əlaqədar dövlət orqanlarma ünvanlanan müraciətlərim indiyədək öz həllini tapmayıb.

Bəs o kişinin etdiklərinə nə vaxt qiymət veriləcək?

Onun etdiyi xeyriyyəçiliyi nə vaxt anılacaq?

Düşünürəm ki, neftdən gələn gəlirdən Nağıyev, Tağıyev və Əsədullayev kimilərə qızıldan heykəl də qoyulsa, onlarm qoyduqları bünövrənin və Ağa Musanm tikdirdiyi 98 binanm xəcalətindən çıxmaq olmaz.



Tikdirdiyi binalarmm üzərindəki möhür (venzel)

**Ağa Musa maariflənməyə vəsait ayırmaqla bərabər azarkeşlik də edib**

Bir qadm keçmişdə belə bir hadisənin şahidi olub:

Ağa Musa yoxsullara əl tutan olub. Qadmm həyat yoldaşı erkən yaşlarda dünyasmı dəyişir. Kiçik yaşlı uşaqlarmı necə dolandıracaq fikri onu rahat buraxmadığı zaman, Ağa Musa ona təklif edir ki, ayda sənə bir araba ərzaq nisyə verəcəyəm, satıb, qazancmı çıxıb, borcunu qaytararsan. Sonrayenə mal apararsan. Beləliklə, bu alver qadma bir az kömək olur. Günlərin bir günü mal ardmca gələrkən, qadm arabaçıya verəcəyi pulun evdə qaldığmı bildirib, Ağa Musadan bir abbası borc istəyir. Ağa Musa abbasmı verməkdən imtina edir. Qadmm ona daha nisyə malm verilməyəcəyindən qorxduğunu görən Ağa Musa deyir:

əwəla evdən çıxanda ehtiyatmı tut, heç kimə arxalanma, sonra da ki, qəpiyinin qədrini bil ki, hər dəfə borc üçün kiminsə üstünə getməyə adət etməyəsən.

Qurani Kərimdə belə bir ayə var:

- Sənə verilən ömür paymı yaşamaq özündən asılıdır. Dünya gəlir, dünya gedir...

Vaxtı ilə Ağa Musa da deyirmiş: insanlar vara gəlir, amma dar ayaqda adama əl uzatmır.

Ağa Musa «İsmailiyyə» binasının yan fasadlarmda qızıl hərflərlə Həzrəti Əlinin müdrik sözlərini yazdırmışdır: «İnsan yalnız zəhmətlə ucalar, istəyinə nail ola bilər», «İnsanı insan edən zəhmətdir», «İnsan beşikdən qəbr evinədək oxumalıdır», «Elm Çində olsa da, ardmca gedin», «Müsəlmanlar əsrimiz sizinlə ölür, övladlarmızı öz əsrləri üçün hazırlaym».

Bu kəlamları seçməkdə, Ağa Musa öz müdrikliyini göstərmişdir. Çünki o, zəhmətlə ucalsa da, savadsızlığm ucbatmdan əziyyət çəkdiyinə görə, savadm dəyərini başa düşmüş və vətən övladlarmı əsrləri üçün hazırlamışdır.

Fərəcin də savad ardmca getməsinə, Ağa Musanm vəsiyyətinin az təsiri olmayıb. Fərəc savadmı artırmaq üçün az

qala Çinə də getməyə hazır idi.

Ağa Musa pisliyi səmimilikdən mahir psixoloq kimi ayıra bilirdi. Məsələn: dəlləyinin arzusunu ürəyində qoymayıb, sözünüyerə salmayıb, onabahalı bir xalıbağışlayır.

Bir dəfə gəmini fəlakətdən qurtaran kapitan, Ağa Musadan nəzir pulu istəyir ki, qoyun alsm. Ağa Musa etirazmı bildirib -"sən nahaq mənim hesabıma nəzir edibsən, zəhmət çək, qoyunu öz məvacibindən al" deyir.

O üzünü savadsızlaratutub, deyirdi: "ay bisavadlar, siz Çin bir tərəfə, heç Bakıda özünüzə bəraət qazana bilmirsiniz".

Düz deyiblər ki, «sən mükafatmı insanlığa xidmətdə ara, əbədi sözünü, təsəllini həqiqətdə ara». Bu kəlamlar bütövlükdə Ağa Musaya aiddir.

Dünyada mayası haram olmayan tikililər qalır. Ağa Musa Bakı Real məktəbini tikdirməklə bərabər, ona himayədarlıq da etmişdir. Kolyibakinskaya küçəsi 48-də (Gül passajının binası) balıq istehsalı kontorunun sahibi olub, eləcə də başqa müəssisələrə başçılıq edən Ağa Musa, 1912-ci ildə Qafqaz dəmir yolu ilə ağ neftin firmalara göndərilməsi sahəsində üçüncüyeri tutanlardan olmuşdur.

1898-ci ildə Batuma 2.405.118, başqa şəhərlərə 509, Rusiyaya və Qafqaza 273.604, ümumi dəmir yolu ilə 2.554.937, Xəzər dəniz yolu ilə Həştərxana 1.258.55, Petrovski Xəzər dəniz arxasma 52.503, İrana 24.738, Bakıya 120, cəmi 4.785.598 ton neft göndərən məhz Ağa Musa Nağıyev olmuşdur.



Cahangir Hüseynov (ortada), Ağa Musa Nağıyev adına xəstəxanada uzun müddət baş həkim işləyib



"Yük" filminin sponsoru Mirzə Fərəcovun həyat yoldaşı Xoşqədəm x. və övladları

## AĞA MUSANIN «YÜK»LÜ TALEYİ XEYRİYYƏÇİ HACI ƏVƏZİN MEYDANA GƏLİŞİ

1995-ci ildə Ağa Musa Nağıyevin taleyindən bəhs edən «Yük» filminin ssenarisi akademik Mirzə Fərəcov tərəfindən hazırlanmışdır. Filmin çəkilişinə sponsorluq etdiyinə görə, Mirzə Fərəcovun sonradan başı çox bəlalar çəkdi. Hətta bu filmə baxmaq belə ona qismət olmadı. Film hazır olar-olmaz o, qəflətən dünyasını dəyişir.

Film 1995-ci ildə Bern Festivalmda, 2002-ci ildə isə Avrasiya Festivalmda diplomlara layiq görülmüşdür.

Ağa Musa taleyinə ekran işığı salan Mirzə Fərəcovun ruhuna, daimaminnətdarlığımızı bildirəcəyik.

Rövşən Əlimuradlı rejissorluq etdiyi bu filmdə Hacı Zeynalabdin Tağıyev Ağa Musa Nağıyev ilə söhbət əsnasmda deyir:

- «Ağa Musa, tanrı hərəmizin çiyininə daşımaq üçün bir yük qoyub. Buna ömür yükü deyirlər. Çiyinlərimizdəki yük nə qədər ağır olsa, ikimiz də bir o qədər çox işləyəcəyik. Elə tanrıya da bu cür yüksələcəyik. Yoxsa bu günah dünyasmda yaşamağa dəyməz».

«Yük» filmi insanı düşündürəndir. Film iki məqsəd: -milyonlar və xeyriyyəçilik - üzərində qurulub.

Film bu gün də aktualdır. Varlı ola bilərsən, lakin bu pullarm necə xərclənməsi haqda yollar araşdırılmalıdır. Bilirik ki, tarixi olmayan bir xalqm gələcəyi barədə heç düşünmək belə olmaz.

Ağa Musanm xeyriyyəçiliyindən, qəpiyinin qədrini bilib, pulunu heçə-puça xərcləmədiyindən və nəhayət böyük yumorist olduğundan bəhs edən bu film, elə bil bütün nəslimizin iç üzünü açıb, göstərir.

Sovet quruluşunun bizlərə qarşı tətbiq etdiyi ən dəhşətli cəza üsullarmdan biri «yaddaş repressiyasıdır». Amma nə yaxşı ki, tarixin yaddaşı silinməzdir. Zamanm qara səhifələri yaddaşlardan heç nəyi qopara bilməz. Bu yaddaş sabitdir və gələcəyin üz tutacağı ən etibarlı mənbədir.

Şəxsiyyəti kapitalizm, burjuaziya damğasma tuş olan, adı qadağalar siyahısma düşən, müvəqqəti zaman kəsiyində nəsillərin yaddaşmdan silinsə də, tarixi yaddaş səhifəsində əbədi həkk olunan mesenat, neft maqnatı Ağa Musa Nağıyev mürəkkəb və faciəli tale yaşamışdır. Hətta ölümündən sonra da bu tale onun ruhunu təqib etmiş, əbədiyyət evində öz kədərli nişanəsini qoyub getmişdir.

Vaxtı ilə xalqı naminə milyonlarmdan keçən, öz quruluşu və görkəmi ilə paytaxtımızm hüsnünü bəzəyən, başda möhtəşəm «İsmailiyyə» binası olmaqla 98 bina tikdirən və bununla Bakmm memarlıq simasmı zənginləşdirən Ağa Musa Nağıyev olmuşdur.

Milyonlarmı kazino, mehmanxanalara, eyş-işrətə sərf edən bugünkü sərvət sahiblərinin qeyrəti bu acmacaqlı mənzərə qarşısmdamiskin görünür.

Bugünkü yeni nəslə Ağa Musa Nağıyev şəxsiyyətini tam dolğunluğu ilə tanıtdıra biləcək, ölkəmizdə neft müqavilələri bağlayan xarici şirkət

sahiblərinə, əsrin əvvəlində Azərbaycandakı neft sənayesi barəsində zəngin bilgilər verə biləcək tarix bu gün bizə lazımdır.

Belə həyat qanunu var: insan doğulduğu gündən ölümünədək uzun və yaxud qısa məsafə qət edir. Lakin həyatda necə iz qoyacağı insanın özündən asılıdır. Görünür dünyanın yükünü çiyinlərində daşımaq da tanrı tərəfindən <<seçilmiş>> insanlara tapşırılır. Necə ki, o vaxtı H.Z.Tağıyev deyib: «Tanrı mənə dövlət verib və bu biçarələri tapşırıb. Məni onlar üçün yaradıb».

İnsanlar həmin «seçilənləri» xeyriyyəçi adlandırıblar. Bunlar A.M.Nağıyev, H.Z.Tağıyev, Ş.Əsədullayev kimi xeyriyyəçilərdir.

On bir yaşlı Ağa Musa yorğunluqdan torpaq üstə uzanıb mürgü vurarkən, qulağmda səslənən pıçıltılar ona yenidən qüwə verib, deyirdi: «Qalx! Qalx! Döz, bir az da döz! Bu gün ağuşunayıxıldığın torpaq, sabah səni göylərə ucaldacaq. Qalx!»

Ağa Musa beləcə özündə daxili qüwə tapıb, qarşısına qoyduğuməqsədə doğru gedir.

18 yaşında tale onun üzünə gülür. Sonradan o, neft çıxaran şirkətin sahibi, daha sonra neft kralı, xeyriyyəçi, möhtəşəm binaların yaradıcısı olub. Bütün tikililərində onun podradçısı Hacı Qasımov olub.

Varidatından 690 mln. qızıl puldan bir qara qəpik belə çatmayıb ki, onun yeganə vəsiyyəti Kərbalada dəfn olunmasına əməl olunsun.

Heç kəs düşünmürdü ki, Ağa Musa milyonlardan, var-dövlətdən usanıb, azad bir quş olub, göylərdə pərvaz etməyi dahaüstün tutmağı arzulayıb.

İllərin buraxdığı izlər və şüurumuz sübut edir ki, Ağa Musanın etdiklərini, xalqı üçün qoyub getdiklərini əyan etməyin vaxtı gəlib çatmışdır.

Ağa Musa çətin və ağır həyat tərzi keçirsə də, ciddi və qəddar dünyasında zarafatları ilə təsəlli tapırdı. Onun yumorist olduğuna misallar: çəkməsini silənə 1 qəpik verən Ağa Musaya çəkməçi sual edir: Ağa, başqaları da 1 qəpik verir, sən də?! O, cavabındadeyir: 3 qəpikversəm, qədrimibiləcəksən?!

«Qərənfil Günlərinin>> (xeyriyyə günləri) birində ianə yığılarkən, Ağa Musa 5 manat, oğlu İsmayıl isə 100 manat verir. Sual edəndə ki, Ağa Musa niyə Siz belə az, oğlunuz isə belə çox ianə verir, o deyir: İsmayıl görün kimin oğludur? Mən isə saman satanNağının.

Yenə xeyriyyə günlərinin birində Ağa Musa 3 manat, Qubernator isə 100 manat ianə verir. İndi qubernator ondan soruşur: «Ağa Musa niyə belə az?» O cavab verir: Sən çox verərsən də, axı sən hökumətsən! (Yəni müftə puldur, öz qazancındeyil).

Ümumiyyətlə, onun davamçıları da tənqidi sevdiyi kimi yumoru da xoşlayırlar. Bu cəhət nəsildən qanla keçmədir.

Yaddan çıxarmaq olmaz ki, 11 yaşlı Ağa Musa belini ağır palan əyə-əyə, halal zəhmətilə milyonçu olub. Ona görə də pulunun qədrini bilib. O, deyirdi: «Zər qədrini zərgər bilənkimi, pulunun da qədrini bilən dövlətli olabilər».

O, zatını heç vaxt itirməyib, nə də unutmayıb. Binalarının əksəriyyətində vurduğu Venzelin üzərində hambal palanının hər iki tərəfində saman şələləri, ortada isə ya AM - Ağa Musa, ya da ki, MN-MusaNağıyev yazıları həkk olunub. Yəni o, heç vaxt atasının saman satan olduğunu, özünün isə hamballıq etdiyini unutmayıb.

Belə yadigarlar qoyub getmiş Ağa Musanın adına bir küçə və bir xatirə lövhəsinin olması əlbəttə vacibdir.

Tikililəri ilə Bakı milyonçularını lərzəyə gətirən Ağa Musanın nəşinin Kərbəlaya göndərilməsi 1932-1938-ci ilədək bir daş altda, bir daş üstə məsələsinə çevrilib. Elə bil xeyriyyəçiyə qarğış edilib ki, o dünyadarahat olmasın.

Belə ki, Nağıyevlər nəslinə 1938-ci ildə xəbər gəlir ki, «Роргаҝа» qəbristanlığında «Vaqon Deposu» salmacaq, Ağa Musanın qəbri bu qəbiristanlıqdan başqa yerə köçürülməlidir. Görünürbelə olub, AğaMusanın alınyazısı.

Artıq Ağa Musanın qardaşlarının üçü də dünyasını dəyişib, vərəsə olan Fərəc isə soyadının sürgünüdür.

Yenə köməyə Zəhrə xanım çatır. Gecə ikən, kəfən tapmaq mümkün olmadığından Zəhrə xanım qaynı Zeynal Abdinin köməyi ilə Ağa Musanın nəşini balış üzünə yığır və Biləcəridə dağüstü qəbristanlığında dəfn edib, həmin əmanət daşını yenə üzərinə qoyurlar.

Zəhrə xanım imkan daxilində onun nəşinin mütləq Kərbəlaya göndəriləcəyinə qərarversə də...

Sonradan Vətən müharibəsi, Sovet quruluşu, daha sonra Nağıyevlərin «kapitalist ünsürləri» kimi təqiblər və sair, və sair...

Beləliklə, nağıllardakı kimi nə az, nə çox, 1919-cu ildən 1998-ci ilədək vəfatmdan 80 il keçsə də, Ağa Musanm qəbri
«əmanət» olaraq Kərbəla yolunda xilaskarmı gözləyir.

Bu məsələ hər zaman Fərəcin ailəsinin birinci problemi olub. Lakin buna mane olan amillər get-gedə artır və ən əsas amil Fərəcin soyadının sürgünü olaraq Bakıda yaşamaması olur.

1995-ci ildən Fərəcin övladları Dilarə, Solmaz və Rauf bu məsələ ilə yaxmdanməşqul olurlar.

Onlarm harayma çatan xeyriyyəçi, din xadimi, Xırdalan məscidinin axundu Hacı Əvəz olur.

Hacı Əvəz ilə ilk tanışlığımızda o, Ağa Musanm nəşinin Kərbalaya aparılmasmı məsləhət gördü. O bildirdi ki, atası Baba kişi dəfələrlə Ağa Musanm xəstəxanasmda müalicə qəbul edib, şəfa tapdığma görə onun qəbrinin abadlaşdırılmasmı ona tövsiyə etmişdir.

1998-ci ilin iyul aymm 23-ü idi. Köhnəlmiş, yaddan çıxmış qəbrin açılacağmı, böyük bir insanm, xeyriyyəçinin nəşini görməkbütün izdihamı lərzəyə gətirmişdi.

Yaym qızmar çağmda Ağa Musanm nəşi 4-cü dəfə qəbr yerini dəyişib, Biləcəri qəbiristanlığmm girəcəyində dəfn edilərkən, iri yağış damlaları onun yeni kəfənini islatdı. Beləliklə, xeyriyyəçinin ruhu aydmlığa qovuşdu.

Belə bir fövqəladə işi boynuna götürən Hacı Əvəzə hər üçümüz minnətdarlığımızı bildirib, ürək ağrısı ilə Ağa Musanm 80 il narahat uyuduğunu açıqladıq. Bir daha Ağa Musanm millətini sevdiyindən, qızlarm savadlanmasma vəsait ayırmasmdan, xeyriyyəçiliyindən söhbət açdıq.

P.S. Yeni və daimi qəbrin üstünə daşdan yonulmuş İsmailiyyə binasının maketini qoymaqla, Hacı Əvəz mənən Ağa Musanı Ismayılmruhu ilə qovuşdurdu.

Adətən pislik edən insanm aqibəti belə ola bilər. Nə idi onun günahı? Bu günədək bu sualm cavabmı tapa bilmirik.


A.M.Nağıyevin Biləcəri qəbiristanlığmdakı III məzarı
(1938-1998)



A.M.Nağıyevin III məzan qarşısmda nəvələri Rauf, Dilarə, Solmaz



*Могила и памятник Ага-Мусе в поселке Баладжары*

Каждый раз, попадая в центр столицы, я неизменно соприкасаюсь с историей, мысленно возвращаясь в прошлое, ощущая живую суть древних каменных стен. Облаченный в современные наряды родной город как бы смущается, осознавая их порой слишком уж вызывающий и нелепый вид. В моем восприятии Баку не просто город, это нечто большее.

И несмотря на зеркальные стены небоскребов, сердце его бьется в Ичери шехер, душа обитает в потемневших камнях старых строений.

## Dörd məzar

***Bakı milyonçusu Ağa Musa Nağıyevin nəşi dörd dəfə məzardan-məzara köçürülüb***

Dörd məzar gəzdin vəfatmm 80 ilində...

Dördməzar!

Səbəb nə idi, üçündən birində qərar tuta bilmədin? Bəlkə ürəyincə deyildiməzarın, sıxırdı səni? Adətən ruh cismi tərk edəndən, sərgərdan gəzir. Sənin də ruhun sərgərdanmı gəzdi?

Dördməzar, dördkəfəndəyişdin.

Sən sağlığmda da geyinməyi sevərdin. Ona görə idimi məzarını dəyişərkən, libasm təzələnirdi?

Adətən təzə libas rahatlıq, yenilik, əhval-ruhiyyə gətirir. Vəfatmm 80 ilinədək dörd dəfə kəfənin və yeraltı məzarm təzələndi, amma narahat ruhun təzələnmədi.

Bunun səbəbi: - zaman-zaman kölgənə və övladlarma olan haqsızlıqlarlabarışabilməyən ruhun olub.

Çox qəribə oldu tale paym...

Sən indi də özünə yer tapa bilmirsən.

Amma tikdirdiyin möhtəşəm imarətlərdə çoxları rahatlıqtapıb.

Torpağm üstündə qoyub getdiklərin üçün sənə rəhmət diləyənlər də çoxdur.

Bəlkə binalarınm çoxluğuna görə dörd axirət evi qismətin oldu? Onu da düşünməyin yeridir ki, bu hər adama nəsib olmur. Hər bir insan bir məzar, sən isə dörd məzar dəyişdin. Torpaq səni dörd dəfə bağrma basdı. Bəlkə də o məzarlarnövbəyə dayanıb tikdirdiyin binalarınəvəzinə.

Sağlığmda tikdirdiyin əkiz binalar pasiban olduğuna görə, dörd məzarm da bir-birinə pasiban oldu.

Biləcəridə girəcəkdəki məzarın elə bil yuxarıdakı qəbirstanlığaəl eləyib deyir:

Arxaym olun. Mən bu vətən övladmı heç kimə vermərəm. Göndərdiyiniz əmanəti bağrıma basıb, qoruyacağam.

Dörd məzar dəyişdin. Yəqin sonuncu məzarmm üstündəki "İsmailiyyə"nin maketi sənin yerinin rahat olmasma səbəbdir.

Sonuncu məzarmda sənə rahatlıq arzulayan Gülarə Munisdir.

1998-ci il iyulun 23-də A.M.Nağıyevin nəşi kəfənə tutularkən

## AĞA MUSA NAĞIYEV HƏTTA İMPERATORDAN DA ÇƏKİNMİRDİ

Ağa Musa Nağıyev xüsusi yumora malik şəxsiyyət olub.

Ağa Musa ilə Hacı Zeynalabdin Tağıyev bərk dost olmaqla yanaşı, neft işində də həmkar idilər. Onlar Peterburqda səfərdə olarkən Qış Sarayında II Nikolaym və İmperatriçanm iştirakı ilə bal mərasimi keçiriləcəyini eşidib, Tağıyevin təklifi ilə orada iştirak etməyi qərara alır və bilet əldə edirlər. Bilet baha olduğundan Ağa Musa deyinir. Zeynalabdin ona gülür.

Mərasimə gələn qonaqlar salona daxil olduqca eşik ağası bir-bir adları elan edir, onlarm gəlişləri münasibətilə orkestrin müşayətilə marş çalmır və bu nəhəng zaldakı adamlar ayağa qalxıb, gələn qonaqları qarşılayırdılar.

İmperator və İmperatriça salona daxil olur. Bəllidir ki, İmperatordan sonra zala heç kim daxil ola bilməz. Bal başlayır. Ağa Musanm gəlib çıxmadığmdan narahat olan Zeynalabdin "bəlkə də bilet bahadır, qaytarıb", deyə düşünür və özlüyündə gülümsəyir.

Birdən Bakı sənayesinin nümayəndəsi, neft üzrə sahibkar Ağa MusaNağıyevin gəlişi elan olunur. İmperator istər-istəməz rəqsi dayandırır və Ağa Musanı salamlayır. Sonra aydm olur ki, o, bunu qəsdən edib və Zeynalabdinə deyir: "atam-atam İmperatoru ayağa qaldırmalı idim də, biletə bir ətək pul tökmüşəm".

Professor İsmayıl Ümüdlü də öz məqalələrində Ağa Musanm xüsusi yumoramalik bir insan olduğunu qeyd edib.

Yeri gəlmişkən bildirməliyəm ki, bu xüsusiyyət Fərəcin ailəsinə də məxsusdur.

İ.Ümüdlü araşdırmalarında göstərir: Rəvayətə görə hətta onu qoçular oğurlayarkən, Ağa Musa onlara tələb olunan pulun yarısmı verəcəyini bildirib deyir: "Əgər öldürsəniz heç onu da almayacaqsız".

İ.Ümüdlü Ağa Musanm dördüncü dəfnində iştirak etmişdi. Ömrünü qurub, yaratmağa həsr edən Ağa Musa isti iyul günündə özü kimi xeyirxah və xoşməramlı insanlarm köməyi ilə dördüncü qəbr evinə köçürüldü. Tanrıdan arzu edək ki, bu nadir insanm ruhu aram tapsm və bu onun son mənzili olsun!

## AĞA MUSANIN ADININ XƏSTƏXANAYA QAYTARILMASI HAQQINDA
(1992-ci ildə Sərəncam verildi)

İstefada olan polkovnik Cahangir Hüseynovun danışdıqlarından:

10 ildən artıq bu xəstəxanada Baş həkim vəzifəsində çalışarkən onu bu sual çox narahat edirdi: Nə üçün mərhum Ağa Musanm adı-halal puluna tikdirdiyi xəstəxanaya verilməsin? Bütün dövlət orqanlarma şəxsən müraciət edir və nəhayət məqsədinə nail olur.

1992-ci ildə xəstəxanaya mesenat, xeyriyyəçi Ağa Musa Nağıyevin adı qaytarılır.

İndi belə bir sual meydana çıxır: nə üçün indi xatirə lövhəsi və küçəyə onun admm verilməsi çox çətin məsələyə çevrilib? Əksinə bu müsəlman dilində desək, halallıqdır. Deyirlər ki, halallıq olmayan yerdə bərəkət olmaz.

Cahangir Hüseynov Leninqrad Tibb Akademiyasmı bitirib, 6 il Macarıstanda hərbi cərrah, 10 il Gəncədə hərbi qospitalda cərrahiyə şöbənin rəisi vəzifəsində çalışmış, 1983-1993-cü illərdə Bakıda Ağa Musa Nağıyev adma xəstəxanada baş həkim vəzifəsində qulluq etmiş, hal-hazırda ehtiyatda olan tibb polkovnikidir.

Çox maraqlı əmək fəaliyyəti olan bu insan, Ağa Musa Nağıyev üçün bir azərbaycanlı kimi xeyirxah iş görüb. 1988-ci ildən 1992-ci ilədək, müxtəlif rəhbər təşkilatlarla əlaqəyə girib, uzun müddət «Semaşko» adı ilə dillər əzbəri olan xəstəxananm milyonçu Ağa Musa Nağıyev tərəfindən tikilməsini nəzərə

alaraq, xəstəxanaya kişinin halal admm qaytarılması ətrafmda
çox iş görmüşdür.

Onuuzunmüddət "hələ vaxtı deyil" cavabı ilə susdurublar.
Nəhayət 1992-ci il iyulun 16-da Səhiyyə Nazirliyinin və İcra
Hakimiyyətinin Sərəncamma əsasən xəstəxanaya Ağa Musa
Nağıyevin admm qaytarılması qərara almır.

O vaxt bu hadisəni Musasevərlər belə qarşılamışdılar:

- Ağa Musanm admm xəstəxanaya qaytarılması haqqm,
ədalətin qələbəsidir. Ən başlıcası odur ki, bu müqəddəs
hərəkətdir.
Cahangir Hüseynovun bu hərəkətini uğur kimi qarşılamaq vacibdir.



ШӘФА ОҸАҒЫ НАҒЫЈЕВИН АДЫНАДЫР



Фотомухбиримиз Һичран Бабајев бу шәкилләри Бакы шәһәр тә'чили тибб јардымы хәстәханасына Муса Нағыјевин адынын верилмәсинә һәср едилмиш тәнтәнәли мәрасимдә чәкмишдир.

**AĞA MUSA NAĞIYEVİN B AKIDA TİKDİRDİYİ 98 BİNADAN BƏZİLƏRİNİN SİYAHISI**

28 May küçəsindəki: 3,5,7,8,9,10,11,14,15,17 saylı binalar;

- həmin küçədə Lüteran kilsəsi (Kirxa);
- 2 - 4 saylı Əkiz binalar və yaxud Güzgü simmetriyalı binalar;

Y. Məmmədəliyev küçəsi bina 11, hal-hazırdakı Azərittifaqm binası;

Rəsul Rza küçəsi - bina 36, Gül Passajı binası - keçmişdə Balıq Sənayesi Kontoru;

İstiqlaliyyət küçəsi (keçmişdə Hərbi Komissarlığm binası), bina 31;

- həmin küçədə Azərbaycan Dövlət İqtisad Universiteti -keçmiş Realm məktəb, bina 6,
- həmin küçədə İsmailiyyə - (keçmişdə Müsəlman Xeyriyyə Cəmiyyəti) - indiki Milli Elmlər Akademiyasmm binası, bina 10;
- İsmailiyyə meydanı - indiki Sabir bağı. Mirqasımov küçəsi, bina 1, Ağa Musa Nağıyev adma xəstəxana (keçmiş Semaşko);

Xətai rayonundakı E.Əfəndiyev adma 2-saylı xəstəxana; Ana və Uşaq Mühafizə İnstitutu (xəstəxana) B.Bağırova küçəsi 15

Sabunçu qəsəbəsində poliklinika; Ş.Əzizbəyov küçəsi 28 (hazırda Dilarənin yaşadığı bina); Səməd Vurğun küçəsi 24 Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi;

- həmin küçədə bina 14- Astoriya Mehmanxanası (hazırda bankyerləşir);
- Qış evi - indiki "Zabitlər evi";

Zərgər palan küçəsi bina 16;

H.Z.Tağıyev küçəsi 13, (Yeni Avropa mehmanxanası) -

indiki Rusiyanın LukOyl şirkəti;

Azərbaycan Prospekti bina 10, (keçmiş Poçt və Rabitə binası, indiki Rabitə və İnformasiya Texnalogiyaları Nazirliyi).

Neftçilər prospekti 69 (Tarixi abidə) indiki ÜNS teatrı; Neftçilər rospekti 73 - Azərbaycan Dövlət Neft Şirkətinin binası;

Ş.Bədəlbəyli küçəsi, bina 21; Xaqani küçəsi, bina 47 (Gəlir evi olub);

Mərdəkanda Ysenin küçəsində bağı - hazırda "Mədə bağırsaq sanatoriyası";

Azərbaycan prospekti, bina 145 (Dəniz vağzalı yanmda);

M.Ə.Rəsulzadə küçəsi, bina 6 (keçmiş qastronomun binası);

Naməlum binalardan bir neçəsi:

Baryatinskaya 13 (Ağamalı - A.K.Əlizadə) Birjevaya 13 (Ü.Hacıbəyov) Karantiynaya 84 (H.Aslanov) Kolyabinskaya, Marinskaya, Tarqovaya41 (N.Rəfibəyli), BolşayaMorskaya 12\30.


Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin binası


28 may küç. 9, A.M.Nağıyevin binalarmdan biri



İstiqlaliyyət küç. 10, İsmailiyyə binası (indiki AMEA)



A.M.Nağıyevin binası, Neftçilər prs. 69 indiki ÜNS teatrı



İstiqlaliyyət küç. 31, A.M.Nağıyevin binası




Rəsul Rza küç. 31, "Gül passajı" A.M.Nağıyevin binası



28 May küçəsində 4 və 6 saylı əkiz binalar - A.M.Nağıyevin tikililərindən



Neftçilər prospekti 73 - Dövlət neft şirkətinin inzibatı binası da A.M.Nağıyevin tikililərindəndir



Ş.Bədəlbəyli küç. 24, A.M.Nağıyevin binası



Abşeron mədə bağırsaq sanatoriyası - (Mərdəkənda) A.M.Nağıyevin tikililərindəndir.



Rusiyanın LUKOYL şirkəti yerləşən bina



Xaricdə yaşayan azərbaycanlılarla iş üzrə dövlət komitəsi
(Səməd Vurğun küçəsi 24)



Xaqani küçəsi 47 (Gəlir evi)



M.Ə.Rəsulzadə küçəsi 6. Keçmiş qastronom





Neftçilər prospekti 145




28 May küçəsindəki binalarında biri

**Ağa Musanın adı həmişə yaşayacaq, çünki Bakının tacında İsmailiyyə kimi daş-qaş parlayır**

Nə yaxşı ki, biz Ağa Musa ocağının övladlarıyıq!

Ağa Musanın həyatı nağıla bənzəyir: yoxsulluqdan-zənginliyə; şan şöhrətdən-unutqanlığa.

Bütün faktlar Ağa Musanın böyük tarixi şəxsiyyət olmasından soraq verir. Ancaq ensiklopedik yaddaşın sətirlərində Nağıyevin tərcümeyi halına qarşı xüsusi bir ədalətsizlik nəzərə çarpır. Axı o təkcə milyonçu deyildi. Bakıda tikdirdiyi mədəni məişət obyekti, himayəyə götürdüyü yüzlərlə yoxsul ailə, şəxsi vəsaiti hesabına oxutduğu soydaşlarımız Ağa MusaNağıyevin xeyirxahlığına sübüt deyilmi?

Bütün bunlar xalqını və insanları sevən bir şəxsiyyətin zənginliyindən soraq vermirmi?

Dünənədək soyğunçuburjuanümayəndəsikimi tanıdığımız Ağa Musa və bu kimi şəxsiyyətlərin əsl tərcümeyi halı ilk növbədə xeyirxahlıqdan, vətənpərvərlikdən başlanır. Həyat fəaliyyətinin, yaxşı əməllərinin üzərinə uzun illərin acı rüzgarı əssə də, nəhayət, tufanlar, qasırğalar səngidi.

İndi ədalətsizliklə yayılmış o qısa ensiklopedik sətirlərin həqiqi və geniş mənasına baş vurmaq məqamındayıq. Çünki milyonçunun xəmiri halal zəhmətlə yoğrulmuşdu.

Əslində kiçik torpaq sahəsi Allahın Ağa Musaya bəxş etdiyi hədiyyə idi. Çünki Ulu Yaradan bu yoxsul ailənin sədaqətini, namusunu, dolğunluğunu, övladların bir-birinə, ata-anaya olan məhəbbətini görüb, bu halal ailəyə öz qismətini göndərmişdi. Əsil-nəcabətini, kökünü, ailə fəxarətini Ağa Musa Nağıyev firmasınaməxsus emblema- Venzel təsdiq edir.

İndi hamı bir ağızdan vurğulayır: oğlunun vaxtsız ölümünü uzun müddət unuda bilməyən bu milyonçunun xəstəxananı tikdirməkdə məqsədi insanların vaxtında müayinə və müalicə olunub, xəstəliklərdənxilas edilməsi olub.

Xəstəxanada Ağa Musa guşəsinin açılışı - özü də bir qələbə oldu. Biz nəvələri bu mərasimi tarixi hadisə kimi qarşıladıq.




**İsmailiyyə haqqında**

Oğlu İsmayılm ağır, çarəsi tapılmayan xəstəliyə tutulması, Ağa Musanm ən böyük dərdi idi. Bakıda və eləcə də xaricdə apanlan müalicələr nə İsmayıla çarə edir, nə də milyonçunun harayma çatır.

1902-ci ildə 27 yaşlı İsmayıl bəy əbədi olaraq həyata əlvida deyir.

Bundan çox sarsılan Ağa Musa oğlunun xatirəsinə bir binaucaltmağı qərara alır.

Azərbaycanm "Qızıl fond"una daxil olmuş çoxsaylı binalarm müəllifi Ağa MusaNağıyev, bina tikmək üçün layihəni hazırlamağı memar Bayev N.Q. və milliyyətcə polyak olan Ploşkoyahəvalə edirdi.

Ağa Musa bu dəfə memar Ploşkoya müraciət edir. Belə ki, hələ neft işi ilə əlaqədar o İtaliyanm Venesiya şəhərində olarkən, Qotika (saray) üslubunda tikilmiş möhtəşəm bir bina onun diqqətini cəlb etmişdir. Bina tikdirmək azərkeşi olan Ağa Musa o vaxt heç ağlma da gətirməmişdi ki, nə vaxt isə Bakıda bu binanm əksini oğlunun xatirəsinə ithaf edəcək.

Belə ki, o, 1903-cü ildə bu planı haqqmda Ploşko ilə məsləhətləşir və saraym layihəsini hazırlamaq üçün onu Venesiyaya göndərir. Ploşkonun bu iş ilə əlaqədar orada qaldığı 3 il müddətində Ağa Musa onu tam maliyyələşdirir.

Şedevr bina yaratmaq məqsədilə Ploşko gələcək İsmailliyə binasının (indiki Milli Elmlər Akademiyası) layihəsini Venesiyada ucaldılmış məşhur Palatso Kantarini binasmm eyni üslubunda hazırlayır.

Tikintisinə 1908-ciildəbaşlananbina, 1913-cüil aprelin 7-də istifadəyə verilir. Binanm daxili və xarici görünüşü zərgər işi kimi incə və göz qamaşdırıcı olur. Ploşko sözün əsl mənasmda Venesian arxitekturası üslubunda Qotika yaradır. Binanm üzərində ucaldılmış qüllələrin və minarələrin bəzəyi o vaxtm bütün memarlarmı heyran etmişdi.

İsmailiyyə binası öz harmoniyası ilə özlüyündə bir simfonik əsər kimi təsəvvür yaradırdı. Bütün bu xüsusiyyətlərinə görə və başqa binalardan qat-qat fərqləndiyinə görə o vaxt xalq arasmda böyük emosiyaların yaranmasma səbəb olur.

Venesian Qotikası Bakmm ümumi mənzərəsinə islam dini üslubundabədii təsviredici tarixi formadayerləşdirilib.

Memar Ploşkonun misilsiz istedadı və ələlxüsus əl ilə daş yonan Bakı ustalarmm yaratdıqları incəsənət şedevri "İsmailiyyə Sarayı" bu gün də hammı heyrətdə qoyur.

Əgər incəsənətin keçid dövrünü, daha doğrusu tendensiyanm keçid dövrünü Moskvayanı Morozovun mülkü təmsil edirsə, İsmailiyyə Qotikası memarm simasmda Ağa Musanm ixtirasıdır desək yanılmarıq. Bu bina Bakmm mənzərəsinə klassikəsərkimi daxil olub.

Ağa Musa Nağıyev oğlunun xatirəsini bir daha əbədiləşdirmək məqsədilə binanm girəcəyində qızıl hərflərlə İsmailiyyə sözünü yazdırır. Bina ilk "Müsəlman Xeyriyyə Cəmiyyəti" xüsusiyyəti daşıyır. Məhz burada xeyriyyə məqsədilə "Qərənfil günləri" və digər yüksək səviyyəli ziyafətlər keçirilirdi.



Ağa İsmayıl - A.M.Nağıyevin
oğlu 1875-1902



İsmayıl, xəstə ikən (1902)

**Ağa Musanı xəsislikdə ittiham edirdilər. Onun vaxtsız ölümünə ermənilər səbəb olub**

Keçmişdə hamı kimi Ağa Musa da oğlu İsmayılm dərdinə çarə tapabilməyib, aciz qalmışdı. Oğlunun xəstəliyinə guyaəlac etmədiyinə görə ona xəsis damğası vurmuşdular. Bəs indiki milyonçular necə olur ki, xərçəng xəstəliyinin çarəsini tapa bilməyirlər? Onlar simic deyil, xəstəliyin əlində girincdirlər? Sadəcə insanlar başa düşməlidirlər ki, elə xəstəliklər var ki, müalicəsi yox dərəcəsindədir. İnsan bu xəstəliklərin qarşısmda əlacsızdır. Bu yalnız Allahm əlindədir, birdə ki möcüzə ola bilər.

İndi yeridir deyim ki, gedər bıçaq yarası, getməz söz yarası.

Biz nəvələrin əsas məqsədi Ağa Musaya deyilmiş daha doğrusu vurulmuş söz yarasının məlhəmini tapmaqdır.

Yaxşı insanlar, onun etdikləri ilə tanış olub, bizə can sağlığı arzulayırlar ki, bu insanm admı yüksəldək. Bədnam kimi qələmə verilmiş Ağa Musanm admı dillər əzbəri edək.

Əminəm ki, nahaqqı qova-qova haqq etməyə nail olmuşuq.

Ağa Musaya «Xatirə lövhəsi»nin vurulması böyük problemə çevrilib və mənimmüraciətlərim futbol sahəsində gah ora, gah bura vurulan topa bənzəyir. Futbol aləmində belə oyuna <<spinizm>> deyirlər.

Adətən bu bürokratlarm xəstəliyi olur. Biri başmdan edib, o birisinin üstünə atır.

Məşhur fizik Eynşteynə sual edəndə ki, "niyə belə pis geyinirsiniz?" - "Məni kim tanıyır ki?" cavabmı verərmiş. Məşhurlaşandan sonra yenə bu sualla ona müraciət etdikdə deyirmiş: "Mənikimtanımırki?"

Ağa Musanm etdiklərini də bir-bir sadaladıqca çoxu deyir ki, kim onu tanımır ki?

Əlacsızlıqdan mən də deyirəm: Xatirə lövhəsiz də, yəni bəzəksiz də onu tanıyanlar tanıyır.

İri neft sahibkarlanndan birincisi olan Ağa Musa 1893-cü ildə öz adma Neftçıxarma firması yaratmış və bu firmanm gəliri nəzərdə tutulandan 10 mln. manatdan yuxarı olmuşdur. Onun Sabunçu, Suraxanı, Ramanadakı 65 neft buruğu, Bakıda Qara şəhərdə «Neftqayırmazavodu>>, mexaniki emalatxanası olub.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra milyonçu Ağa Musa Nağıyevin müəssisələri də binaları kimi "milliləşdirildi".

Artıq 1901-ci ildə Bakıda istehsal olunan neftin miqdarı dünya üzrə böyük təəccüb doğurur və Bakı dünyanm neft paytaxtma çevrilir. Ağa Musa Nağıyevin əməyi bu sahədə diqqətə layiqdir.

Atası Nağının dediklərini qulaqlarmda sırğa edib, "Oğul, ev tikdirəni ölüm hədələməz" nəsihətinə bəraət qazandırıb, çox bina tikdirsəm ömrüm uzanar - düşünən neft milyonçusu 98 bina tikdirdi.

1918-ci ilin martm 15-də Bakıya ermənilərin basqmı zaman, dörd gün ərzində erməni daşnaqlarmm vəhşiliyi nəticəsində minlərlə azərbaycanlı doğranılıb, qanlarma qəltan edilmişdi.

Erməni daşnaqlarının əsas məqsədi Azərbaycan xalqına fiziki və mənəvi zərbə vurmaq idi. Bakı sovetinin əksər üzvlərini ermənilər təşkil etməsi də bu planın həyata keçməsinə bir təkan idi. Ağa Musanın vaxtsız ölümünə də ermənilər səbəb olmuşlar.

«İsmailiyyə» binasının zirzəmisində Azərbaycan ziyalılarının arxiv sənədləri yerləşirdi. İndi ermənilərin əsas məqsədi bu arxivi ələ keçirməklə bərabər İsmailiyyənin bünövrəsində (tikinti başlayarkən binanın özülünə külli miqdarda qızıl qoyardılar) olan qızıllan əldə etməklə, bu şedevr binanı yerlə yeksan etmək idi. Bu məqsədlə onlar keçmiş Metropol mehmanxanasının, indiki Nizami muzeyinin damından **İsmailiyyəni** top atəşinə tuturlar.

Atam Fərəcin danışdıqlarından: "Ağa Musa deyirdi, o binaya dəyən hər bir güllə əwəlcə İsmayılın, sonra isə mənim ürəyimə dəyirdi".

Beləcə İsmailiyyə talan edildikdən sonra, Ağa Musa tam sağlam ikən ürək xəstəliyinə tutulur.

Bu hadisədən bir il keçməmiş, 4.03.1919-cu ildə Ağa MusaNağıyev 70 yaşında dünyasını dəyişir.

Ermənilərin bizə düşmən münasibəti bəsləmələri hər zaman hiss olunurdu.

Erməni qırğınları başlayarkən, Ağa Musanın yığıncaqların birində etdiyi çıxışı heç vaxt yaddan çıxa bilməz. Mötəbər şəxslərin çıxışlarından sonra söz ona verilir:

- Hamını dinlədik. Məni həyəcan hissi bürüdü. Sizin danışıqlarınızdan belə başa düşdüm ki, ruslar türkləri, türklər -erməniləri, ermənilər bizi, biz də rusu məhv etmək niyyətindəyik. Məni də məktəblərin, ana dilinin, xəstəxanaların vəziyyəti və insan azadlığı narahat edir. Bunlar bir tərəfə, ancaq eşidəndə ki, məktəblərdə cəfəngiyyat danışırlar, düşünürsən ki, bu məktəb bizə lazımdırmı?

Əgər qəlbi yaddan çıxarıb, bədəni müalicə edirsənsə -xəstəxanalar kiməsə lazımdırmı? Bizim qəlbimiz də, könlümüz də Allahın əlindədir. Əlbəttə hər bir xalq elə düşünür ki, onların Allahları ayrı-ayrıdır. Amma mən düşünürəm ki, imamların dili ilə danışan Allah təkdir.Bundan irəli gəlir ki, mən İsa Peyğəmbərə, Musa Peyğəmbərə, Konfusiyə, Buddaya və Məhəmmədə inanıram.Biz hamımız Allahın yaratdıqlarıyıq. Bax, bunu biz xalqa bəyan etməliyik. Onları başa salmalıyıq ki, nə ağ var, nə də qara. Çünki qarada ağ rəng gizlənir, ağda isə qara rəng. Bunları nəzərə alaraq çalışmalıyıq ki, heç kəsə ziyan dəyməsin. Çünki biz insanların bir hissəsiyik və bizim kiçik hissəmiz hər bir insanın daxilindədir.

Ağa Musanın bu nitqini dinləyən hər bir kəs göz yaşı axıtmışdı.

Gəlin birlikdə Bakımız üçün yanaq, yanaq mesenatlarımız

olan A.M.Nağıyev, H.Z.Tağıyev, M.Muxtarov, İ.Hacınskiüçün. Onlar tarix yaradıblar, tariximizi isə biz yaşadaq.

Atalar misalı var ki, dama-dama göl olar. Gec də olsa, damarlarımızda axan mavi qanlardan göllər yaradaq. Çünki göllərin birləşməsindən dəniz yaranır. Dəniz isə sonsuzdur, əbədidir.

Nağıyevlər nəslinin arzusu - ədalətin gec-tez bərpa olacağı, gələcək nəslə Ağa Musanı xeyriyyəçi, qurub yaradan, çətinliyə düşən insanlara kömək əlini uzadan bir şəxsiyyət olduğunu çatdırmaqdır.




**Azərbaycan Milli Elmlər Akademiyası**
**-60-**

A.M.Nağıyevin nəvəsi Dilarə xanım İsmailiyyədə





**Qeyri adi yuxu**

... Bir qədər uzun sifəti ağbəniz, çox cazibədar xırda qara gözləri və iti baxışları var idi. Ensiz və azacıq uzunsov burnu sifətinə xüsusi yaraşıq verirdi. Açıq siması və insanı cəlb edən kiçık, lakin hər bir pıçıltını belə eşidəcək qulaqları var idi. Dodaqları bığının altmdan azacıq görünsə də, bu onun sürətinə çox yaraşırdı. Qaşlan küt və azacıq üçbucaq şəkilli idi. Saqqalı həmişə qap-qara görünərdi. Hər həftə saqqalma həna qoymağı əbəs deyildi. Əsanı tutan əlləri - pianoçunun əllərini xatırladırdı. Nə vaxt isə hamballıq etdiyini unutduran xarici görkəmindən nəciblik, alicənablıqyağırdı.

Hər şeyi: çətinlikləri, ağır uşaqlıq illərini, hambal şələsinin ağırlığmdan bükülən belinin ağrılannı və nəhayət yalm ayaqlannda çəkməni əvəz edən döyənəkləri heç vaxt yaddan çıxarmayan, ümumilikdə şəxsiyyətdən xəbər verən bu insan milyonçu Ağa Musa Nağıyev idi. Elə bil o, anadan milyonçu doğulmuşdu. Burnu şiş çəkmələri onun hər bir kostyumuna uyğun rəng çalırdı. Ümumiyyətlə qara və ağ rəngli geyimlərə üstünlükverərdi.

Boyu çox da hündür deyildi, təqribən 165-170 sm olardı. Başmdakı buxara-dəri papaq ona xüsusi yaraşıq versə də, şlyapa geyməyi də xoşlayırdı.

Yerişi, duruşu, hər zaman dik saxladığı qaməti onun keçmişindən xəbər vermirdi. İnanmaq olmazdı ki, o, nə vaxt isə hamballıq edib. Kasıbçılığı heç vaxt özünə nöqsan tutmazdı.

Alnı geniş, kiprikləri six idi. Dincəlməyi kresloda xoşlayardı.

İçkiyə çox meyli olmasa da, hərdən viski içməyi özünə qadağan etmirdi. Qızıl sevən deyildi. Lakin varlanandan sonra aldığı ilk qızıl barmaqlığı hər zaman barmağmda gəzdirirdi. Yeməyə çox həris olmadığmdan, tələbkar da deyildi. Lakin, Bakmm düşbərə-qutabmdan və bir də soğan bozbaşmdan heç vaxt imtina etməzdi.

70 yaşmadək bu görkəmi saxlaya bilən Ağa Musa heç vaxt düşünməzdi ki, bu onun ömrünün son ilidir. Çünki onun arzusu 100 bina tikdirib, 100 yaş yaşamaq idi.

Çox bisavad imzası var idi. Amma yaddaşı fenomen idi. Onun bütün haqq-hesabı beynində cəmləşirdi. Bircə misal ilə onun qənaətçiliyinə müsbət rəğbət bəslədiyini aydm görmək olar: dedi-qoduya uymayan Ağa Musa,sifariş etdiyi 9 binanm əvəzinə, 10 bina inşa edildiyini eşidəndə, podratçıya deyir:

"Halal edirəm sənə bu binanı. Bu sənin qənaətçiliyindən xəbər verir. Çunki mən 9 binaya vurulacaq hər bir mıxm qiymətini bilirəm".

Bir sözlə onun başı müasir dil ilə desək kalkulyator, bədəni isə kompüter idi.

Bir neçə il əwəl yuxuda babam Ağa Musanı gördüm. Atamm danışdıqlarmdan, sol çiynim üzərindən gördüyüm sifətindəki cizgilərdən tanıdım onu. Ancaq qara-şəvə saqqalı indi ağappaq idi.

İstədim dönəm arxaya, o təkid edib, dedi: "92 40 04-ə zəng et!"

Dedijm: Edərəm.

Dedi: Nömrəni yaz, unudarsan!

Dedim: Yadımdadır. Çox təkid etdi ki, yazım
- amma yazmadım.

Dedim: Asan nömrədir, 40 və əksi 04. İndi isə yazacağım nə uydurmadır, nə də əfsanə. Səhəri zəng etdim bu nömrəyə, qulaqlanma inanmadım. Bu Dövlət İqtisad Universitetinin telefon nömrəsi idi. Babamm tikililərindən.



İqtisad Universitetində tədbir zamanı

Azərbaycan Dövlət İqtisad Universiteti



Keçmiş Realın məktəb

**Dünyada mayası haram olmayan tikililər qalır Azərbaycan Dövlət iqtisad Universiteti də Ağa Musa Nağıyevin tikililərindəndir**

Ağa Musanın oğlu İsmayıl Bakıda «Realnı» deyilən məktəbdə orta təhsil almış, sonradan xaricdə oxumuş, neçə-neçə dillərə yiyələnmiş, savadlı olduğundan neft işini mütəxəssis kimi idarə edirdi.

Məktəbin keçmişdə bələdiyyə tərəfindən I mərtəbəsi tikilmiş və vəsaitin çatışmaması nəzərindən elə yarımçıq qalmış hətta müəyyən, yəni çox kiçik hissəsinin damı örtülmüşdü ki, guya uşaqlar üçün şərait yaradılmışdı.

Elə əvəldən oğlunun vəfatından sonra da bu məktəbin aqibəti Ağa Musanı rahat buraxmırdı. Savadsızlığı aradan götürmək, gənclərin maarifləndirilməsi sahəsi Ağa Musanı hər zaman narahat edirdi. Bu baxımdan 1907-ci ildə O, Qubernatora məktəbin uzun müddət yarımçıq qalmış tikilisini başa çatdırmaq niyyətində olduğunu bildirib, 25 000 rubl məbləğində vəsait ayırmağa hazır olduğunu bildirir. Məktəbdə savadsız müsəlman uşaqları üçün hazırlıq sinfinin açılmasını, sonradan onların məktəbə qəbulu üçün şəraitin yaradılmasını, dünyasını erkən dəyişmiş oğlu İsmayılın və eləcə də öz portretlərini məktəbin akt zalından asılması kimi şərtlər irəli sürmüşdü. Onun bu qayğıkeşliyini Qafqazda imperator Əla

Həzrətlərinin vəliəhdi qiymətləndirərək, Ağa Musaya belə bir xeyirxahlığma görə təşəkkür və minnətdarlığmı bildirmişdir.

1908-ci ildən başlayaraq Ağa Musa bu məktəbə himayədarlıq da edir. Bu işlərinə görə 1910-cu ildə imperator əla Həzrətləri onu «Zolotaya şeynaya medal na Andreyevskoy lente» medalı ilə təltif edir, 1914-cü ildə isə O, III dərəcəli sv. Stanislav ordeni ilə təltif olunur. Sonradan bu bina çox adlar daşıyır. Hal-hazırda bina Azərbaycan Dövlət İqtisad Universiteti kimi tanınır. Realm məktəbə və eləcə də Universitetə çox rəhbərlik edənlər olub, amma Universisetin hazırdakı rektoru,

Millət vəkili, professor Şəmsəddin Hümmət oğlu Hacıyev cənabları kimi alicənab addım atan olmamışdır.

Ş.H.Hacıyev 100 il bundan əwəl olunan vəsiyyətə (7 aprel 1907-ci il) əməl edib, Universitetin Elmi Şurasmda qərar qəbul etdi: Binanm müəllifi Azərbaycanda etdiklərinin sayı hesaba gəlməyən xeyriyyəçi, milyonçu Ağa Musa Nağıyevin və oğlu İsmayılm portretləri Universitetdə asılsm!

Ağa Musanm bu vəsiyyəti 11 aprel 2007-ci ildə həyata keçdi!

Bu gün Ağa Musanm ruhu illərlə həsrətində olduğu arzusuna çatdı. Universitetdə təhsildə fərqli tələbələrə Ağa Musa Nağıyev adma təqaüt verilir.

Biz, onun nəvələri Dilarə və Solmaz xanım bu sətirlərlə öz dərin minnətdarlığımızı rektorluğa bildiririk:

Hörmətli Şəmsəddinmüəllim! Allah Sizə yar olsun! Siz bu hərəkətinizlə binanm halallığmı aldmız.

Bu işdə bizə köməklik edib ideya verən və ən əsası bizə dəstək verənlərə: Xalidə Yusifovaya - Universitetin Tələbə şöbəsinin müdiri, Zəfər Bayramova - rektorun ictimaiyyət və əlaqələr üzrə köməkçisi, Elnur Məmmədova - Tələbə-Gənclər Təşkilatının sədrinə dərin minnətdarlığımızı bildirib, deyirik: Ağa Musa ruhu Sizə duaçı olsun! Arzumuz budur ki, kimsəsiz, kasıb, imkansız tələbələrə əl uzatmaqda Ağa Musa dəsti xəttini davam edəsiniz. Əl tutmaq Əlidən qalıb deyirlər. Yaxşılıq heç vaxt yerdə qalmır.

Şəmsəddin müəllim, Siz öz əməllərinizlə xeyirxahlıq etdiniz.

**P.S.** Ağa Musa oğlu İsmayıl bəyin dərdinə çarə tapa bilməyib, əvəzində «simic» damğası ilə damğalanıb. Bəs necə olur ki indiki <<milyonçular» «Yeni Bakılılar» xərçəng və spidin müalicəsinə çarə tapa bilmirlər? Bəlkə onlar yaxmlarmm halma qalmağı bacarmırlar? Sadəcə başa düşmək lazımdır ki, bəzən pul da xəstəliyin qarşısmda əlacsızdır. Ən başlıcası söz yarasma

məlhəm tapmaqdır-budur insani xüsusiyyət.

Qurani Kərimdə belə bir ayə var: Sənə verilən ömür paymı yaşamaq özündən asılıdır. Dünya gəlirli və gedərlidir. Vaxtı ilə Ağa Musa deyirmiş insanlar vara çatır, amma dar ayaqda adama əl uzadan olmur.

Qarşımızda olan əsas məqsəd Ağa Musanm bəxtəvər olub, bəxtsiz dünyasma işıq salmaq, onun etdiklərini bir daha açıqlamaqdır.

Təsərrüfat aləmində belə bir məqam var: məhsul bar verəndə, adam yerə göyə sığmayır, bar gətirməyəndə isə...

Məndə Ağa Musa işinə inam var. Mütləq barmı görəcəyik.

Şüarım budur: gəlin birlikdə Bakımız üçün yanaq, birlikdə xeyriyyəçilərimizin etdikləriniüzə çıxaraq.

Arzularımız çin olarsa, biz də mənən özümüzə rahatlıq taparıq.



AzDİU, "Heydər Əliyev iqtisadi irsinin öyrənilməsi mərkəzi"nin açılışı. 10 dekabr 2005-ci il

AzDİU, Tələbə Gənclər Təşkilatmda görüş.



*Разрешаю*

МИНИСТЕРСТВО НАРОДНАГО ПРОСВѢЩЕНІЯ.

ПОПЕЧИТЕЛЬ КАВКАЗСКАГО УЧЕБНАГО ОКРУГА

КАНЦЕЛЯРІЯ

Отд. I стол. I

13. ноября 190 г.

№ 20115

Тифлисъ.

ДОКЛАДЪ.

Директоръ Бакинскаго реальнаго училища рапортомъ отъ 25 октября сего года за № 1854, донесъ мнѣ, что Бакинскій первой гильдіи купецъ Ага Муса Нагіевъ изъявилъ готовность пожертвовать на отдѣлку зданія названнаго выше училища, двадцать пять тысячъ (25000 р.), при чемъ г.Нагіевъ высказалъ слѣдующія пожеланія:

1) открыть при реальномъ училищѣ подготовительный классъ для неграмотныхъ дѣтей мусульманъ, которые могли бы поступать потомъ въ младшій приготовительный классъ реальнаго училища, съ отнесеніемъ расходовъ по содержанію этого класса на счетъ сбора платы за ученіе съ учащихся послѣдняго и

2) чтобы портретъ его сына, бывшаго ученика Бакинскаго реальнаго училища Исмаила Нагіева, въ память котораго отецъ жертвуетъ деньги, а также и портретъ самого жертвователя г.Нагіева повѣсить въ актовомъ залѣ училища.

Докладывая объ этомъ и принимая во вниманіе то матеріальное затруднительное положеніе, которое въ настоящее время переживаетъ Бакинское реальное училище вслѣдствіе недостачи строительнаго кредита на окончаніе постройки зданія для него, я имѣю честь почтительнѣйше просить разрѣшенія Вашего Сіятельства на принятіе названнымъ выше училищемъ денежнаго пожертвованія г.Нагіева, но съ тѣмъ, однако, чтобы, во первыхъ, открыть при Бакинскомъ реальномъ училищѣ

ЕГО СІЯТЕЛЬСТВУ,
Намѣстнику ЕГО ИМПЕРАТОРСКАГО ВЕЛИЧЕСТВА на Кавказѣ.

подготовительный классъ для неграмотныхъ дѣтей мусульманъ, ко-
торые могли бы потомъ поступать на общемъ основанiи (св.зак.
т.XI ч.I ст.1711) въ младшiй приготовительный классъ реальна-
училища, и содержанiе его отнести на сборъ платы за ученiе с
учащихся этого класса, во вторыхъ, повѣсить портреты г.Нагiева
и сына его въактовомъ залѣ училища и, въ третьихъ, выразить
г.Нагiеву за его щедрое пожертвованiе отъ имени Вашего Сiят-
ства благодарность.

Попечитель

Правитель Канцелярiи



СПИСОКЪ СЛУЖАЩИХЪ ВЪ БАКИНСКОМЪ РЕАЛЬНОМЪ УЧИЛИЩѢ НА 1913 ГОДЪ.

| | Должность, чинъ и фамилія | Время поступленія на службу | Какую получилъ последнюю награду. |
|---|---|---|---|
| I | Почетный Попечитель Муса Нагіевъ.... | Съ 1908 г.22 декабря | Въ 1910 г. 6 мая золотую шейную медаль на Андреевской лентѢ. Въ 1909 г.Св.Станислава 3-й степени |
| 2 | Почетный Попечитель Муртуза Мухтаровъ | "1910 г.15 марта | Не получалъ |
| 3 | Директоръ Дѣйствительный Статскій Совѣтникъ Л.В.Денфер | "1879 г.7 декабря | Въ 1911 г.Св.Станислава І-й степени |
| 4 | Инспекторъ Надворный Совѣтникъ Н.П. Поповъ... | "1904 г.12 августа | "1911 г.Св.Анны 3-й степени. |
| 5 | Законоучитель православнаго вѣроисповѣданія Протоіерей А.И. Юницкій...... | "1882 г.27 іюля | "1911 г.Св.Владимира 3-й степени. |
| 6 | Преподаватель русскаго яз., не имѣющій чина, В.І. Мицкевичъ... | "1909 г.20 августа | Не получалъ |
| 7 | Преподаватель русскаго яз. и истории не имѣющій чина М.А. Столяренко | "1912 г.19 [illegible] | Не получалъ |
| 8 | Преподаватель нѣмец.яз.Статскій Совѣтникъ В.Л. [illegible]ЕРЪ.... | "1878 г.28 іюля | Въ 1905 г.Св.Анны 2-й степени |
| 9 | Преподаватель франц. яз. не имѣющій чина П.І. [illegible]... | "1909 г.7 января | Не получалъ |
| 10 | Преподаватель математики Статскій Совѣтникъ И.[illegible] ДАНИЛОВЪ.. | "1889 г.26 февраля | Въ 1909 г.Св.Станислава 2-й степени |
| II | Преподаватель математики Статскій Совѣтникъ Л.Ф. БУЙНИЦКІЙ.. | "1893 г.I сентября | "1909 г.Св.Анны 3-й степени |

## ŞƏMSƏDDİN HACIYEV AĞA MUSA NAĞIYEVİN VƏSİYYƏTİNƏ ƏMƏL ETDİ.

Azərbaycanm on bir əski milyonçularmdan birincisi olan Ağa MusaNağıyev tikdirdiyi binaların sayma (98) və varidatma (690 milyon qızıl) görə digərlərindən fərqlənir.

Belə bir xeyriyyəçinin nəşi öz doğma torpağmda dəfn edilsə də, qəbr yeri üç dəfə məcburi dəyişdirilmişdir. Ağa Musanm ruhu heç cürə rahatlıq tapmırdı. Lakin dördüncü dəfə Axund Hacı Əvəzin fədakarlığı və səyi nəticəsində Ağa Musa Nağıyevin ruhu 1998-ci ildə rahatlıq tapdı. Biləcəri qəbirstan-lığmda qəbrüstü abidəsilə onun xatirəsi əbədiləşdirildi.

Ağa Musa Nağıyevin tikdirdiyi, lakin uzun müddət Semaşkonun admı daşıyan xəstəxana da artıq onun öz adı ilə xalqa xidmət edir.

Ağa Musa Nağıyevin çalışdığı - millətini savadlı görmək idi. Bundan ötrü o, gənclərin maariflənməsi üçün 1907-ci ildə Realm məktəbinin tikintisini başa çatdırmış, hər il 25 müsəlman qızma himayədarlıq etmiş, onlarm təhsil haqlarmı üzərinə götürmüşdür. Ağa Musanm ən böyük arzusu məktəbin akt zalmda, vaxtilə bu məktəbdə təhsil almış, dünyasmı çox gənc ikən dəyişmiş oğlu - İsmayıl ilə birlikdə öz portretini görmək idi.

100 il sonra, onun bu arzusu həmin məktəbdə, hal-hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin yerləşdiyi binada, rektor Şəmsəddin Hacıyevin səyi nəticəsində həyatakeçdi. Hörmətli Şəmsəddin müəllimin belə bir xeyirxah əməli həyata keçirdiyini qeyd edib minnətdarlığımızı bildirdik. Əminik ki, bir Millət vəkili kimi xalqm qayğısma qalacaq, onların rifah halının yaxşılaşmasma çalışacaq və keçmiş xeyriyyəçilər Ağa Musa Nağıyev, Hacı Zeynalabdin Tağıyev kimilərin xeyirxah işlərini davamedəcək. Bunaböyük ümüdbəsləyirik.



Universitetin Elmi Şurasının Qərarma Əsasən 11.04.2007-də Ağa Musa və İsmayıl Nağıyevlərin portretlərin yenidən işıq üzü gördü

**Ağa Musa Nağıyevin vəfatının 85 illiyinə həsr edilir**

Bir zamanlar bu dünyada, Nər
kişilər şad oldular. Baharm bir
xoş anmda, Ər kişilər yad
oldular. Bəli dünya ulu dünya

Ölümlüdür, itimlidir. Yeri, göyü sulu
dünya, Ölüm su tək içimlidir.

Bu dünyayabir zamanlar,
AğaMusanəzər saldı. Nəzərləri
daş binalar, Silinməyən izi
qaldı.

Bu dünyaya bir zamanlar, Zeynalabdin
nəzər saldı. Qədəm qoydu Kərbəlaya,
Hacı təkin adı qaldı.

Bəli dünya həmin dünya,
Nəzər salan sevimlidir. Kimə
verdi əlin dünya, Gəlimlidir,
gedimlidir.

**Mahcamal**

**Ağa Musa Nağıyevin vəfatının 86 ili tamam oldu (1919-2005)**

Azərbaycanın ilk neftxudalarmdan olan, mesenat, milyonçu Ağa Musa Nağıyevin vəfatmdan 86 il keçməsinə baxmayaraq, başı çox bəlalar çəkmiş qəbri cəmi 7 ildir ki, rahatlıqtapıb.

Biləcərili Ağa Musanm qəbri vəsiyyətinə görə Kərbəla ümidi ilə düz 80 il əmanət qalmış, 1998-ci ildə xeyriyyəçi Hacı Əvəzin vəsaiti hesabma ata yurdunda daimiləşdirilmişdir.

Tikililərinə və varma görə başqa milyonçulardan fərqlənən, 98 binası ilə Bakmm arxitekturasma gözəllik bəxş edən Ağa MusaNağıyevi, acı tale heç vaxt rahat buraxmırdı.

Əwəlcə yoxsulluq, ağır uşaqlıq illəri, sonra isə qızıl teşt içində qan qusmaq elə bil onun tale yazısı olmuşdur. Qızı və oğlunun erkən dünyalannı dəyişmələri onun belini bükür. Qardaşı oğlu Fərəci oğulluğa götürüb varis edən Ağa Musa, təsəllini yalnız onda tapır.

1919-cu ildə Fərəc 16 yaşmda, hələ həyatı yenicə dərk etməyə başlayar-başlamaz, Ağa Musa vəfat edir.

Soyadının 29 il sürgünü olan, başı çox bəlalar çəkən Fərəc, Bakıya dönərkən ailəsinə yenidən gözlənilməz damğalarm vurulması haqqmda düşünürdü.

1938-1943-cü illərdə ona gələn vərəsəlikdən <<imtina>> etdikdə belə onu ancaq ailəsinin təhlükəsizliyi düşündürürdü. Elə bu səbəbdən o zamanlar Ağa Musa adma nə bir küçə, nə bir xeyriyyə cəmiyyəti, nə də tikililərinin üzərində bir xatirə lövhəsi olmayıb. Bu yaxmlarda İsmailiyyədə, indiki Elmlər Akademiyası Rəyasət Heyətinin binasmda konfrans zalının Nəsrəddin Tusi adını daşıdığının şahidi oldum. Baxmayaraq ki, neçə illərdir bu binanm qarşısmda Ağa Musaya xatirə lövhəsinin vurulması üçün çalışsam da, indiyədək heç bir irəliləyiş olmayıb. Düşünürəm ki, gələcək il dönümlərinin birində mənim arzum həyata keçəcək. Hələlik bu gün bizi Ağa Musa Nağıyevin qəbrinin rahat halda olması qane edir.

*Bir zamanlar bu dünyada, Nər kişiləryaşadılar. I z  qoyan var, bu dünyada, Ər kişiləryaşadılar.*

*Bəli, dünya qan dünya, Nə qədər şah taxtı görüb. Verməz dövlət, van dünya, Varda zaman, vaxtı görub.*

*Zaman vardı bu dünya bir, Ağa Musa Nağıyevin. O vaxt Hacı, indisəpir, Zeynalabdin Tağıyevin.*

*Neçə-neçə mülk ucalır, Nağıyevin, Tağıyevin. O mülklərdən ruhlar baxır, Nağıyevin, Tağıyevin.*

*Bəli, dünya həmin dünya, Gəlimlidir, gedimlidir. Az deyil dərd, qəmin dünya, Ruhlan da sevimlidir.*

**Mahcamal**

## "İsmailiyyə " Bakı üçün Ağa Musanın ixtirasıdır

Məşhur milyonçunun ölümündən 87 il ötür (1919-2006)



XIX əsrdə yaşayıb yaratmış milli kapitalistlərimizdən olan Ağa Musa Nağıyevin vəfatmdan artıq 87 il ötür. Kimdir A.M.Nağıyev? Adi bir samançı ailəsində dünyaya göz açan, uşaqlıqdan ağır zəhmətə qatlaşan, cavanlıqda axrasmda palan ona-buna şələ daşıyan zəhmətkeş azərbaycanlı oğlu. Ağır əmək hesabma pul yığıb aldığı kiçik torpaq sahəsində fəhlələrlə birgə su quyusu qazarkən fontan vuran neft anbarına sahib olmuş milyonçu. O, ağır günlərini heç vaxt unutmayan, pulunun qədrini bilib, qənaətçil, ancaq yeri gələndə varmı xalqm xeyrinə, Azərbaycanm inkişafma, milli kadrlarm yetişməsinə, gənclərin savadlanmasma, şəhərimizdə yaraşıqlı binalarm ucalmasma xərcləməkdən çəkinməyən məşhur xeyriyyəçi olub.

Lakin onu uzun illər xalqımıza əfsanəvi milyonçu, soyğunçu burjua nümayəndəsi, xəsis bir insan kimi tanıdıblar. Yəqin ki, Ağa Musanı soyğunçu, xəsis adlandıranlar onun əsl tərcümeyi halının ilk növbədə xeyirxahlıqdan və vətənpərvərlikdən başlandığmı qəsdən görmək istəməyiblər. Amma tarix öz sözünü deyir. A.M.Nağıyev özündən sonra "İsmailiyyə", "Qış Evi" (indiki Zabitlər Evi), "Yeni Avropa" ("Göy Göl") və "Astoriya" mehmanxanaları, uzun müddət "Semaşko" və "Şaumyan" kimi tanıdığımız xəstəxanaları və s. möhtəşəm tikililəri qoyub gedib. Əgər incəsənətin keçid dövrü Moskvadakı Morozovun mülkü hesab edilirsə, Azərbaycanda da "İsmailiyyə" qotikasmı Ağa Musanm ixtirası hesab etmək olar.

Ağa Musa Nağıyev Bakıya Şollar suyunun çəkilmə xərcinin yarısmı ödəyib, Realm məktəbinin (Azərbaycan Dövlət İqtisad Universitetinin binası) illərlə yarımçıq qalmış tikintisini başa çatdırıb, hər il 25 müsəlman qızm təhsil haqqmı ödəyib.

Azərbaycan tarixinə şərəfli səhifə açan A.M.Nağıyev və onun kimi milyonçuları xəsislikdə ittiham etmək ən azı ədalətsizlikdir. Unutmaq lazım deyil ki, qurub yaratdığı 98 nəhəng tikililərilə Azərbaycanı dünyaya tanıdan A.M.Nağıyev olmuşdur. O, şəhərimizin 28 may küçəsini bəzəyən bütün binalarm müəllifidir.

Ağa Musa maarifçilik işlərinə kifayət qədər böyük ianələr verib. Şəmsi Əsədullayev birdən-birə bütün var-dövlətini itirdikdə məhz "xəsis neftxuda" onun dadma çatır və müflisləşməkdən xilas edir. O, kasıb, imkansız ailə başçılarmm vəsiyyətinə əməl edib, 35 nəfərin Kərbəlada dəfn edilməsini də üzərinə götürüb. İri neft firmalarmda sahibkarlıq edən milyonçu 1890-1895-ci illərdə nəinki Azərbaycanda və Rusiyada, eləcə də xaricdə məşhur olub. Onun istehsal etdiyi "Qara qızıl"m -neftin miqdarı 1913-cü ildə 13 milyon puda çatıb və o, rekord vurub.

Artıq varisləri tərəfindən 15 ilə yaxmdır ki, A.M.Nağıyev ətrafmda ədalətin bərpası uğrunda iş aparılır. Nağıyevlər nəslinin az qalmış nümayəndələri həyatdan köçmüş layiqli insanm başa vura bilmədiyi işləri davam etdirəcəklərini, qüvvələrini xeyriyyə işlərinin bərpasma yönəldəcəklərini bildirirlər. Onlar ümidvardırlar ki, tarix həqiqəti öz yerinə qaytaracaq.

**Ülvinə (Yeni Azərbaycan qəzeti, 4 mart 2006)**

## DÜNYANIN MALI DÜNYADA QALAR

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda yeni təbəqə formalaşmağa başlamışdı. Bu, Azərbaycanda, xüsusilə Bakıda neftin istehsalı və emalı ilə məşğul olan milli kapitalistlərin yetişməsi dövrü idi. Həmin dövrdə Azərbaycanda fəaliyyət göstərən Rusiya, Almaniya, Fransa və Nobel qardaşlarına məxsus neft maqnatları əslində Bakı neftini istismar etməklə, bir növ oğurlamaqla məşğul idilər. Məhz belə bir dövrdə milli kapitalistlərin yetişməsi bu problemin qarşısmı alır. Milli zənginlər əsas neft mədənlərini ələ keçirərək, oradan qazandıqları vəsaitin böyük hissəsini millət, xalq naminə xərcləməyə başlayır.

Elə bu zamanlar A.M.Nağıyev, H.Z.Tağıyev, M.Muxtarov, İ.Hacmski, H.Aşurbəyov kimi şəxsiyyətlər mənəviyyatımızı,

iqtisadiyyatımızı qorumaqla bərabər, bütövlükdə dövlətçiliyimizi qoruyublar.

Əvvəllər deyirdilər ki, xarici qonaqlar İçərişəhərdə olmayıblarsa, deməli, Bakıda olmayıblar. İndiisə deyirlərki, hər bir əcnəbi Bakıdan gedərkən «İsmailiyyə>> binasmı görməyib və onun fotosunu əldə etməyibsə, deməli Bakmı görməyib (Azərbaycan İnterneyşnl jurnalmdan). Bina bütövlükdə bir sirdir. Yan fasadlardan 6-7 mərtəbə, qarşıdan baxanda isə 2 mərtəbədir. Daş ustalar: Usta Hənifə, Hacı Abbas, Hacı Xeyrulla, Usta Salman indi də hörmətlə yad edilməlidir. Allah onlara rəhmət eləsin.

Dünənədək soyğunçu burjua nümayəndəsi kimi tanıdığımız Ağa Musa Nağıyev və bu kimi milyonçularm əsil tərcümeyi halı ilk növbədə xeyirxahlıq və vətənpərvərlikdən başlanır. Ulularımız düz buyurub ki, qazanılan dünya malmı heç kim özü ilə nahaq dünyadan haqq dünyasma aparmayıb. Qalan yalnız yaxşı ad, yaxşı əməllər, tikib yaradılan, xalqm, elin, obanm xidmətinə verilənlərdir. Lakin hərdən tarixin ədalətsizliyi ilə də üzləşirik. İnsanm gördüyü böyük-böyük işlər keçir arxa plana, bəzən bilərəkdən unutdurulur, əvəzində isə onun xarakterinin müəyyən bir cizgisi şişirdilir. Və həmin şəxsin kimliyi gələcək nəsillərə təhrif olunaraq çatdırılır. Belə insanlardan biri də Azərbaycanm böyük oğlu Ağa Musa Nağıyevdir.

Dünənimizlə maraqlananlar, tarixi keçmişimizə nəzər salanlar A.M.Nağıyevi əfsanəvi milyonçu və xəsis bir adam kimi tanıtdırmağa çalışıblar.

Lakin bu doğrudanmı belədir?

Sadəcə olaraq bu insanm tikililərinə nəzər salaq. O tikililər bu gün şəhərimizin ən dəyərli memarlıq abidələrindəndir. Bu binalardan bir neçəsinin admı çəkmək kifayətdir: «İsmailiyyə», «Qış Evi>>(indiki Zabitlər Evi), «Yeni Avropa»(«Göy-göl») və «Astoriya» mehmanxanaları, uzun müddət «Semaşko» və «Şaumyan» kimi tanıdığımız xəstəxanalar və sair. Bu qədər möhtəşəm tikili qoyub getmiş adamı xəsis adlandırmaq olarmı?

Bakı milyonçusu Ağamusa Nağıyevdən söhbət gedir. 80 il əmanət qəbrində uyuyan Ağamusadan... Həmin Ağamusadan ki, Bakıda 100-ə yaxın memarlıq incisi olan binalar tikdirib, neft mədənlərində, fabrik və zavodlarda, liman və gəmilərdə insanlara iş verib, oğul-qızlarımızı oxutdurub, öz vəsaitinə xaricə təhsil almağa göndərib. Sovetlər dövründə Ağamusa Nağıyevdən və onun kimilərindən "xalq düşməni" kimi danışmaq dəbdə idi. O zamanın ideologiyası bunu tələb edirdi. Milyonçusan - deməli xalq düşmənisən. Çox qəribə məntiqdir. Bütün xeyirxah əməllərdə "milyonçu", damğası ilə silinirdi. Bu günümüzdə əksinə "milyonçu" adı ilə öyünən kişilər xalqının dostudur?.. Torpağından, suyundan xeyir götürüb, neçə məktəb tikdirib öz puluna uşaq oxutdurub?

Fabrik açıb neçə həmvətənini işlə, çörəklə təmin edib? Xəstəxana tikdirib neçə əlacsıza əlac verib, şəfa yetirib?

Bu kiçik məqaləni, yazmaqda məqsəd isə oxucuların Ağamusa Nağıyev kimi unudulmuşlara qarşı marağını artırmaqdır. Davamını isə güman edirəm tarixçilərimiz, araşdırıcılarımız və bu kişilərin törəmələri jurnalın gələn saylarında daha ətraflı açıqlayar. Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, özüm də Ağamusa Nağıyevin oğlu İsmayılın ölümündən sonra dünyaya gəlmiş və oğulluğa götürülmüş qardaşı oğlu Fərəcin nəvəsiyəm və bu kişilərin övladı olmaqla fəxr edirəm. Fərəc, yəni kədərdən sonra gələn sevinc, - bu adı babama Ağamusa verib...

Ümid edirəm ki, yenicə işıq üzü görmüş "Oğuz yurdu" jurnalı dahi ərənlərin əməllərini yaddaşlarda qoruyub yaşadacaq, onları sevə-sevə təbliğ edib millətlərə tanıtdıracaq. Xüsusi ilə hörmətli Prezidentimiz, dəyərli cənab İlham Əliyevə müraciət edib məsuliyyətli yolunda dağlar kimi möhkəm can sağlığı arzulayıram. Cənab Prezident! Sizin yolunuz həm şərəfli, həm çətin yoldur. Çünki xalqın ümidlərini doğrultmaq məsuliyyətli və əzablı işdir. Ümidlər isə çoxdur. Arzu edirəm ki, xalqınızı arxanızda həmişə dayaq kimi hiss edəsiniz, xalq isə öndərı ilə fəxr etsin.

İmkandan istifadə edib bu gözəl jurnalın səhifələrindən, Sizdən Azərbaycanın tarixində böyük rol oynamış insanların taleyinə diqqət yetirmənizi, həmin insanların xələflərinin bacarığından, savadından, istedadından dövlətin, xalqın inkişafı üçün istifadə etməyinizi xahiş edirəm. Biz Sizə bu yolda fəal köməkçi olmağa hazırıq!

**Gülşən Tofiq qızı**

# "Я ВОЗДВИГ, ЧТОБЫ ПОМНИЛИ"

Ни людская разноголосица, ни шум автомобилей не могут заглушить голоса Баку, которые я слышу на улочках Ичери шехер. Не каждому дано услышать эти звуки, не всем доступен язык истории. Так и хочется закричать: "Эй, вы, небоскребы, заносчивые и надменные! Не кичитесь своей фальшивой бетонно-зеркальностью! "Исмаиллийя" – вот истинный драгоценный камень в короне Баку! В ваших фасадах нет души. И сами вы бездушны, как автоматы и компьютеры. А старинные Бакинские здания живут, как люди. Иногда их даже убивают, принося в жертву вам ..."

Я хотела бы пригласить читателей в старый пригород Баку – поселок Баладжары. А точнее, на баладжарское кладбище. Не возражайте и не бойтесь! Кладбище не всегда означает "конец жизни". Как много могил, превратившихся в бессмертные памятники истории! Вот и на этом кладбище появилась такая. В сущности, она и стала пока единственным памятником человеку, построившему в Баку около сотни прекрасных зданий. Речь идет об Ага-Мусе Нагиеве.

О том самом, останки которого обрели надгробие лишь через 80 лет!

О том самом, что обеспечивал людей работой на своих буровых, заводах, портах и кораблях, за свои деньги направлял на учебу за границу десятки азербайджанских юношей. В достопамятные советские годы таких, как Ага-Муса Нагиев называли врагами народа. Того требовала идеология. Раз человек миллионер, значит – враг. Странная позиция: все заслуги Мусы Нагиева перед отечеством были перечеркнуты одним словом "миллионер". Сегодня дела обстоят иначе. Но можно ли с уверенностью назвать иных из нынешних миллионеров друзьями своего народа? Обогатившись засчет недр, земли и даже воды своей родины, многие ли из них построили школы, занялись благотворительностью, обеспечили людей работой, помогли обрести здоровье в новых лечебницах, дали кому-то шанс на спокойную и безбедную старость?

Цель этого небольшого очерка заключается в том, чтобы разбудить интерес к таким нашим соотечественникам, как Ага-Муса Нагиев. Развить эту тему – дело историков и исследователей. Я же призываю читателей чтить память наших предшественников, которые улучшая и украшая жизнь своих земляков, думали о будущем. Они сами себе возводили эти памятники добрыми делами, прекрасными зданиями, чудесными парками и садами. За свой, замечу, счет! Присмотримся же к тем каменным кружевам, старинным вензельным знакам, венчающим созданные М.Нагиевым дома. Они смотрят на нас с такой болью и укором! Прислушаемся, как вздыхают камни родного города, пожираемые иностранными экскаваторами. Поверьте, они менее каменные, чем души иных чиновников...

Завершая эту небольшую зарисовку, хочу предложить читателям стихотворение, посвященное бесценному украшению города – "Исмаиллийя", храму азербайджанской науки, отстроенному Ага-Мусой в память о своем сыне. Здания, как и люди, имеют не только возраст, но и характер. От одних веет мудростью, благородством и достоинством. От других – беспечностью и праздностью. От третьих – холодом и безразличием. Первых я люблю. Вторых презираю. Третьих боюсь...

*Произнесено слово,*
*Но не услышано.*
*Промелькнуло лицо,*
*Но не узнано.*
*Память – в пыльном углу:*
*Золотое кольцо*
*Закатилось туда,*
*Где не убрано.*
*Я не строил для имени,*
*Строил во имя я.*
*Чтоб развеялась грусть,*
*Чтоб утихла бы боль моя.*
*Я воздвиг, чтобы радовать*
*Души, глаза, поколения.*
*Перед горем спины не согнул*
*И не встал перед*
*ним на колени я.*
*Вас прошу об одном:*
*Разыщите ту память – кольцо!*
*Чтобы жизнь сыновей*
*Продлевалась делами отцов.*

**Гюльшан Тофик гызы,**
**внучатая племянница**
**Ага-Мусы Нагиева**

**Maraqlı lıadisə**

Solmaz xanımm oğlu Rövşənin həyat yoldaşı tanmmış Hacıbəylilər nəslindəndir. Bu nəsildən olan Nərminə ailəsi ilə vaxtı ilə Bakıdaevlərini satıb, Almaniyadaməskunlaşıb.

Hər il yay mövsümünü onlar Bakıda keçirir və artıq yeri təyin edilmiş restoranda ziyafət verib, doğmaları ilə görüşür. Nərminə həmişə belə sağlıq deyirdi: "bir az pul əldə edən kimi, mən Bakıda ev alacağam ki, vətənə gələndə özümüzü qonaq deyil, ev yiyəsi kimi hiss edim". Bu mənim ən ümdə arzumdur. Çünki vətəndə olarkən evsizlik məni üzür. Baxmayaraq ki, o, xaricdə dolanacaq tapıb, amma xarici ölkə doğma Bakmı heç cürə əvəz edə bilməyir.

Atalar misalı var ki, gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı.

Artıq Rövşən bu ziyafətdə bir neçə ildir ki, iştirak edirdi. Belə ziyafətlərin birində masabəyi məclisi şən keçirmək üçün hərəyə belə bir sual ilə müraciət edirdi: "əgər sizə dövlət üz verərsə nə edərsiz?"

Hərə öz bildiyi kimi cavab verir. Növbə Rövşənə çatanda, o masabəyinə deyir: - mən milyonçu Ağa Musanm nəticəsiyəm. Mənim anam Solmaz və xalam Dilarə çoxdandır nəsil şəcərəsinin işi ilə məşğuldurlar.

Yeri gəlmişkən bir haşiyə çıxmaq istərdim (Dilarənin söhbəti):

«Fərəc rəhmətə gedənədək (1973) soyadının ağrısmı o qədər çəkmişdi ki, atası Ağa Musadan çox az informasiya verər, bəzən isə çalışardı ki, sualı cavabsız qoysun. Belə ki, dünyasmı dəyişənədək Ağa Musanm varidatmm İsveçrə bankmda 70 milyon olduğunu söyləyərdi.

Sonradan mənim təsadüfən rast gəldiyim yaşlı insanlar, Ağa Musanm milyonçular arasmda ən varlı olduğunu və onun varidatmm 413 milyona çatdığmı söyləyib, bunu qanuni olaraq təsdiqlədilər. Daha sonra "Ədəbiyyat və İncəsənət" arxivinin fondunda Fərəcin xatirələrində "Ağa Musa atamm varidatı 400 milyonukeçmişdi" sözləri əksini tapdı.

Bunu niyə etdiyi məlum məsələdir. Səbəb 29 il vətəndən didərgin düşməsi idi.

Sonradan bizə xəbər çatdı ki, Sankt-Peterburqda «Monetnı dvor»un nəşr etdiyi kataloqda Ağa Musanm varidatmm 690 mln. olduğu qeyd olunub.

Bu gün bu qədər məbləğin Azərbaycana gətirilməsinə marağımız var və bu sahədə iş aparılır».

Rövşən arzusunu belə bildirir: əgər ulu babamm milyonlarmdan və yaxud mirasmdan bizə nə isə çatarsa, mən şəxsən Nərminə xanımm istəyinə əməl edib, ona bir yaşayış ocağı ayıracağıma söz verirəm.

Bəli arzularımız çoxdur, bunabizim haqqımız var! Vaxtı ilə aim təri ilə öz halal zəhməti sayəsində qazandıqları pula məhz Ağa Musa Nağıyev və H.Z.Tağıyevin səyi nəticəsində Bakıya çəkdirdikləri Şollar suyuna indi iranlı Paulo Pərviz Ağanmböyüklük etməsi də ağlasığmazdır.

Ağa Musa da o biri milyonçular kimi sıfırdan başlamışdır. Etdikləri ilə hamısmdan fərqlənsə də yaddaşlara az yol tapmışdır.

Misal var ki, ölüləri qoyub, dirilər üçün ağlamazlar. Bircə dəfə görmədiyimiz bir insanm haqqmda söylənilən xeyirxah əməllər cild-cild kitablara da sığmaz. Biz onları Şeyx Nəsrullahlıq edərək, diriltmək cəhdindən vaz keçsək də, xeyirxah əməllərin sahibi olduqları üçün hər zaman anmağa borcluyuq. XXI əsrin astanasmda «xeyirxahlarm» hakimi mütləq olduqları ölkədə yaşayırıq və nəinki o kişiləri, az qala özümüzü də unutmaq astanasmda idik.

Bütün bunları Ağa Musaya Xatirə lövhəsini və bir də küçəyə admm verilməsi işini ləngidənlərə, bunu ona çox görənlərə ünvanlayıram.

Hayıf ki, indi üzləri tüpürcəkdən islananlar, o biri üzünü çevirib, Allahm şehidir deyib, silənlər çoxdur.

**MİLYONÇUNUN NƏVƏLƏRİ VARİSLİYƏ İDDİALIDIR Onlar deyirlər: soyadımızdan qorxurduq**

Birinci dərəcəli sahibkar, milyonçu Ağa Musa Nağıyev inqilabadək Azərbaycanm ən görkəmli və varlı nümayəndələrindən olub. Məhz neftin inkişafmda onun böyük roluolub.

Atam Fərəcə qismət olmayan vərəsəlik haqqmda: 1938 və 1943-cü illərdə NKVD-nin podvalmda onu məcburiyyət qarşısmda qoymaqla, sözün əsl mənasmda «olum və ya ölüm>> səhnəsini yaşayıb, İsveçrə bankmdan gəlmiş pullardan imtina edib, «yetimxanalarabağışlamışdı>>.

Bu gün bizim və bütövlükdə Respublikamızm maddi ehtiyac duyduğu bir zamanda, niyə 690 mln. Ağa Musanm halallıqla qazandığı pullar Azərbaycanımıza gətirilməsin?

Əsrin əwəllərində Azərbaycanda neft sənayesinin sürətlə yüksəlişi tez bir zamanda milli burjuaziyanm formalaşmasma səbəb olur. Uzun müddət sadə xalqm düşməni kimi təqdim edilən burjuaziya haqqmda formalaşmış təsəwürlər məhz sovet epoxasmdan bu sinfin bir çox nümayəndələrinin xidmətləri, xalqm nəfinə gördüyü işlər, həm xatirələrdə yaşayan, həm arxiv sənədlərində qeyd olunan fəaliyyətləri üzə çıxandan sonra alt-üst oldu.

Ağa Musa Bakmm iri neft maqnatları arasmda Nobel qardaşlarından sonra ən varlı və mötəbər milyonçu olub. Mübaliğəsiz demək olar ki, Bakıdakı ən gözəl binalar Ağa Musaya məxsusdur.

1998-ci il iyulun 23-də, Ağa Musanm dördüncü dəfni zamanı nəşi kəfənə tutularkən, düşünən belə olmazdı ki, bir ilin tamammda Rauf - Fərəcin oğlu özü qəbir evinə köçəcək.

Mən və bacım Solmaz yetim-yesirə o qədər ürək yandırırıq ki, hərdən özümüzü unutduğumuzu düşünürük. Misal var deyirlər ki, sən yaxşılıq elə at dəryaya, balıq bilməsə, Xalıq

biləcək.

Bəs Xalıq bilməyir axı? Artıq Rauf dünyasını dəyişib, biz də ki, yaşlaşırıq.

**P.S.** Məhz mənim səyim nəticəsində Ağa Musa və Fərəcin yaradıcılığı haqqında radio dalğalarından eşitdikcə, televiziya verilişlərinə baxdıqca, mətbuat materiallarının sayı artdıqca sevinirəm, cavanlaşdığımı hiss edirəm. Bütün bunlara mən zəkam və ayaq döymələrimnəticəsində nail olmuşam.

Mən və Solmaz xanım ailə qurarkən, soyadımızın dəyişməsinə atam sevinirdi. Çünki bu soyad onun başına çox «bəlalar» gətirmişdi.

1968-ci ildə mən SovİKP sıralarına daxil olmuşdum. 1976-cı ildə Mərkəzi Komitədə kapitalistin nəvəsi kimi partiyaya <<soxulmağımı>> mənə irad tutmuşdular.

Görünür bunlardan uzaq olmaq niyyətilə atam Fərəc bildiklərini bizə danışmaz, gizlicə xatirə dəftərində qeydlər aparardı.

## QƏZƏL

***Azərbaycanın qeyrətli oğlu Ağa Musa Nağıyevin xeyriyyəçiliyibarədə nə qədəryazılsayenə də azolar.***
***Bu kiçik qəzəl onun xatirə gününə, vəfatından 87il keçməsinə həsr olunur.***

**Gülarə Munis**

Ya Rəbb, nə zaman bəs verilər insana qiymət? Qiymət
deyilən, ölçüyə gəlməz, bu həqiqət.

Göstərdi səxa, aləmə car oldu, nə fayda? Yox faydası
gör, yoxsa cahan içrə ədalət.

Torpaqdan alan sərvəti qaytardı dübarə,
Yüzdən iki əskik tikilən, qaldı imarət.*

Bərbad eləyəndir bu fələk, çox da güvənmə, Qəm
çəkməyi, Allah bizə göndərmiş əmanət.

Kim taptalasa özgəsinin haqqmı hərgah, Şəksiz
çəkəcək haqqm önündə o xəcalət.

On bir vətən oğlundan əzəl sən yada düşdün," Asian kimi
bir pəncələşən var, buna əlbət.

Munis əlini çəkdi qara mərmərin üstə, Zənn etdi ki,
Allah "Həcər"i eylədi qismət."*

Ruhun şad olsun Vətən oğlu!!!

İzahlar:
* Ağa Musa Nağıyev 98 möhtəşəmbinatikdirib, gələcək nəsillərə yadigarqoyub.
** Bakıda 11 neftmilyonçusuolub.
*** "Həcər" sözü Kəbədəki Həcər daşma işarədir.

## NEFT ABŞERONUN SƏRVƏTİDİR

Neft Bakıda qədimdən, özü də böyük miqdarda çıxarılıb. Hələ eramızdan əwəl mövcud olan neft qədim abidələrdə -Odlar yurdunda əl ilə qazılmış quyulardan çıxarılardı.

Keçmişin salnaməçiləri Bakı neftinin dəvə karvanma yüklənmiş tuluqlarla başqa yerlərə daşmdığı təsvir edib.

İllər ötdükcə şəhər sürətlə inkişaf edir, neft istehsalı da inkişafmı davam etdirirdi.

Artıq XIX əsrin axırlarında, XX əsrin əwəllərində Bakı neft paytaxtına çevrilir. Dünya miqyasmda şöhrət tapır. Dünya üzrə əldə edilən "Qara qızıl"m yarıdan çoxu Bakıda istehsal olunurdu. Məhz bu dövrdə neft texniki üsul ilə çıxardmağa başlayır.

Yaranmış "Neft maqnatları" xarici kapitalistlərin diqqətini cəlb edir. Bu baxımdan onlar Bakıda bir neçə firmanm əsasmı qoyurlar. Elə həmin dövrdə bu sahədə yaranmış sahibkarlar: A.M.Nağıyev, H.Z.Tağıyev, M.Muxtarov, Ş.Əsədullayev, İ.Hacmski, Ə.Aşurbəyov siyasi cəhətdən böyük nüfuza malik olan milyonçular - iri kapitalistlər neft maqnatlarma çevrilirlər.

Yaddan çıxarmaq olmaz ki, Bakmm iqtisadi və sosial mədəni inkişafmda onlarm bir çoxunun mühüm rolu olmuşdur.

1998-ci ildə "Kaspiangeofizikal"jurnalmdadərcedilmiş məqalədə Ağa Musa Nağıyev neftin nəhəng və görkəmli nümayəndəsi kimi qələmə verilmişdir.

Tarix boyu göstərilən faktlar onun həqiqətən neft sahəsində nəhəngliyini təsdiq edir. Bir daha sübut edilmişdir ki, Ağa Musa halal zəhməti və işgüzarlığı hesabma milyonçu olmuşdur.

Ədəbiyyatdan, tarixdən görürük ki, iş zəhmət sevir, zəhmət də insanı. Ağa Musa belələrindən olub, o zəhməti sevib - zəhmət də onu!

Xalqı ona qarşı bir qədər laqeyid oldu. O isə biganəlik etmədi, hər işi xalqmnaminə gördü və xalqıüçün qoyub getdi.

1920-ci ildən 1992-ci ilədək onun övladları və yaxmları heç nə edə bilmədi onun üçün. Beləcə nə az, nə çox onun vəfatmdan düz 80 il keçdi. Heç kim onun etdiklərini yada salmırdı, hətta onun vəsiyyətinə - Kərbalada dəfn olunma arzusunabeləəmələdə bilmirdi.

İndi biz deyirik: "Baba, sən narahat olma ki, sənin son mənzilin Kərbala deyil, sevin ki, ata yurdun Biləcəri kəndi oldu!"

Atalar misalmda da deyilir ki, gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı. Görünür bu da onun aim yazısı imiş. İndi biz deyirik: "Baba, sən ölməmisən. Sən diri ikən zühur olmusan. Sən həmişə yaşayacaqsan!"

Qəlbimizdə düşünürük ki, sən özün-özünə ömürlük xatirə lövhəsi qoyub getmisən. Sənin tikdirdiyin binalarm üzərindəki "Venzel"in öz əlin ilə zəhmətinə vurulan möhürdür!

Amma yenə də Ağa Musa Nağıyevə - bu nəhəng neft maqnatma bir xatirə lövhəsinin vurulması arzusundan əl çəkə bilmirik?!

**Tikdim ki, izim qala... Məşhur milyonçu Ağa Musa Nağıyevin ölümündən 87 il ötdü. (1919- 2006)**

Uzun illərin ötməsinə baxmayaraq, tarix Ağa Musa Nağıyevi yaddaşlardan silib, insanlaraunutdurabilməyib. O, öz əməllərilə, xeyriyyəçilik işlərilə hafizələrə hopub, orada özünə möhkəm yer tutub.

Onun vəfatmm 87 il dönümü günü, 2006-cı il martm 4-ü (1992-ci ildən etibarən hər il bu günü qeyd edirik) hava şəraitinə baxmayaraq tədbirə dəvət olunanlarm hamısı yerini tutmuşdu. El atasının, Ağa Musa Nağıyevin admı daşıyan xəstəxanada toplantmı baş həkim müavini Soltan Əliyev açdı. Toplantıya yığışanlar divardan asılmış Ağa Musa Nağıyevin portreti qarşısmda baş əyib, hələ "yerini tapmamış" xatirə lövhəsi ilə tanış oldular.

Xatirə lövhəsindəki yazı: "Xəstəxananı məşhur xeyriyyəçi Ağa Musa Nağıyev 1913-cü ildə şəxsi vəsaiti hesabma tikdirmişdir. Bunun səbəbi oğlu İsmayılm vərəm xəstəliyindən vəfatı olmuşdur. Binanı Ağa Musa şəfa ocağı kimi insanlarabəxş etmişdir".

Soltan Əliyev onunhaqqmdaməlumatı cəmləşdirərək dedi:

- Ağa Musa Nağıyev keçmişini heç vaxt yaddan çıxartmayan, qənaətçil, pulunu israfa xərcləməyən, varmı Azərbaycanm inkişafma, xalqm xeyrinə, milli kadrlarm yetişməsinə, gənclərin savadlanmasma, gözəl binalarm ucaldılmasma xərcləməkdən çəkinməyən bir insan olmuşdur.

"Haqq nazilir, lakin qırılmır" - ifadəsini söyləyən həkim Mirzəxan Əliyev 1963-cü ildən bu xəstəxanada minlərlə xəstələrə şəfa verib. O, 1992-ci ildə xəstəxanaya milyonçunun admm verilməsi faktmdan söhbət açdı. Bu işdə xidmətləri olan eks baş həkim Cahangir Hüseynovun, eks Səhiyyə nazirinin adlarmı xüsusi qeyd edib, sonda dedi:

- Bəli, milyonçu xəstəxana tikdirməklə bütövlükdə xalqının övladlarmı oğlunun tuş gəldiyi faciədən qorumaq istəyib. Allah sənə rəhmət eləsin Ağa Musa! Necə böyük ürək sahibi olmusan...Çalışdığm özün kimi başqalarmm övlad dağı görməməsi olmuşdur.

Həkim Ə.Mirzəxan gözəl bir am da xatırlatdı:

- Xeyriyyəçinin sırf vərəm xəstəliyinin qarşısmı almaq məqsədilə tikdirdiyi bu xəstəxananm yerini Bakmm ən ucqar nöqtəsində götürməsinə səbəb, əkiləcək şam və küknar ağacların exinokokları (vərəm çöpləri) məhv edəcək qüwəyə malikolması idi.

Bakmm eks arxitektoru, əməkdar memar, professor Şamil Fətullayev - Fiqarov şəhərin mərkəzi küçələrinin bəzəyi olan binalardan, A.M.Nağıyevin müəllifi olduğu sənət əsərlərindən geniş söhbət etdi.

Şairə Nurəngiz Gün, Gülarə Munis məşhur xeyriyyəçinin xatirəsinə həsr etdikləri şeirləri oxudular.

Çıxış edənlərin hamısı bir ağızdan ona rəhmət dilədi.

Tədbirin təşəbbüskarı olan, Ağa Musa Nağıyevə tarixdə ikinci nəfəs verən, nəvəsi Dilarə xanım dedi:

- Bu gün fəxr etdiyimiz soyadımızı əwəllər gizli saxlayırdıq. Ağa Musa Nağıyevə bəraət qazandırmaq, admı özünə qaytarmaq üçün gördüyüm işlər çox olub və hələ ardı var. Çalışıram ki, babamm gördüyü xeyirxah əməllərinin davamçısı olum. Ağa Musababamız güvənc yerimizdir.

Atam Fərəc teatr sənətinə çox bağlı idi. Soyadının sürgünü olduğundan uzun illər Azərbaycanm ucqar rayonlarmda, Orta Asiyada və Dağıstanda fəaliyyət göstərib, teatr sənətində dərin iz qoyub.

Ağa Musa Nağıyevin haqqmm qaytarılması uğrunda mən, bacım Solmaz xanım və mərhum qardaşım Rauf neçə illərdi ki, çox işlər görmüşük. Hərdən yorğunluq hiss edib, özlüyümdə düşünürəm ki, daha dincliyimi pozmayacağam. Amma vicdan məni rahat buraxmır. Düşünürəm ki, o kişinin etdiklərinin yanmda biz nə etmişik? Biz babamızla fəxr edirik, əməlləri ilə öyünürük.

Onun həyata keçirə bilmədiyi bir neçə arzusu var idi ki, hələ də yerini tapmayıb. Bunlardan biri də iki bina tikdirib, Ağa Musa Nağıyevi tarixə 100 bina tikdirən xeyriyyəçi, milionçu kimi sala bilsək, onun "hayıf

ki, 98 bina tikdirdim, 100 bina olsaydı, 100 yaşayardım " vəsiyyətinə əməl etmiş olarıq. Onun adına xatirə lövhəsi və küçənin olması istəyimiz isə bu günədək böyük arzu olaraq qalır.

Azərbaycanın əski milionçularının vərəsələrinin "Mesenat" fondunu yaratmaqda məqsədim 11 əski neft maqnatlarının nəslindən olan nümayəndələri toplayıb babalarımızın gördükləri xeyriyyə işlərini davam etməkdir.

Ruhun şad olsun Ağa Musa Ağa! Bil ki, nəvələrinin damarlarında sənin qanın qaynayır.

**"Hərbi and" qəzetinin müxbiri**
**İradə xanım**

## Son söz

Qurani Kərimin 31-ci ayəsində deyilir:

- Ey Adəm övladı, hər ibadət çağında öz ziynətlərinizdən istifadə edin. Yeyin, için, israf etməyin. Çünki Allah beləlırini sevmir.

Qurani Kərim müsəlmanlara yol göstərən, haqqı-nahaqdan ayıran, insanlara hidayət yolunu göstərən bir vasitədir.

«Allah israf edənləri sevməz» sözləri daim insanların şüuruna hakim kəsilməlidir, belə olarsa, Allah onu dərk edənlərin yoluna işıq salar. Barəsində ürək sözlərimi yazacağım müdrük bir insan, xeyirxah əməlləri ilə yaddaşlarda qalan, xatirələrdə yaşayan Bakı milionçusu Ağa Musa Nağıyev də məhz Allahın buyurduğu yolu, qənaət yolunu tutub, milyonlara sahib olub və bunları xalqın rifahı, maariflənməsi yolunda səxavətlə sərf edib.

Ağa Musa Nağıyevin haqqında eşidib, oxuduğumuz mənbələrdən aydın olur ki, müdrik insanların hər kəlməsinin, hər bir hərəkətinin arxasında hikmət və qüdrətli məqamlar var.

Deyirlər ki, Ağa Musanın bərbəri İshak Qaraxanov xozeynindən döşəmədəki xalını hədiyyə istəyir. Ağa Musa həmin xalıdan birini bazardan aldırıb ona bağışlayır. Bununla o bərbərə üç hikmət anladır: kişi başqasının evindəki mala tamah salmaz, qənaətlə dolansa - bu xalıdan ala bilər, gələn dəfə belə təvəqqeni etməz.

Bütün bunlar Ağa Musanın uzaq görənliyini və iti ağla malik olduğunu sübut edir.

Ağa Musa Nağıyev dövrünün, zəmanəsinin sayılıb seçilən mötəbər neftxudalarından biri olub, onun gördüyü xeyirxah işləri sadalamağa gəldikdə təkcə «İsmailiyyə»nin adını çəkməkkifayətdir.

Əgər «İçəri Şəhər» Bakının tarixidirsə, «İsmailiyyə» Bakının tarixinin möhürüdür.

Ağa Musanın «Realnı məktəbi» tikdirməsi və hamiliyə götürməsi ilə xalqınmaariflənməsində böyükrolu olmuşdur.

Onun dəyərli xüsusiyyətlərindən ən başlıcası insanlara əl tutması, onların dadına vaxtındayetməsi olub.

Qudası, milyonçu Şəmsi Əsədullayevi müflislikdən xilas etməsi buna misaldır.

Ağa Musa haqqında nə qədər çox danışılırsa, hər zaman xəyallar «İsmailiyyə»nin ətrafında dolanır.

Ağa Musanın Biləcəridəki son mənzilinə yolunu salan, bu binanın «körpə balasını» görər.

Nağıyevlər nəslinin yaxın dostu, səxavət sahibi Hacı Əvəz - Xırdalan Məscidinin axundu Ağa Musanın məzarını əbədiləşdirərkən «İsmailiyyə»nin kiçik maketini rəmzi olaraq məzarüstü abidə kimi elə reallaşdırıb, sanki övlad ataya «qonaq» gəlib.

Bakı xeyriyyəçisinə layiqli bir axirət evi tikilib. Nə yaxşı ki, onun xeyirxah əməllərini davam edən Dilarə və Solmaz kimi varisləri var.

İlahidən arzum Ağa Musa ruhunun Vətən torpağının üzərində rahat pərvazlaşmasıdır. Heç kəs və heç nə unudulmayır.

**Şairə-publisist - Gülarə Munis**

## MƏN FƏXR EDİRƏM Kİ, AĞA MUSA NAĞIYEV TİKDİRDİYİ BİNADA İŞLƏYİRƏM!

Tale elə gətirib ki, mən Bakıda anadan olmuş və bu şəhərin köhnə məhəllələrindən olan "Şaxski" küçəsində yaşamışam. Qədimküçələrdəki dar dalanlara, qəmbər döşənmiş məhəllələrə, oymalarla işlənmiş darvazalara, onlardan asılmış tıqqılbablara, eyvanlarda və pəncərələrdəki bəzəkli dəmir barmaqlıqlara, binaların daş haşiyələrinə, nəhayət fasadların üzərində yerləşdirilmiş barelyeflərə baxdıqca xəyallara dalmışam.

Lakin bu sənət əsərlərinin üzərinə qat-qat vurulmuş rəngləri, daş oymalarla işlənmiş divarlara hər qarışdan bir vurulmuş çəkic yerlərini gördükcə insanların vandallığından kədərlənmişəm.

Bir xarici qonaq Bakının bu mənzərəsini görüb, təəccüblə soruşmuşdur: Məgər alman faşistləri Bakıya gəlib çatmışdılar ki, divarlarınız dəlik-deşikdir? Siz memarlıq abidələrinizibeləmi qoruyursunuz?

İstiqlaliyyət küçəsi ilə gəzdikcə qədim binaların divarlarına sığal çəkməkdən özümü saxlayabilmirəm. Bu zaman sanki binaları tikdirən insanların əllərinə sığal çəkdiyim kimi hisslər keçirirəm.

Qismət elə gətirib ki, mən işlədiyim bina Bakının ən gözəl memarlıq abidəsi sayılan Dövlət İqtisad Universiteti də Ağa Musa tərəfindən inşa olunub.

Yüz illər keçsə də, A.M.Nağıyev xalqı üçün inşa etdiyi məktəb, xəstəxana və tikdirdiyi "Cəmiyyəti xeyriyyə" binasına görə yad ediləcək.

Mən hər dəfə yeni dərs ilində mühazirələrə başlayarkən ilk növbədə tələbələrə təhsil aldıqları binanın tarixindən söhbət açdığım zaman onların binaya olan münasibətlərinin necə dəyişildiyinin şahidi oluram. Onlar başa düşür ki, nə vaxt isə Ağa Musa Nağıyev tərəfindən müsəlman qızlarının məktəbdə oxumaqlarına nail olması nəyin bahasına başa gəlmişdir.

Ağa Musa Nağıyevin tikdirdiyi bu məktəbdə (keçmiş Realın məktəb), ancaq xristian mənsəbindən olan uşaqlar təhsil ala bilərdi. Məhz Ağa Musanın qoyduğu şərtə əsasən bu məktəbin qapıları müsəlman uşaqlarının üzünə açılır. O, oğlu İsmayılın və öz portretlərinin məktəbin akt zalında asılmasına nail olursa da, bu qısa ömürlü olur. Hakimiyyətin dəyişilməsi ilə portretlər binaya "ağırlıq" edir.

Bir gün iş otağıma gülərüz bir qadın daxil oldu. Söhbət əsnasında onun Ağa Musa Nağıyevin nəvəsi Dilarə xanım olduğunu bildim. Bakının tarixi ilə maraqlandığımı görüb babası haqqında xeyli söhbət etdi. Sonradan Dilarə xanım məni bu binanın 1907-ci ildə babası tərəfindən tikilməsi haqqında arxiv materialları ilə tanış etdi. Bu Ağa Musa Nağıyevin Rusiya imperatorunun Tiflisdəki vəliəhdinə məktəbin tikintisini başa vurmaq üçün vəsait ayırdığı haqqında müraciəti idi.

Mən bu sənədləri universitetin rektoru Ş.H.Hacıyevə təqdim etdim. Vətənimizin tarixinə və həmçinin çalışdığımız binanın tarixinə hörmətlə yanaşan professor Ş.H.Hacıyevi bu sənədlər özünə cəlb etdi. Qətiyyətlə deyə bilərəm ki, onu dövlət işçisi, savadlı alim, həm də bir pedaqoq kimi bu tarixi sənəd çox maraqlandırdı.

Və 100 il bundan əvvəl Ağa Musa Nağıyevin etdiyi vəsiyyətinə əməl etməyi Ş.H.Hacıyev qəraraaldı. Çox çəkmədi ki, ata və oğul, Ağa Musa ilə İsmayıl Nağıyevlərin portretləri universitetin divarlarında özünə yer tapdı.

Düz deyiblər ki, gec də olsa haqq yerini tapir.

**Yusifova Xalidə Hacı qızı**
Azərbaycan Dövlət İqtisad Universitetinin şöbə
müdiri, iqtisad elmləri namizədi

## DÜNYADA MAYASI HARAM OLMAYAN TİKİLİLƏR QALIR!

Neft milyonçusu Ağa Musa Nağıyev - xeyriyyəçi, mesenat olmaqlabərabər tikililəri ilə Azərbaycanda iz qoydu.

O tikmədi özü qala, tikdi ki, izi qala!

Onun həyat və fəaliyyəti, insanda maraq hissləri oyadır. Necə olub ki, AğaMusaNağıyev 70 ildə bu qədər yaradabilib?

11 yaşmdan zəhmətə alışıb, neçə-neçə insanların dadına çatıb, həsrətində olanların vəsiyyətinə əməl edib onların Kərbəlada dəfn edilməsi xərcini öz üzərinə götürüb, maariflənməyə diqqət yönəldib, savadsızlığa son qoymaq məqsədilə var-dövlətini əsirgəməyib.

Belə bir İnsan haqqında yeni səhifələrin açılması məni də bir vətəndaş kimi sevindirir.

Təbriklərimi xalqımıza çatdırıb deyirəm: «Yaxşılıq edin ki, iziniz itməsin!»

**Mütəllim Rəhimov**
Fəlsəfə elmləri namizədi

## EHTİRAM BORCU

Ədəbi yaradıcılıqla məşğul olduğum yarım əsr ərzində 6 bədii, 4 elmi-publisistik kitabın, jurnalistikanın müxtəlif janrlarında yüzlərlə yazının müəllifi olmağıma baxmayaraq bu məqaləni hazırlayarkən bir ehtiyat hissi keçirdim. Xeyli tərəddüd etdim: - Yaza biləcəyəmmi, gücüm çatacaqmı,

ilhamım yetəcəkmi - sualları qarçısmda qaldım. Özümü uca bir zirvəni fəth etmək istəyən və bu işin məsuliyyətini düzgün anlayan və anladıqca da narahatlığı artan bir alpinistə bənzətdim. Qarşımda həqiqətən uca bir zirvə - Ağa Musa Nağıyev zirvəsi durur. Bu böyük şəxsiyyətin admı oxuyan hər kəs yəqin ki, yazmm başlanğıcmda olan ricətimə görə məni bağışlayar.

Bu ənginlik qarşısmda əsas güvənc yerimə - Musa Nağıyevin şəxsiyyətinə ehtiramıma, xeyirxahlığma heyranlığıma, "Tikmədim özüm qalam, tikdim ki, izim qala" amalı ilə qurub-yaratmaq enerjisinə vurğunluğuma, xalqm qəlbində əbədiliyinə arxalanıb nəsə yazmalı, nəsə deməliyəm. Bu məqamda çələng bağlamaq istəyən, lakin gözləri oxşayan min ətirli, min çətirli güllərlə dolu olan çəməndən, bağçadan hansı gülü, hansı çiçəyi seçəcəyini bilməyən aşiqə oxşayıram. Ağa Musa Nağıyevin həyat və fəaliyyəti belə bir gülşəndir. Ona layiq əsərlərin hələ də yazılmamasma (bu bizim milli günahımızdır) baxmayaraq bu güllərdən xeyli dərilib, bu ümmandan xeyli damlalar götürülüb. Məhz ona görə deyilənləri təkrar etmək istəmirəm.

Ağa Musa Nağıyev qüdrətli xalqımızm şöhrətli, səxavətli övladıdır. Keçmiş üçün də, bu gün üçün də, gələcək üçün də mizan tərəzidir, millətə, vətənə xidmət nümunəsidir. İşlədiyi bölgədə dövlət vəsaiti hesabma nəsə tikdirib, sonra özünü bu bölgənin qurucusu adlandıran müasir məmurlardan fərqli olaraq Musa Nağıyevin bütün cah-calalı öz halal əməyi, haqdan gələn vəsaiti hesabma yaradılmışdı.

O, həmişə inamlı olub. İnanıb ki, xalqımız qədirbiləndir, min təlatümlər olsa da, qara küləklər əssə də, onun xeyirxahlığı öz layiqli qiymətini alacaqdır.

Düşünürəm ki, əgər belə olmasa idi nəhəng tikinti-abadlıq işləri gördürən M.Nağıyevin özünə bir məqbərə-türbə hazırlatmağı çox da çətin olmazdı. Lakin o inamma arxalanaraq ürəklərdə heykəlini qurmuşdur. Sonralar proletar dünyasmda nəinki Ağa Musa Nağıyevin sərvətlərinin "qırmızılaşdırılmasma", talan edilməsinə, hətta ruhuna da rahatlıq verilməməsinə baxmayaraq, Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün sahələrdə özünüdərk, özünəqayıdış yarandığı kimi bu böyük insana münasibətdə də qayğı və ehtiram hiss edilir. Nəvəsi Dilarə xanım demişkən, qədirbilənlər yanmda Ağa Musa Nağıyevin qədir-qiyməti, ona hüsn-rəğbət getdikcə artır. Bu prosesin daha vüsətlə davam edəcəyinə əminəm.

Əminəm ki, xalqımızm şöhrəti olan Ağa Musa Nağıyev, Hacı Zeynalabdin Tağıyev kimi xeyriyyəçi sahibkarların xatirəsi daha da əziz tutulacaqdır. Bu istiqamətdə çox iş görmək olar. Ən azmdan onlarm halal vəsaitlə inşa etdirdikləri binalarda "Bu bina xeyriyyəçi milyonçu filankəsin vəsaiti ilə inşa edilib" cümləsi yazılmış lövhələr vurmaq olar.

Həmin binalarda fəaliyyət göstərən idarə və müəssisələrdə bu tarixi şəxsiyyətlərin ad günlərini qeyd etmək, anma mərasimlərini keçirmək mümkündür. Belə tədbirlər gənc nəslin vətənpərvərlik, humanizm, qədirbilənlik, xeyriyyəçilik ruhundatərbiyəsində də müəyyənrol oynayabilər.

Xatırlayaq ki, şəhərimizdə Puşkin, Qorki, Mayakovski, Yesenin və bir çoxlarmm adma xatirə lövhələri və küçə adları vardır.

Tarixin öz hökmü, öz qanunları var. İnanıram ki, tarix öz sözünü deyəcək və qeyd etdiyim tədbirlər daha əsaslı və təm-təraqlı şəkildə nə vaxtsa həyata keçiriləcəkdir. Arzu edərdim ki, həmin xeyirxah işin əsasmı məhz biz - elə bu mərhələnin adamları qoyaq.

***Mədəd Coşğun şair,publisist***

**AĞA MUSA NAĞIYEV AZƏRBAYCANIN DAŞ YADDAŞIDIR**

Hamının yaddaşmda baş verən tanışlıq nəyisə öyrənməyinə yardımçı olur. Belə bir tanışlıq mənimlə məşhur neft milyonçusu Ağa Musa Nağıyevin nəvəsi, Azərbaycanm əski milyonçularmm varislərinin «Mesenat» fondunun prezidenti Dilarə xanım Nağıyeva arasmda baş verəndə nəhayət ki, tarixin daş yaddaşı olan Ağa Musa Nağıyev haqqmda məni maraqlandığım və narahat olduğum suallara cavab tapacağıma inandım.

Azərbaycanın zəngin tarixi, bu tarixin səhifələrindən bu günümüzə qədər gəlib çatan, öz dəsti-xətti ilə Azərbaycanın daş yaddaşına çevrilən, Ağa Musa Nağıyevin vətənpərvərliyinə qiymət verməyə meyar tapmaq çox çətindir. Ağa Musa Nağıyevin adı ilə bağlı olan, günü-gündən gözəlləşən Bakıda ucalan göydələnlər arasından öz möhtəşəm, məğrur duruşu ilə bu günümüzə gəlib çıxan memarlıq əsərlərinin yanından etinasız keçmək olmur. Hər bir qədim tikili insanı önündə ayaq saxlayıb haqqında düşünməyə vadar edir.

Kasıb ailədə anadan olub boya-başa çatan Ağa Musanın çəkdiyi əzab və əziyyətlər Allah-Taala tərəfindən qiymətləndiriləndə onun heç ağlına da gəlməzdi ki, bir vaxt məşhurlaşacaq və bu məşhurluq sonradan ona və ailəsinə sonsuz bəlalar gətirəcək.

Başına gələnlərə baxmayaraq, Azərbaycanın gələcəyini düşünən, bütün var-dövlətini Vətəninə yatıran, xeyriyyəçi adının məhz onun boyuna biçildiyini sübut edən Ağa Musa Nağıyevin adı bu günümüzün <<milyonçularına>> örnək olmalıdır. Milyonları vətənin çiçəklənməsinə xərcləyərkən ləzzət almaq olar. Qoy onlar da Ağa Musa Nağıyev kimi tarixdə az da olsa iz qoysunlar. Unutmasınlar ki, çoxlu binalar ucaldaraq qazanc əldə etməklə xeyriyyəçi adını qazanmaq, Ağa Musa olmaq - demək deyil.

Bu gün Azərbaycanın işıqlı gələcəyini düşünən, sərvətinin hamısını deyil, cüzi bir hissəsini Azərbaycana sərf etməyi bacaran Ağa Musalara böyük ehtiyac var.

Qazandığı milyonların Azərbaycana məxsus olduğunu və hər bir halal qəpiyinə qədər Azərbaycanın çiçəklənməsinə sərf edilməsini lazım bilmək məhz Ağa Musa Nağıyevə xas olan xüsusiyyətdir.

Bu gün Bakıda ucalan göydələnlər arasından Azərbaycanı salamlayan, mayası halallıqla yoğrulan, inşası zəhmət bahasına qazanılan bu binalar hər bir iş adamını narahat etməlidir. Qeyd etmək lazımdır ki, ölkə başçısı bu tarixi binaların qorunması, onların gələcək nəslə çatdırılması işində şəxsən maraqlıdır.

Ağa Musa Nağıyevin tikdirdiyi binaların üzərində özü tərəfindən həkk etdirilmiş «MN»-dən başqa heç bir tarixçə lövhəsi yoxdur. Bu tarixin təhrif olunmasına gətirib çıxarır. Çünki, Ağa Musa Nağıyev bu binaları tikdirərkən təkcə öz ailəsinin rifahını düşünməmişdir.

Ot kökü üstündə bitər. Ağa Musa Nağıyevin davamçısı olaraq Dilarə xanımın öz xeyirxah əməlləri ilə hamının rəğbətini qazanıb, Azərbaycanın yaxın keçmişində xidmətləri olan babası Ağa Musa Nağıyevin adının əbədiləşdirilməsi ətrafında böyük işlər görüb. Məhz onun sayəsində Ağa Musa haqqında dəqiq və ətraflı məlumatlar, xatirələr dövrü mətbuatda və televiziya kanallarında, müxtəlif yubiley tədbirlərində ictimaiyyətə çatdırılır.

Keçmişimizə hörmətlə yanaşmaq, Azərbaycanın tarixini, onun dəyərli səhifələrini övladlarımıza,gələcək nəslə ötürmək hər birimizin borcudur.

**Xoşqədəm Cəlilova - Dilarəsevərlərdən biri**

Kirov Ağa Musa Nağıyevi yerindən dəbərtdi

Paytaxtımızın mərkəzi küçələri çoxuna Venetsiyanı, Neapolu xatırladır. Hətta İtaliya şəhərlərindən sonra Bakının fəvvarələr meydanını gəzən şəxsdə həmin şəhərlərin davamını görür kimi təsəvvür oyanır. Bu layihələr bir əsr əvvəl tətbiq edilib. Binalar Bakının yeni görkəmində də sanballı çəkiləri ilə nəzərə çarpırlar. Milyonçu, neft maqnatı Ağa Musa Nağıyevin təşəbbüsü ilə inşa edilən, yaradıcı ustalıqla işlənən, ornamentləri ilə zövqü və azacıq sentimentallığı olan hər vətəndaşı seyrə, düşünməyə istiqamətləndirən binalar, əslində Bakının vurğulu yerləridir. Şəhərin nidalı təqdimi olan 98 binanın yaranmasında Nağıyev təşəbbüsü var. Ağa Musa Nağıyev.

Azərbaycanın tarixində ən varlı şəxsiyyətlərdən olan bu adın daşıyıcısı 1849-cu ildə Bakının Biləcəri kəndində olduqca kasıb ailədə doğulub. Samançı oğlu Musa 11 yaşından hamballıq edib. 18 yaşına kimi əlinin qabarı, ayaqlarının döyənəkləri hesabına qazandığı pulu qəpik-qəpik toplayaraq kiçik torpaq alır. Musa özünün kiçik təsərrüfatını yaratmaq və kasıbçılıqdan can qurtarmaq, ucalmaq arzulayır. Acı, aciz həyatla döyüşən kəs onu özünə məğlub edə bilir. Həyat qarşısında güclü döyüşçüsünün olduğunu hiss etməlidir. Həyat hiss etməlidir ki, qarşısındakı döyüşçüdür!

Bu gün Ağa MusaNağıyevin inşa etdiyi tikililərinin ruhu da öz ruhu tək narahatdır. Əslində onun haqqında yazdıqlarımızı irsinə hörmət edən hər bir azərbaycanlı yaxşı bilir. Bu gün Bakının hər qarışından pul qazanmaq istəyən "şəxslər" əski milyonçulardan çox-çox fərqlidirlər. Əgər indiyə qədər heç olmasa iki Nağıyev yaşasaydı ən azı görkəmli tikililərin və

onlarm sakinlərə xidmətinin siyahısı geniş olardı. Tarixin qayğısma qalmaq yalnız dövlətin işi deyil. Bu mənada ictimaiyyət də hərəkətli olmalıdır. Bilmirəm bəlkə Nağıyev 11 yaşmda bapbalaca vücudu ilə ailəsini dolandırması, gələcəyini təmin etmək məsuliyyətini daşımaqla andı insanlığı. Istənilən halda, həyatı mütaliə edərək bacardı insan olmağı. O hər şey haqda düşünürdü. Azərbaycanlı balalarınm təhsilli olmasını, Bakmm susuzluğunu, insanların küçə həyatını...

Pulunu qəpiyinə qədər sayan Ağa Musa Nağıyev "mən qarpızı qabığma qədər yeməklə milyonçu olmuşam" deyərdi. ÇarlINikolayNağıyevi 11 milyonçudanbirincisiadlandırıb, ona "Neftin Kralı" titulu vermişdir.

Atası ölüm yatağmda ikən Ağa Musa ona söz verir ki, vəsiyyətinə əməl edib, Azərbaycana 100 möhtəşəm bina bəxş edəcək.

Ağa Musa Nağıyev 70 yaş yaşasa da, 98 möhtəşəm binanm banisi oldu. Onun imzası - venzeli xeyriyyəçilik modeli olaraq binalarm üzərində qalmaqdadır. Burada bir neçə misramı yerində hesab edirəm:

Insan olmağa tələsin,
Ömürvaxtdır. Adam olmaq
asandır, Sadəcə doğulmaq
lazımdır...

Milyonçunun tikdirdiyi binalar əsrlər yola salmışdır. Binalarm (ələlxüsus 28 may küçəsini bəzəyən binalarmm) hər ornamentində xüsusi ştrix var. Binalarm üzərindəki venzel öz gözəlliyi və məna etibarı ilə diqqəti cəlb edir. Kənarlarmda saman çələngi, ortada hambal şələsi və üzərində MN və yaxud AM təsvir olunan yazmm önündən həyəcansız keçmək olmur. Milyonçu bununla keçmişini unutmadığmı vurğulayıb.

Bir vaxt samançı oğlu olub, hamballıq edən məşhur maqnat "Qənaətmilyonçuolmağmyoludur" deyirdi.

Duma iclaslarmdan birində Bakmm su problemi müzakirə olunur. Həmin vaxt Hacı Zeynalabdin və Nağıyev yanaşı əyləşmişdilər. Sədr Hacıya xitabən bu problemin həllində nə kimi kömək göstərə biləcəyini xəbər alır. Müraciətin cavabsız qaldığmı görən Ağa Musa Hacıya tərəf çevrildikdə onun mürgülədiyini görür. Özündən 27 yaş böyük olan Hacmı narahat etməyə ürəyi gəlmir. Şollar suyunun çəkilməsinə nə qədər vəsait ayıra bilərsiniz sualma Ağa Musa cavab verir: - Vəsaitin 75 faizini öhdəmə götürməyə hazıram. Zaldakı çəpik səslərinə diksinən Hacı Zeynalabdinə Ağa Musa:

- Gözün aydm ay Hacı, Bakıya su çəkdik - deyib, müjdələyir.

Çox təəssüf ki, bunun şahidi olmayanlar Nağıyevin xəsis olduğunu, şolların isə Tağıyev tərəfindən çəkildiyini deyirlər.

Bir zamanlar milyonçu Nağıyevin Bakı əhalisi üçün öz hesabma çəkdirdiyi sudan, indi istifadə edib varlananlar da var. Halbuki, bu suyu həmvətənlərinə hədiyyə etmişdi.

Ağa Musa Nağıyevin tikdirdiyi 4 xəstəxana binasmda insanlar bu gün də şəfa tapırlar. Bu yaxmlarda mütəxəsislər müəyyən ediblər ki, bu binalarm tikinti materiallarmda antibakterial maddələrdən istifadə olunub. Bu da xəstələrin sağlamlığma xidmət edən faktdır.

Ağa Musa Nağıyev avropalaşmaq niyyətində olanlara "Qərbi Azərbaycana gətirəcəyəm" deyirdi.

Onun mşa etdirdiyi binalar bu gün də xarici qonaqları heyrətləndirir. Bu tiklilər Azərbaycanm tarixinə çevrilib, kübar irslərini 100%təsdiqləyir.

Belə xeyriyyəçiliklərlə məşğul olan Ağa Musanm Çəmbərəkənd qəbiristanlığmdakı (1919-dən-1931dək) qəbri Kirov parkmm salmması ilə əlaqədar Biləcəridəki "Proparka" qəbiristanlığma köçürülür.

Onun Biləcəri Dağustü qəbiristanlığmdakı 3-cü qəbrinin də aqibəti bu cur olur. Beləcə Ağa Musanm nəşi 80 il (19191998) Kərbəla yolu gözləməli olur. Milyonçunun nəşi yalnız 1998-ci ilin 23 iyulunda xeyriyyəçi, Axund Hacı Əvəzin təşəbbüsü ilə yenə Biləcəri qəbiristanlığmda (4-cü) əbədi məzarma qovuşur. Qəbrin üstü oğlunun xatirəsinə tikdirdiyi İsmailiyyə binasının estetikası ilə tərtib edilib.

35 imkansızm vəsiyyətinə əməl edərək onları

Kərbəlada dəfn etdirən Ağa Musanın qəbri az qala bir əsr idi ki, əbədiləşdirilməyib ortalıqda qalmışdı. Yayın qızmar günündə dördüncü dəfə onun nəşi məzara tapşırılarkən Biləcəridə güclü yağış yağırdı. Elə bil təbiət də onun acı taleyinə, ömrünü xeyriyyəçiliyə həsr edən insana qarşı haqsız, biganə münasibətə protest elan edirdi. Bəlkə də Ağa Musa Nağıyevin qəbrini götürüb, yerində Kirov parkı salan millətin halına ağlayırdı...?

**P.S.** 4 xəstəxana: E. Əfəndiyev adına, Ağa Musa Nağıyev adına, Ana və Uşaq Mühafizə İnstitutu (OMD) və Sabunçuda poliklinika tikdirən Ağa Musa Nağıyevin adını daşıyan yeganə xəstəxanadan da adının götürülməsi bu günün müəammalı suallarından biridir. 1992-ci ildə keçmiş Semaşkoya verilən adının lövhəsi onsuz da həddən artıq sadəliyi ilə fərqlənirdi. Nədənsə bütün adlı xəstəxanalarda bu lövhələr xüsusi zövq ilə yazılır. Burada isə buna da "qənaət" edilmiş kimi tablo çoxkasıbidi. Heçolmasa, varidi. Bugünisə...

**Neft jurnalının müxbiri Aysel Əlizadə**

**MALINDAN NƏ ÇATDI BƏS, ÖVLADINA?**

Sənə ehtiramım ölçüyə gəlməz, Baba həsrətini bir kimsə bilməz. Kim deyir:-Ölənin qədri bilinməz? Torpağın üstündə qoymusan sərvət, Xeyirxah əməlin aləmə ibrət.

Yatdığın torpağa toxunsa üzüm, İncilər səpəcək torpağa gözüm. Səni vəsf etməyə acizdir sözüm, Çəkmisən dünyada əzab-əziyyət, Xeyirxah əməlin aləmə ibrət.

Nə yazsam az olar sənin adına, Vətən övladının çatdın dadına. Malından nə çatdı bəs, övladına? Doxsan səkkiz bina qalıb əmanət, Xeyirxah əməlin aləmə ibrət.

Yığdın sağlığında nə qədər savab, Səndən yazılacaq hələ çox kitab. Nəvən bir suala tapmayır cavab, İndi kimdə vardır səndəki qeyrət? Xeyirxah əməlin aləmə ibrət.

Adına qazıldı dörd yerdə məzar, Çox əsdi ömründən acı ruzigar. Bir gün sona yetər həsrət - intizar, Gördüyün işlərə verilər qiymət, Xeyirxah əməlin aləmə ibrət.

Çox şeyin özgələr gördü xeyrini, Bir gün tapar yəqin haqq öz yerini.

Sənə həsr eyləyir Munis şerini, Allah qismət etsin ruhuna cənnət, Xeyirxah əməlin aləmə ibrət.

Olma bu dünyada tamahm acı, Qənaət ödəyər hər ehtiyacı. Qənaət, xəsislik deyil!

**Gülarə Munis Azərbaycan Jurnalistlər Birliyinin üzvü**